YYSQ – WWW.YYSQ.ORG
www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxananın təqdimatında

“Çağdaş Azərbaycan poeziyası”: 31 (01-30 - 2014)

Mahirə Nərimanqızı

Mənim Dünyam

Poetik toplu

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 31 (01-30 - 2014)

2014

www.kitabxana.net
Milli Virtual Kitabxananın təqdimatında

"Çağdaş Azərbaycan poeziyası": 31 (01-30 - 2014)

Bu elektron nəşr http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Çağdaş Azərbaycan poeziyası" Kulturoloji-bədii layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır. Elektron Kitab N 31 (01-30 - 2014)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

YYSQ - http://www.yysq.org və Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.net

Mahirə Nərimanqızı

Mənim Dünyam

Poetik toplu

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N31 (01-30-2014)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq



Mahirə Nərimanqızı. “Mənim Dünyam”

www.kitabxana.net – *Milli Virtual-Elektron Kitabxananın e-nəşri*

MAHİRƏ NƏRİMANQIZI

MƏNİM DÜNYAM

Bakı - **2014**

Redaktor
Nadir Məmmədli
filologiya elmləri doktoru, professor

Kitabda Mahirə Nərimanqızının son illərdə yazdığı şeirlər toplanmışdır. Müəllif heca və əruz vəznlərində olan, eləcə də sərbəst formada yazdığı şeirlərində müxtəlif mövzulara müraciət etmişdir. Məhəbbət,vəfa, sədaqət və haqq-ədalət M.Nərimanqızının şeirlərinin əsas qayəsini təşkil edir.Burada övlada, ata-anaya, təbiətə olan sevgini əks etdirən əsərlər də var.

Təkbeytlər və təkbəndlər kimi kiçik həcmli poeziya nümunələrində müəllifin dərin fəlsəfi fikirləri yer almışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

RAHAT ADAMIN NARAHAT ÖMRÜ...

Şairlik – sözə ram olmaq, sözə ağalıq edə bilmək, sözün zərgərinə çevrilməkdi. Şairlik – sözə hamilə olub, onu içində böyütmək, qanını, canını, hissini sözün içinə çəkib, bətnindən can qopara bilməkdi. Şeir – şairin müqəddəs balasıdı.

Mahirə Nərimanqızının yaradıcılığı ilə tanışlığım son illərə təsadüf etsə də, şeirləri onun daxili aləminin rəsmini tez çəkdi mənimçin. Ürəyinə, qələminə, sözünə qonaq etdi məni. Həm üsyanı, həm nisgili, həm ağrısı, həm sevinci, həm ironiyası, həm barışığı şeirlərinin əynindədi.

Poeziyanın bütün janrlarında – qəzəl, qoşma, gəraylı və s. Mahirə xanım mahirdi. Həm sözə təslim olur, həm sözü təslim edir:

Kim açar boynuna pərçim o kədər sarmaşığın?
Dolanar kəndiri bərk-bərk, üzülməz, bilirəm.

– deyir şair. Kədər sarmaşığının üzülməyəcəyini bilir və kədərini sözə geyindirə bilir.

Mahirə xanmın şeirlərində öz izi var, öz sözü var və özü var:

Mənə dünya boyda ürək gərəkdir,
O qəlbə min yerdən dirək gərəkdir,
Daşımağa sinə, kürək gərəkdir–
Mən sənin qəlbinə sığmazdım axı...

–Yerə, göyə sığmayan, dəqiqələrə, saniyələrə üsyan edən, fəsilləri içində yaşadan, kədəri, sevinci ruhuna geyinən, qələmini gözünün yaşına, ürəyinin ağrısına, qəlbinin tənhalığına, ruhunun üsyanına batırıb yazan adam, təbii ki, ürəyə sığmaz...

Bu yolun palçığı, buzu görünmür,
Mahirə Nərimanqızı. "Mənim Dünyam"

Gedən elə gedir, üzü görünmür,
Dalınca kölgəsi, izi görünmür,
Bir daha bizimlə görüşü yoxmu?...

– Cavabını bildiyinə yenə də sualla yanaşaraq ümid pəncərəsini qapamayan şairin yaşantıları belə olur...
Mahirə xanım, sözünün rahatçılığında, narahat ömür yaşayır... Bəlkə də bu, mənə elə gəlir, bəlkə də bu, Mahirə xanımın poeziyasının çəkdiyi və göstərdiyi üzüdü...
Rahatlıq – ömrünə, narahatlıq – şeirlərinə köçsün, Mahirə xanım...

Xanım İsmayılqızı
Bəstəkar-şairə, AYB-in və AJB-in üzvü

ELƏ ŞİRİN BAXDİN Kİ SƏN...

Elə şirin baxdın ki sən,
Gözüm dəydi bal gözünə,
Dünya baxıb bir ah çəkdi–
Düşdü qara xal gözünə.

Susdu ağzım, susdu dilim,
Bir söz söylə sən, ay gülüm,
Qəlbindəkin necə bilim?–
Baxıram lal-lal gözünə.

03.11.13

NİGARANAM...

Narahat döyünür qəlbim nə yaman,
Başımdan min fikir, min güman keçir,
Səndən nigaranam, yaman nigaran,
Nə yollar dayanır, nə zaman keçir…

Küləklər verərdi səndən xəbəri,
Tərs kimi, bu gecə külək də əsmir,
Gecə, sanki, udub körpə səhəri,
Üfüqlər də küsüb, bir kəlmə kəsmir…

Yaman narahatam səndən bu gecə,
Başında bir qəza-qədərmi vardır?
Ürəyim sıxılır vaxt keçməyincə,
Gen Dünya başıma nə üçün dardır?...

Səndən nigaranam… yaman nigaran...
27.12.13

BIR SIRRIM VAR...

Sirri vermə dostuna ki,dostu var,
Sirri verən dili kəsim, soyum mən,
Hər gördüyün danışan dil lal olar,
Onda, gərək, o gözləri oyum mən.

Bir sirrim var, ürəyimdə mürgülü,
Heç danışmır – nə ağzı var, nə dili,
Nə aşiqdir, nə nazənin sevgili,
Heç bilmirəm adını nə qoyum mən.

Bir çiçəkdir, artıq çoxdan soluxub,
Bir ürəkdir, eşqə yeni yoluxub,
Dinə bilmir, uşaq kimi doluxub,
Gözləyir ki, lal könlünü duyum mən.

Göz yaşıyam, kirpiklərə düzülləm,
Ürəklərdən yanaqlara süzülləm,
“Desəm, öldürəllər, deməsəm, ölləm,”
Bu sirrimdən, Mahi, necə doyum mən?

QAPALI YOLLAR

Qalmışam gör neçə yolayrıcında,
Hansını seçim ki, sənə gətirsin?
Birində xəyanət yurd salıb çoxdan,
Boylanır – bəs indi nəyi bitirsin?...

Birində yalanlar – saçı pırpızlı,
Üst-başı cır-cındır, başı qapazlı.
Birində məkrdir – iblis avazlı–
Gözləyir, insana zərbə yetirsin...

Sənə gələn yollar doludur, dolu,
Burdan keçə bilməz bir insan oğlu,
Bir yol qalır – həzin ayrılıq yolu,
Məni ayrılığa yollar götürsün...

YAZIQ...

Bir kirpik çalaram, min ah tökülər,
Süzülə bilməyən o yaşa yazıq,
Tələsib, yay vaxtı ömrümə gələn,
Tər-suyun içində o qışa yazıq...

Gözümün içində kədər gizlənib,
Boğazda min düyün – qəhər gizlənib,
Qəlbimdə neçə söz - zəhər gizlənib,
Üzümdə can verən gülüşə yazıq.

Qəlbimdə bəsləyib, əzizlədiyim,
Tanrının payi tək eziz bildiyim,
Hamıdan, hər kəsdən cox gizlədiyim,
Günahsız bülbülə – o qusa yazıq.

SÜRGÜN

Gözümün yaşından bir çay yaratdım,
Bir kağız gəmiyə yığdım eşqimi,
Dənizə çatmaqçın sulara atdım,
Batıb-boğulmaqçın yorğun eşqimi...

Dəniz yuyub sildi tozun-pasağın,
Külək əsib öpdü solğun yanağın,
Dalğa alıb gəmi – dəftər varağın,
Sürdü sonsuzluğa sürgün eşqimi...

04.09.13

KÜÇƏ

Bu gün bu küçədən keçərsən deyə,
Günəş də üzünə gülür küçənin,
Bulud kirpiyiylə damlalar səpir,
Səba toz-torpağın silir küçənin.

Görən heyran olur çinar boyuna,
Allahın verdiyi gözəl payına,

Səhərdən əlindən düşmür bu ayna–
Səni görən "dərdin bilir" küçənin...

03.08.13

SƏFƏR

Ay külək, qalx göyə, təmizlə yolu,
Bu gecə səfərim uzun sürəcək,
Buluddan arındır, əzizlə yolu,
Bu səfər lap dizin-dizin sürəcək...

Ay baxıb dərin bir fikrə dalacaq,
Ulduzlar boylanıb, məəttəl qalacaq,
Ürəyim yoluma işıq salacaq,
Ümidin dalıyca izin sürəcək...

Mən keçim, dalımca düz buludları,
O qadın, o gəlin, qız buludları,
Keçməsin bəd nəzər, göz buludları–
Mahinin dalıyca sözün sürəcək...
24.01.14

ADDIM–MƏKTUBLAR...

Bir yazığın gəlsin bizim küçəyə–
küçəni qaranlıq, toz-duman baslb!
Qorxuram bu küçə səndən inciyə –
O daşı-torpağı qəm, hicran basıb!

Həsrətdən qaralmış o daş üstündə
ayağın yerisin, qoy izin düşsün,
küçədən bir ovuc lil-palçıq istə,
addım-məktubların, sirr-sözün düşsün...

Bir yazığın gəlsin bu dar küçəyə –
büzüşüb bu küçə, boynunu burub,
o qədər boylanıb o, sənsizliyə,
boyu ərşə qədər uzanıb-durub...

27.01.14

DUZLU YAĞIŞLAR...

Yağışın şirinin heç dadmadım mən,
mənim yağışlarım hey duzlu yağdı...
Yayın ortasında yanağım dondu,
yağışım şaxtalı, hey buzlu yağdı...

Axıb, dodağımda bənd alıb durdu,
Şaxtası qəlbimdə buz saray qurdu,
Bu yağış damarda qanı dondurdu,
Gah aşikar yağdı, gah gizli yağdı...
24.01.14

QAYIDA BILMƏDIM

Dönüb izlərimə baxmaq istədim –
Nə qədər iz düşüb izlərim üstə!...
Neçə ayaq izi, heyvan ləpiri,
Caynaqlar görüşüb izlərim üstdə...

Axtardım, aradım öz izlərimi,
Yad izlər altından tapa bimədim,
Qayıda bilmədim yolun başına,
Kələfin ucunu tuta bilmədim…

ADI PÜNHAN

Bir ömürdür yol gedirəm –
nə tozu var, nə də izi,
Bir pünhani yar sevirəm –
sirr olubdur gözəl üzü...

Hər çiçəkdə, hər zərrədə
gözüm gəzir o Gülüzü,
Kəpənəkdən qalan zərdə
düşüb qalır ayaq izi...

Ətri gülün ləçəyində,
səsi suyun səsindədir,
Nəfəsi sübh küləyində,
adı pünhan – "Ya Sin"dədir.

OXU, BÜLBÜL,

Oxu, bülbül, oxu, bülbül,
Bəlkə, güllər oyana,
Bəlkə, qəlbim çıxa qəmdən,
Gül ətrinə boyana...

Bülbül, bu qəm, bəlkə, səndən,
Gül ətrindən utana,
Bəlkə, məndən köçüb gedə,
Qürbət eldə dolana...

ÇATAÇAT

Bir cüt gözəm – içi qəmli, nisgilli,
Bir cüt qaşam, çatılıbdır çataçat,
Bir cüt sözəm – nalə dilli, qəm dilli,
Bir atəşəm, çatılıbdır çataçat...

Ömür atım çapıb gedir, dayanmır,
Günüm nənni – yatmış bəxtim oyanmır,
Başımdan qəm tökür fələk, doyammır,
Ürəyimə çat salıbdır çataçat.

Gecə keçir, uzaqlarda səhərdir,
Ümidlərim üzəngidir-yəhərdir,
Xəyallarım uzun yallı kəhərdir,
Üfüqlərə yol alıbdır – çataçat.

31.10.13

MƏNI ALIN ÜRƏYIMIN ƏLINDƏN...

İçi dolu qızıl qandır bu qəlbin,
Məni alın ürəyimin əlindən,
Çəkə bilmir canım dağ kimi dərdin,
Məni alın ürəyimin əlindən....

Dərd çəkməyə hər dəmi var qəlbimin,
Dünya boyda dərd-qəmi var qəlbimin,
Canım kimi həmdəmi var qəlbimin–
Məni alın ürəyimin əlindən....

Nə deyirəm, heç nə onu ovutmur,
Təsəllilər odun-közün soyutmur,
Vəfasızı bircə gün də unutmur –
Məni alın ürəyimin əlindən....

Bu qəlb məni elə günə saldı ki,
İllərimi məndən elə aldı ki,
Mahi, burda neçə günüm qaldı ki?–
Məni alın ürəyimin əlindən....

09.10.12

ALIN ÜRƏYİMİ...

Alın ürəyimi, verin yellərə,
Qapıb qoy apasın, sovursun külək,
Bir gündə ağaran qara tellərə
Qarları ələsin, qovursun külək...

Alın bu cismimi , verin torpağa,
Doğma anam kimi qoy əzizləsin,
Yol verin ruhuma, uçsun uzağa,
Mələklər əzabdan qoy təmizləsin....

16.01.14

DAYANMA, ÜRƏYİM

Niyə çırpınırsan qəfəsdə quş tək?
Dayanma,ürəyim,dayanma hələ,
Hər şey ötüb-gedər, hər şey keçəcək,
Dayanma,ürəyim,dayanma hələ.

Səhər Günəş çıxıb,axşam batacaq,
Gecələr Ay göydən bizə baxacaq,
Ulduzlar rəqs edər,bir-bir axacaq,
Dayanma,ürəyim,dayanma hələ.

Hər səhər mülayim külək əsəcək,
Bülbüllər bulağın səsin kəsəcək,
Zanbaqlar üşüyər,şehdən küsəcək,
Dayanma,ürəyim,dayanma hələ.

Tanrıdan yazılı bir göstəriş var,
Narahat gediş var, rahat gediş var,
Hələ görülməli nə qədər iş var!–
Dayanma,ürəyim,dayanma hələ.

MİNNƏTDARAM

Nə qədər incidib əzsə də məni,
Dünyaya gəlməyə çox şadam, Allah!
Kiməsə dost oldum, kiməsə yoldaş,
Kiməsə anayam, övladam, Allah.

Seçildim insantək daşdan, torpaqdan,
Seçildim ağacdan, otdan, yarpaqdan,
Qurtuldum cansıztək yaddan çıxmaqdan–
Cismimdə yaşayır bir ADAM, Allah!

Bu boyda dünyada, yaxşı ki, varam,
Bnunuņun mən Sənə çox minnətdaram,
Tək Sənə aşiqəm, tək Sənə yaram –
Ürəyəm, nəfəsəm, bir ad'am, Allah,
Dünyaya gəlməyə çox şadam, Allah!

24.12.13

YUYAQ GECƏNI

Ataq başımızdan dumanı, çəni,
Bu gecə gəl düşək yağışa, dağlar,
Yusun bu şıdırğı yağış gecəni,
Yuyunub arına, saflaşa, dağlar.

Şikayət etməyək olub-keçəndən,
Bir daha gecələr dolmasın qəmdən,
Keçək bu tərtəmiz ,bu pak gecəmdən,
Gözlər həsrət qalsın qan-yaşa, dağlar.

YENƏ...

Yenə payız gəlib qəlbimə,deyən,
Çılpaq ağaclardan xəzəl tökülür,
Yenə baş tutmayır ürəyimdeyən,
Yenə gecə bitmir,dan gec sökülür...

Yenə külək qovan qara buludlar
Bir basabas salıb, üstümə gəlir,
Yenə çəkir məni dara buludlar–
Çəkib qılıncını qəlbimi dəlir...

08.01.14

YARPAQ-MƏKTUBLAR

Dünyanın çayları yolunu azıb,
Bütün sellər gəlib gözümdən axır,
Şimşək buludlarda yəqin arx qazıb–
Suyu yanağımdan, üzümdən axır.

Küləklər qapını qırıb-tökübdür,
Girib ürəyimin içində əsir,
Çinarlar qarşımda boynun bükübdür,
Yarpaq-məktubları hara tələsir?

04.01.14

GETMƏ,QƏLBIM

Çək gözünü o yollardan –
gedən dönüb gələ bilməz.
Qayıt, xəyal, qəlbim xamdır –
bu yolları bilə bilməz.

Getmə, qəlbim, yol uzaqdır,
yollar qurd-quş, yalquzaqdır,
bu eşq sənə bir duzaqdır–
kor eşq duzaq-tələ bilməz.

Bu yolda qəm, göz yaşı var,
neçə cavan, gənc, naşı var,
neçə qərib başdaşı var –
hər kəs xoşbəxt ola bilməz.

Yollarda çox düyünlər var,
çoxdan bitmiş bugünlər var,
Leylilər var, Məcnunlar var
ki, eşqdən kam ala bilməz.

Getmə, qəlbim, yol uzaqdır,
yollar qurd-quş, yalquzaqdır,
Mahi kiçik saf uşaqdır–
sənsiz burda qala bilməz.

12.01.10

ÖTÜB GEDIRSƏN

Keçdiyim hər yerdə səni görürəm,
Üzünü yan tutub, ötüb gedirsən,
Cəsarətin çatmır durub baxmağa,
Hər nəfəs aldıqda bitib gedirsən.

Onsuz da gedənim çox idi mənim,
Sənlə boş dünyam da yıxıldı mənim,
Elə bil, heç dərdim yox idi mənim–
Dərd üstdə dərd kimi bitib gedirsən.

Ürəyim heç bir rəng, boya bilmədi,
Daim hicran yedi, doya bilmədi,
Yerinə başqasın qoya bilmədi,
Ömürlük dərdinə yetib, gedirsən.

İnsan sərrafıydı Mahi bir zaman –
Bu yolu eninə getdi ilk andan.
Qəlbin gözü yoxdur, keçib yanından,
Kor gözə iynə tək batıb gedirsən...

21.06.13



KÜSMÜŞƏM

(İtirib-tapdığım şeirlərimdən..)

Haqlıykən çox haqsız oldum dünyada,
Haqqı yazan mələyimdən küsmüşəm,
Yerdə gəzib, fikri dağda, qayada,
Göydə süzən ürəyimdən küsmüşəm.

Buludları bir-birinə ötürən,
Yarpaqları çırpıb-çırpıb tökdürən,
Neçə vaxtdır mənə kədər gətirən
Yadtək gəzən küləyimdən küsmüşəm.

Gələndə heç divar-sərhəd bilməyən,
Göyün yeddi qatını seyr eyləyən,
Amma vüsal yolun tapıb, gülməyən,
Məni üzən diləyimdən küsmüşəm.

VƏFASIZ

Uzaq yoldan gəlir yuxum, yorulub,
Görən, harda yolu azıb, yubanıb?
Görən, kimin gözlərinə vurulub,
Yenə hansı xumar gözə dadanıb?

Vallah, yuxum vəfasızdır sən kimi,
Elə gözü yad gözlərdə yer gəzir,
Gözlərimdə görmür Günəş sevgimi,
Özgə gözdə qığılcıma müntəzir.

08.10.13

HEÇ SORUŞDUNMU

Məndən əhvalımı soruşan adam,
Ürəyimin halın heç soruşdunmu?
Nə vaxtdan düşübdür dərdə-dərmana,
Tutub təbib yolun – heç soruşdunmu?

Səsimi duymadı o, gənc yaşımda,
Nə günlər dolandı dərdli başımda!...
Gözükölgəlidir indi qarşımda,
Kədərin-məlalın heç soruşdunmu?

Başı ayazımır qəmdən-kədərdən,
Gözləri yığılmır yoldan-çəpərdən,
Başında bir çələng ötən günlərdən –
Pərişan xəyalın heç soruşdunmu?

20.06.13.

MƏN SƏNIN QƏLBINƏ SIĞMAZDIM AXI…

De, necə qalardım sənin qəlbində?–
Mən sənin qəlbinə sığmazdım axı.
Solardım o damdar quyu dibində–
Mən sənin qəlbinə sığmazdım axı…

Mənim xəyallarım göylər boydadır,
Biri bu taydadır, min o taydadır,
Səninsə ürəyin gör nə haydadır!..–
Mən sənin qəlbinə sığmazdım axı.

Mənə dünya boyda ürək gərəkdir,
O qəlbə min yerdən dirək gərəkdir,
Daşımağa sinə, kürək gərəkdir –
Mən sənin qəlbinə sığmazdım axı…

Sevgimin başında tac var əzəldən,
Qorxmaz o payızdan, qışdan, xəzəldən,
Ona hasar çəkdin feldən-əməldən–
Mən sənin qəlbinə sığmazdım axı...

23.08.13

BIR SÖZ DE

Mənə elə bir söz, kəlmə söylə ki,
Qaralmış dünyamı nura boyasın.
Mənə elə bir söz, cümlə söylə ki,
Uçursun kədərin dağın, qayasın...

Mənə elə bir söz, kəlmə söylə ki,
Çırpınsın arzular, qol-qanad açsın,
Çoxdan viran qalmış könül bağımda
Rəngli kəpənəklər fərəhlə uçsun.

...Əgər o kəlməni deyə bilmirsən,
Demək, necə vardın, elə qalmısan,
Ümidsiz addımla geri gəlirsən,
Bağlı qapını da gözə almısan....

07.06.13

GÖRDÜM

Açdım pəncərəmi, könül bağımda
Yenə də bülbülü fəğanda gördüm,
Yenə bardaş qurub qəm otağında,
Özünü odlara vuranda gördüm.

Yenə nalə çəkir, dili titrəyir,
O kiçik qəlbinin teli titrəyir,
Tökür gözlərindən seli, titrəyir,
Ürəyin çovğunda, tufanda gördüm.

Nədən sevgilərin gözü suludur?
Nədən hər məhəbbət həsrət quludur?–
Mahi, aşiq yolu əzab doludur –
Bunu hər zamanda, dövranda gördüm.

04.06.13

DAR GÜNÜMDƏ SƏN...

Açıq gözlərimlə səhərə çıxdım,
Ağlımda sən oldun, xəyalımda sən,
Hayana baş vurdum, qəhərə çıxdım,
Ağrımda-acımda, məlalımda sən...

Gecənin bağrını yardı xəyalım,
Yolların zəncirin qırdı xəyalım,
Bir anlıq hüsnünü gördü xəyalım–
Qəlbimdə hicranın, amalımda sən.

Dönmüsən illərdir ekiz tayıma,
Şəriksən ilimə, ötən ayıma,
Hopmusan ömrümdən qalan payıma,
Şad gündə, dar gündə – hər halımdasan.

NADAN

Çat düşən ürəyin çıqqıltısını,
Sınan bir qürurun şaqqıltısını,
Sevinən iblisin qaqqıltısını,
Duyub, eşitdinmi, ey nadan insan?

Böhtan yol tapdımı qulaqlarına,
Riya bulaşdımı dodaqlarına?
Qəlbini yalanın ocaqlarına
Atıb, isitdinmi, ey nadan insan?

QƏHƏR

Dediyin hər sözün qəhərə dönüb,
boğazında düyün bağlayacaqdır,
Dişlərin sıxacaq zəhər dilini,
dilin ağı deyib, ağlayacaqdır...

Gözlərin hər yerdə görəcək məni,
Sən bir dor ağacı, mənsə yelkəni –
Sürüyər, dalıyca aparar səni,
Küləklər cismini dağlayacaqdır...

20.07.13
06:26

ÇƏRPƏLƏNG
X ÜÇÜN

Sən göydə süzən bir gözəl çərpələng,
Mən sənin dalınca qaçan bir uşaq,
Göylər masmavidir,sənsə rəngbərəng,
Fərəhdən uçuram sənə baxaraq.

Bir incə tel ilə bağlıyam sənə,
Qalmışam o incə tel ümidinə,
Keçərsən bir dəli rüzgar cənginə,
Bir anda əllərim bomboş qalacaq.

Göylərdə süzürsən,yerlə qaçıram,
Sənlə yaşayıram,sənlə "uçuram".
Qəlbimin qorxusun sənə açıram:
Bir gün bu röyanın sonu olacaq,
Bir anda əllərim bomboş qalacaq…

12.03.06

BU AXŞAM

Darıxıb bu axşam, eyvana çıxdım,
Ay görüb, buludun dalına keçdi.
Bir ulduz görməkçin səmaya baxdım,
Ulduzlar yığışıb səmadan köçdü.

Çinarlar qarşımda başını əydi
Yarpaqlar fərəhlə əl yellədilər,
Üzümə gecənin nəfəsi dəydi,
Qəlbimdən keçəni heç bilmədilər.

Hər şey yerindəydi bu axşam, hər şey:
Çinar da, yarpaq da yerli-yerində.
Sənsiz qalan qəlbim ay-ulduzsuz göy,
Bu axşam bircə sən yoxdun yerində.

Qəlbimin, elə bil, qapısı yoxdu:
Küləklər içində cövlan eylədi,
Üşüdü ürəyim, qanım soyudu,
Sənsizlik qəlbimdə "qan-qan" eylədi.

QAR YAĞIŞI

Qar dənələriydi mənim ilk esqim,
Ovcuma yığırdım dən-dən sevgimi,
Qar yağışı bitdi, açdım ovcumu:
Bir damla su vardı, göz yaşı kimi.

Hansı qışa qaldı bu qar yağışı,
Bir də belə gözəl yağarmı bu qar?
Ağappaq olarmı yenə də hər yan,
Yağarmı göylərdən dən-dən sevdalar?..

HEÇ BILMƏZDIM

Yerdən göyə mən çiləndim,
Göydən yerə səpələndim,
Dumana, çənə bələndim,
Düzdə, dağda səni gəzdim,
Vəfasızsan, heç bilməzdim.

Dalınca çox sular atdım,
Göz yaşımı suya qatdım,
Əlimi sənə uzatdım…
"Dönməyəcək!"– bunu sezdim,
Vəfasızsan, heç bilməzdim.

İLKIN XƏTA

Bir zaman qəlbimdə güllər açardı,
Kəpənək uçardı necə rəngbərəng!...
Gün qızıl tellərlə şəfəq saçardı,
Külək təmizlərdi, silərdi qəşəng.

Şimşək görməmişdi o zaman qəlbim,
Bilmirdi düşdüyü yeri yandırır.
Payız yağışının bilmirdi təmin,
Bilmirdi bu yağış can usandırır...

Bilmirdi payızı, qışı var ömrün,
Hələ yazın, yayın səfasındaydı,

Bilmirdi nə qədər yaşı var ömrün,
Ömrün hələ ilkin xətasındaydı...

...Payız qapısını döyür nə vaxtdır,
Gör neçə sualın cavabındayam!..
Qəlbimə bir dəva arama, doktor,
O ilkin xətanın əzabındayam...

ÇATACAQ SONU

Bu gecə ürəyim göyə çıxacaq,
Ərşi-əlayacan uzanar yolu,
Getdiyin yollara ordan baxacaq,
Görsün başlanğıcın, yolun sağ-solun.

Görsün hardan gəlir bu yolun başı,
Kimlər var yol üstdə, kimlə gedirsən,
Kimdir ürəyinin yarı-yoldaşı –
Sevinclə gedirsən, qəmlə gedirsən?

Çıxacaq ürəyim ərşi-əlaya,
Ordakı dərdlərim tanıyar onu,
Ya sənlə qayıdar bu gün Dünyaya,
Ya dərdlə birləşər, çatacaq sonu....

04.11.13

QASIRĞA

Elə bil, qəlbimdən tufanlar keçib,
Bomboşdur dolaylar, bomboşdur yollar,
Əyilib bir ucdan baxsan qəlbimə,
Gördüyün qumlu çöl, boz səhra olar...

Elə bil, qasırğa keçib qəlbimdən,
Süpürüb hər şeyi, yuyub hər şeyi,
Vücudum yüpyüngül şar kimi olub,
Mənasız-məqsədsiz dolaşır göyü....

Qəlbimdən yapışıb, qopmayan qəm də,
Tərk edib, səssizcə köçüb gedibdir,
Boğazımdan əlin üzüb qüssə də,
Qəhər də yumruğun çəkib gedibdir...

Sən demə, ömrümə bəzəkmiş qəm də,
Qüssəylə qəhərin mənası varmış,
Dərdim varlığımı sübut edirmiş,
Onlarsız cismimə dünya məzarmış...

SƏDD

Durna qatarına bir axşam çağı
Qoşulub gedərəm bu məmləkətdən,
Büküb kədərimə dərəni, dağı,
Bir sədd yaradaram sənə həsrətdən.

Adlaya bilməzsən sən o sədləri,
Arada dərələr, dağlar dayanar,
Dəyişə bilməzsən bəxti, qədəri,
Bəlkə, kor vicdanın o gün oyanar.

Fərhada dönsən də, yıxa bilməzsən,
Sıra-sıra duran məğrur dağları,
Dərin dərələrdən çıxa bilməzsən,
Bağrına basarsan buz bulaqları...

GET KÜÇƏYUXARI,..KÜÇƏAŞAĞI...

Küçəmdən keçərkən yum gözlərini,
Görmə pəncərəmdə yanan işığı,
Kor arzularım tək uzat əlini,
Get küçəyuxarı, küçəaşağı...

Gəzmə ürəyimi açan qapımı,
Görmə bu pərişan, bəd ovqatımı–
Tufan məhv edəndən xoş həyatımı
Boynuma dolanıb qəm sarmaşığı...

Görmə oyaq qalan pəncərələri,
Sorma "neyçin?"ləri, o "necə?"ləri,
İllərdir, bitməyən o gecələri,
Duymadın – neylirsən bu barışığı?....
Get küçəyuxarı...küçəaşağı...

31.05.13

GETDİN

Getdin, neçə illik salam-kalamın
Ayaq izlərinə tökülüb, bitdi,
Böyüyüb yol üstdə qara kol oldu,
Getdiyin o çığır beləcə itdi.

Nə sənə çatmağa mənə yol qaldı,
Nə geri gəlməyə sənə bir çığır,
Sən getdiyin yerdə, bəlkə də, yazdır,
Kollardan bu üzdə daim qar yağır.

Qar yağır o qara kolların üstə,
Bəlkə, kol olduğun örtüb-basdıra,
Qara tikan dibi qarı götürmür,
Qarın gücü çatmır bizi azdıra...

BU QIŞ YAMAN SƏRT KEÇƏCƏK

Bir ağacam, barım sənsən,
Bir torpağam, varım sənsən.
Bir fəsiləm, qarım sənsən–
Bu qış yaman sərt keçəcək...

Bu il durna gec dönəcək,
Qaranquş çox gözlənəcək,
Tumurcuqlar gizlənəcək –
Arı burdan pərt keçəcək...

Yaz qapıda gözləyəcək,
Növruz yazı izləyəcək,
Qapıya papaq dəyəcək,
Kəsəcək bir şərt, keçəcək...

16.02.13

NEÇƏ BAHAR GƏRƏKIR....

Lopa-lopa qar yağır
dərdlərimin üstünə,
Neçə bahar gərəkdir
ki, ürəyim isinə....

Qalaq-qalaqdı qarlar,
Buz bağlayıb divarlar,
Qar altda min dərdim var–
Yaxşısı nə, pisi nə?!

GERI VERƏYDIN

Qalan günlərimi sənə verərdim,
Talanan ömrümü geri verəydin.
İnsana, dünyaya etibar edib,
Aldanan könlümü geri verəydin.

O günü körpə tək əzizləyərdim,
Ağrıdan-acıdan təmizləyərdim,
Sevimli gəlincik tək bəzəyərdim,
Ötən bir günümü geri verəydin.

Yaşardım o köhnə xatirələri,
Silərdim qəlbimdən qəmi, kədəri,
Yenidən sevərdim külli-bəşəri,
Bircə ümidimi geri verəydin...

DEMƏ,"SƏN" İMİŞ...

Dilimdən çıxardım "sən" kəlməsini,
Çün xitab etməyə bir "sən"im yoxdur,
Dilimdən çıxardım "dinləmək" sözün–
Çağırıb,"Ay Mahi!" deyənim yoxdur.

Dilimdən çıxardım "ürək" sözünü–
Sinəmin solunda bir daş asılıb,
Etdiyi səhvlərin çəkdim əzabın,
İndi utancından küncə qısılıb.

Dilimdən çıxardım "sevgi" kəlməsin,
Çünki bu isimdə əşya görmədim,
Kim görüb sevginin bir boyun-posun?–
Nə yatdım, nə belə röya görmədim.

Dilimdən çıxası sözlərim çoxdur,
Bu sözlər dilimə hardan bələnmiş?
Çəkib işlətməyə bir yönü yoxdur,
Onları işlədən,demə, bir "sən"miş.



YARIMCAN

Başımı götürüb getmək istərəm,
onsuz da, qəlbimdə gələcəksən sən,
"Qurtuldum"– deyib, bir nəfəs alınca
baxıb, xısın-xısın güləcəksən sən...

Bilmirəm neyləyim, həkk olunmusan
qlbimin küncünə-bucağına sən,
Nə qədər çırpınsam, yenə "düşürəm
körpə uşaq kimi qucağına mən".

Çəkirəm bir ömür sənin qəhrini,
bilmirəm dərdimi kimə söyləyim?
Deyirəm, al götür ürəyimi, get,
deyirsən, yarımcan qəlbi neyləyim?

Bilmirəm haranın daşını töküm
ağlın itirdiyim dərdli başıma,
Gərək bu daşları o vaxt tökəydim
o günün başına – çıxdın qarşıma.



ÜMİD

Bu gün xoşbəxtliyi yaxından gördüm,
Bir azdan bir qonşu mənzilə girər,
Boyuna-posuna mən fikir verdim –
Alçaq qapıdan da o keçə bilər…

Sanırdım o, divdir–iri gövdəli,
Saraylarda yaşar,dəli nərəli,
Amma yanılmışam daim, deməli–
Alçaq qapıdan da o keçə bilər.

Balaca boyluydu, sanki bir quşdu,
Alnı,sir-sifəti qırış-qırışdı,
Yadıma darısqal mənzillər düşdü–
Alçaq qapıdan da o keçə bilər.

Xoşbəxtlik arzuyla qoşa yaranır,
Arzu böyüdükcə boyu uzanır,
Qəlbimdə bir ümid çırağı yanır:
Alçaq qapıdan da o keçə bilər…



GETMISƏN

Kaş keçə biləydin dolaylarından,
Görəydin qəlbimə nələr etmisən,
Necə viran qoyub könül bağçamı,
Güllərin məhv edib, çıxıb getmisən...

Od bilib gətirdim kor ocağıma,
Fırtına tək əsdin könül bağıma,
Fəlakət gətirdin qəm otağıma,
Hər şeyi talayıb, yaxıb getmisən.

Deyirlər, gedəndə ağlamamısan,
Qaralar geyinib, bağlamamısan,
Eşqinə bir gün yas saxlamamısan,
Tüstümə uzaqdan baxıb getmisən.

Qaytaraydın, barı, ötən illəri,
Elə bil, yox imiş sən kimi biri,
Bir dəfə qanrılıb baxmadan geri,
Şimşəktək uzaqdan çaxıb getmisən.

Eşqim yuvasında körpə quş idi,
Gözün açmamışdı o, yatmış idi,
O ilan qəlbində nə vərdiş idi –
Körpəcə sevgimi boğub getmisən?

Açmadım kimsəyə mən öz dərdimi,
İnsan öz sirrini deyə bilərmi?
Sən bayraq eyləyib könül sirrimi,
Hər qapı-bacaya taxıb getmisən.

Bu səhər qapıma durub baxmısan,
Başını daşlara vurub, baxmısan,

Bilmirəm nə plan qurub, baxmısan,
Axırda gözünü sıxıb getmisən.

Mahinin ürəyi bir yol aldanar,
Peşmanlıq oduna bir dəfə yanar,
Sən gedən qapıya vurub bir açar,
Bir yekə mismar da çaxıb – getmisən!

İPƏKQURDU

Bir ipəkqurdu tək gəldim dünyaya –
Nə əlim var idi, nə də ayağım,
Bir yaşıl yarpaqdı bütün xəyalım,
Nə dişim var idi, nə də damağım.

Çıxdım bir nazikcə budaq üstünə,
Orda yeyib-yatdım, orda böyüdüm.
Ayağım açıldı, torpağa dəydi,
Hər daşa dəyəndə gözümü döydüm.

Heyrətdən açılan gözüm önündən,
Nələr keçmədi ki bir ömür boyu;
İrəli getdimsə – yekə bir qaya,
Arxaya döndümsə – dərin bir quyu.

Allahdan bir uzaq ada istədim,
Bir gəmim olmadı oracan gedəm,
Özümü dünyadan qorumaq üçün,
İpəkqurdusayaq atdım bir qədəm;

Ağappaq bir evcik qurdum özümə,
Nə bir qapı qoydum, nə də bir baca,

Bədənim yüpyüngül olmaq üzrədir,
İncə qanadlarım çıxır astaca.

04.10.13

EL OLUB GETDİ

Dərdimi söylədim bir dərdbilənə,
Dinlədi, göz yaşı sel olub getdi.
Dedim:ay dərdbilən, çarə de mənə.
Tez aldı başını, yel olub getdi...

Qəlbimi açmadım hər yol ötənə,
Bir salam vermədən gözdən itənə.
Könül verdim "yolum üstdə bitənə,"
Yol üstdə tikan da gül olub, getdi.

Dedim ki, çıxarıq bu qışdan yaza,
Bəlkə, bu kor bəxtim çəp yoldan aza,
Ümidi bağladım bir vəfasıza,
Yarı yolda qoydu, el olub getdi.

Fikrim qalıb onun yar-yoldaşında,
Xəbəri yox ondan uçan quşun da,
Demişdi gələrəm bu yazbaşında,
Yaz keçdi, yay keçdi, il olub getdi.

EKIZ TAYIM

Par-par yanır çıraq kimi,
Bədrlənib Ayım mənim,
Sərdim nuruna qəlbimi –
Gəlsin sevinc payım mənim.

Uzun yolu başa vurub,
Üfüqdə toy-büsat qurub,
Qızıl libas geyib durub,
"Yanır" arxım, çayım mənim.

Ayım, büllur çilçırağım,
Şeir dolu ağ varağım,
Ay mənim ən xoş qonağım –
Mahım, ekiz tayım mənim.

19.09.13

SƏN ÖZÜN ISTƏ

Sənin istəyinlə gəldim dünyaya,
Duydum varlığını hey başım üstdə,
Çağır, qoy bir yolluq gəlim yanına,
Çağır, gəlişimi Sən özün istə.

Hər kəsdən, hər şeydən yaxındın mənə,
Qəlbim də, zehnim də aydındı Sənə,
Məni rəzil etmə dosta-düşmənə–
Çağır, gəlişmi Sən özün istə.

Bu dünya dar olub yalnız canıma,
Bu dərdlər susayıb qızıl qanıma –
Yığılıb qurd kimi dörd bir yanıma,
Çağır, gəlişimi Sən özün istə.

Kədərim ilan tək sarıb bədəni,
Sən özün bilirsən olub-keçəni,
Gəl bu ac qurdlara vermə bəndəni,
Çağır, gəlişimi Sən özün istə.

03.10.13

ÜZÜ DƏNİZƏ...

Bir gəmi düzəltdim xəyallarımda,
Yalnızlar adasın son liman seçdim,
Gəmiyə gedəcək dağ yollarında
Dərin dərələrdən,dağlardan keçdim.

Düşüb şəlaləyə,daşlara dəydim,
Yosunlar saçımda, əl-ayağımda,
Nəm qapan qaya tək, daştək "göyərdim,"
Üzməyi öyrəndim ahıl çağımda.

Sellər qapdı məni quru çöp kimi,
Nənnidə körpə tək hey atıb-tutdu,
Daladı buz kimi su bədənimi,
Bir daşın üstünə sərib, qurutdu.

Neçə yol buruldu çay dolanbaca,
İnadla gedirəm hey üzə-üzə,
Gəmiyə çatacaq günüm tapmaca,
Hələ ki üzürəm üzü dənizə...

30.09.13

DÜŞƏR YARPAQ

Düşər yarpaq budağından,
Tutar yellər qulağından,
Öpər solğun yanağından –
Sevilən üz bu cür solmaz.

Yenə bülbül edər qan-qan,
Olar nalan və pərişan,
Baxar güllər, "ölər nazdan,"
Axı nazsız çiçək olmaz.

Şəbnəm dürtək səpər suyun,
Gözəl güllər qoy yuyunsun.
Bağdan gizli ötər hər gün –
Küləklər aşkar vurulmaz.

Gələr bir gün, əsər yellər,
Daşar çaylar, coşar sellər.
Gedər dövran, bu nəsillər–
Mahinin heç yeri dolmaz...



QARIŞQAYA FIL YÜKÜNÜ YÜKLƏDIN

Qarışqaya fil yükünü yüklədin,
Dedim:çəkməz, dedin:çəkər! – çəkdi də!
Çiyinlərə:ömür yükün çək, – dedin,
Dedim: çəkməz,dedin:çəkər! – çəkdi də!

Bircə başa: bir bədəni çək, – dedin
Dedim:çəkməz, dedin:çəkər!– çəkdi də!
Bir ürəyə: dünya dərdin çək,– dedin,
Dedim:çəkməz, dedin:çəkər!– çəkdi də!

22.08.13

BURALIDIR

Dərdin ağrısını çəkənlər bilir,
Ay başı bəlalı, qadalı könlüm,
Fikrin biri gedir, birisi gəlir,
Qəlb evi qonaqlı-qaralı könlüm...

Dərdin yüzü xəlvət, biri üzdədir,
Ağrısı-acısı bir cüt gözdədir,
Dərviş tək evi yox – daim bizdədir,
Bu dərd haralıdır, haralı, könlüm?

Gizli bir gizilti keçir qəlbimdən;
Artıq yurd-yuvasın axtarmıram mən –
Mahinin ürəyin seçibsə vətən,
Bu dərd buralıdır, buralı, könlüm.

04.08.13

ÇIRPINIR ÜRƏK

Əcəl qapısını döyürmüş kimi
Qorxuda, tələşdə, sitəmdə ürək...
Yuvasından düşən körpə quş kimi
Çırpınır...çırpınır sinəmdə ürək.

Sürüyür ayağın qocalar kimi,
İnadla döyünür, öc alar kimi,
Ömrün zirvəsinə ucalar kimi,
Çırpınır...çırpınır sinəmdə ürək...

Yenə dərdli başı qeylü-qaldadır,
Fikirlər içində – yarıyoldadır,
Yorulub, üzülüb – gör nə haldadır,–
Çırpınır...çırpınır sinəmdə ürək.

BOYUNBAĞI

Düyünü boşalmış boyunbağıdır–
Hər gün bir mirvari düşür ömürdən.
Zaman ac dolanan vəhşi qırğıdır,
Ömrümüz sünbüldür, günlər sarı dən...

Bir gün də beləcə keçmişdə qaldı,
Üfüqdə yeni gün artıq görünür,
İnci boyunbağım bir gün qısaldı,
Boynumu sıxmağa başladı ömür...

31.07.13

05.53

KÜSƏN VAXTIDIR

Sovrulub gedirik küləklər ilə,
Payızdır...küləyin əsən vaxtıdır,
Ürək vidalaşır diləklər ilə,
Ümidin onlardan üzən vaxtıdır.

Ağıl qulaq asmır qəbim deyənə,
Ümidlə döyünür ürəyim yenə.
Artıq külək alıb mənii cənginə –
Yarpağın ağacdan küsən vaxtıdır…

BIR TELIN TALEYI...

Metroda qarşımda bir qız oturub,
Yanında boş ye var–dolur,boşalır,
Kimin çiyni dəyir boz paltosuna,
Kiminsə gözləri üzündə qalır.

Bir teli qırılıb, düşüb çiyninə,
Ucuna toxunur kişi paltosu,
Qız teldən xəbərsiz – gəlmir eyninə,
O telə toxunmaq bir gənc arzusu.

Növbəti duraqda o sarışın tel
Bir qara paltonun çiynində getdi,
O telin həsrəti bir qəlbdə coşdu,
Günahsız bir evə bir şübhə getdi.

Günahsız kişinin çiynindən teli
Bəlkə də,bir külək vurub salacaq,
Bəlkə də,düşəcək bir gülün üstə,
Bəlkə də ayaqlar altda qalacaq.

Uzaqda bir ürək o telə həsrət,
Ən böyük arzusu ona toxunmaq,

Hər telə yazılıb bir tale, əlbət,
Kaş, mümkün olaydı onu oxumaq...

DÖNÜŞÜ YOXMU...

Gözümü dikmişəm sonsuz yollara,
Bu yolun enişi, yoxuşu yoxmu?
Keçib gedənləri aparır hara,
Yolların geriyə dönüşü yoxmu?

Bu yolun palçığı-buzu görünmür,
Gedən elə gedir, üzü görünmür,
Dalınca kölgəsi, izi görünmür,
Bir daha bizimlə görüşü yoxmu?

AĞ DÜNYA

Gedənlərə

Getdin, buz bağladı getdiyin yollar,
Bəyaza büründü hər tərəf, hər yan,
Ağappaq geyindi ağaclar, kollar,
Göz- gözü görmədi ağappaq qardan.

Ağappaq bir dünya quruldu sənə –
Orda bu yerin bir nəfəri yoxdu,
Əlini yellədin olub-keçənə –
Onların indi heç dəyəri yoxdu.

28.04.13

GÖRƏRMİ BU YAZI,ANA?

Gözümün önündən bir an getməyir
Saçının qarası, bəyazı, ana,
Dərdimi deməyə ünüm yetməyir,
Nə ilə yazılıb bu yazı, ana?!

Arada bir addım yolumuz qalıb,
Bu yolda intizar, kədər yurd salıb,

Artıq ömrümün də boyu qısalıb,
Görəsən, görərmi bu yazı, ana?

BIR AZ AZALT QƏM YÜKÜMÜ...

Çiyinlərim dözmür daha,
Bir azalt qəm yükümü,
Gümanım yoxdur sabaha,
İtirirəm ümidimi,
Bir az azalt qəm yükümü.

Gözüm yenə yollardadır,
Dəli könlüm də dardadır,
Heç bilmirəm,nə axtarır,
İtirirəm ümidimi,
Bir az azalt qəm yükümü.

Könül evin kədər yıxar,
Dərd yandırar, həsrət yaxar,
Qəlb yerindən qopub çıxar,
İtirirəm ümidimi,
Bir az azalt qəm yükümü.

Sıxılıram nədən belə?
Vermişəm bir ömrü yelə,
Bağlıyam bir incə telə,
İtirirəm ümidimi,
Bir az azalt qəm yükümü.

Niyə gəldim, nədən getdim,
Ömrü nəyə qurban etdim?
Qürbət eldə azıb-itdim,
İtirirəm ümidimi,
Bir az azalt qəm yükümü.

GÖZLƏRIM ILLƏRDIR ELƏ YOL GEDIR

Ata- Anama

Gözlərim illərdir elə yol gedir,
Gəlib ünvanını tapa bilməyir,
Ürəyim illərdir tövbələr edir,
Bu eşqi başından ata bilməyir...

Qapısız tikilib torpaqdan bu ev,
Məhrumdur işıqdan, çıraqdan bu ev,
Hansı ölkədədir bu ünvan, bu ev,
Nə əlim, nə səsim çata bilməyir?...

19.07.13

DUR AÇ QAPINI

Gedənlərə

Bir addımlıqdayam,dur aç qapını,
İllərin həsrətin qovaq aradan,
Yaman tez ayırdı fələklər bizi,
Yenə qovuşdursun Adil Yaradan...

Həsrətəm dediyin hər bir sözünə,
Sirr dolu, mehriban, gülər gözünə.
Üzümü sürtürəm torpaq "üzünə",
Sənə gələn yolu tapım haradan?
20.07.13

HARDASAN,ANA?

Sənsiz bir bayram da gəlib yetişdi,
İnana bilmirım sən yoxsan, Ana!
Sənsiz bütün ömrüm, dünyam dəyişdi –
İnana bilmirəm, sən yoxsan, Ana,
Hardasan,ay Ana, hardasan, Ana?...

Kaş sənə daha çox həyan olaydım,
Bütün dərd-sərini duyan olaydım,
Sənin dəyişməyən dünyan olaydım,
İnana bilmirəm,sən yoxsan, Ana,
Hardasan,ay Ana,hardasan, Ana?...

DÖNMƏSINLƏR

Gedənlərdən xəbər varmı?
Söylə,külək,söylə,noolar.
Onlar bir də qayıdarmı?
Söylə,külək,söylə,noolar.

Gəlib də nə edəcəklər?
Dönüb nələr görəcəklər!...
Görəcəklər xəyanəti,
Onlara olan"hörməti".
Hər kəsin öz içindəkin
Onlar görüb, biləcəklər,
Qəmdən, bir də öləcəklər.

Görəcəklər yurdlarında
nə baş verir!..
Evlərində,bağlarında
nə baş verir!..

Mahirə Nərimanqızı. "Mənim Dünyam"

Qurdlar,quşlar gəzir burda,
Sağsağanlar,ac siçanlar,
Çil bayquşlar gəzir burda...

Saralıb bağça-bağları,
Zəbt edilib otaqları.
Xatırlayıb xoş anları,
Bir də geri gəlməsinlər,
Söylə,külək,de onlara
dönməsinlər.
Burda bu baş verənləri
görməsinlər, bilməsinlər,
Görüb, bir də ölməsinlər...

14.11.06

TALEYIM DÖNƏRMI

Durnalara qoşulsam,
Qürbət yolunu tutsam,
Uçub-uçub yorulsam,
Bu taleyim dönərmi?

Küləklərlə bir əssəm,
Uzaqlara tələssəm,
Qəmin yolunu kəssəm,
Bu taleyim dönərmi?

Quşlar kimi sübh dursam,
Dənizlərə baş vursam,
Hüzünlərə tor qursam,
Bu taleyim dönərmi?

Zəvvar tək Həccə getsəm,
Tanrıya dua etsəm,

Öz adımı dəyişsəm,
Bu taleyim dönərmi?

Taleyimin quluyam,
Qəm qızı,qəm oğluyam,
Hər gün gözüsuluyam:
Bu taleyim dönərmi?

11.11.10
20.00

MƏNƏ BIR KÖYNƏK DƏ YAD OLDU DÜNYA

Bu gün sən də köçdün dünyadan, ata,
Mənə bir köynək də yad oldu Dünya,
Elə bil,oyandım röyadan, ata,
Sanki, səni alıb, şad oldu Dünya.

Heç bir quş bu yerdən firar etmədi,
Kimsənin bir işi geri getmədi,
Səni saxlamağa duam yetmədi,
Sanki, səni alıb, şad oldu Dünya,
Mənə bir köynək də yad oldu Dünya.

Nə Günəş batmağa bir an yubandı,
Nə gecə üfüqdə durub-dayandı,
Ulduzlar sevinclə göylərdə yandı,
Sanki, səni alıb, şad oldu Dünya,
Mənə bir köynək də yad oldu Dünya.

Dünya fani deyil,vəfasız imiş,
Cəfalı yol sonu səfasız imiş,
Dünya özü, yəqin, atasız imiş:
Sanki,səni alıb, şad oldu Dünya,
Mənə bir köynək də yad oldu Dünya.

Fələk məni elə günə saldı ki,
Mənə nə vermişdi, elə aldı ki!
Daha bu dünyada kimim qaldı ki?
Sanki,səni alıb, şad oldu Dünya,
Mənə bir köynək də yad oldu Dünya.

Qaldım bu dünyada bir dustaq kimi,
Evdə istənməyən yad qonaq kimi,
Boxçamı yığmışam qaçacaq kimi:
Sanki, səni alıb, şad oldu Dünya,
Mənə bir köynək də yad oldu Dünya.

22.07.06



DÜNYA

Dünya,”mənəm,mənəm!”demə,
Səndə də bir “mən”görmədim,
Kimi gördüm–başılovlu,
Bir gül üzü şən görmədim.

Dağlarının qəlbi dağlı,
Bağlarının yolu bağlı,
Neyləyirəm axı ağlı ?–
İşlətməyə yön görmədim.

Artırdın daim yükümü,
Verdin o ağır hökmü –
Başlandı “yarpaq tökümü,”
Gedəni dönən görmədim.

Tökdün başıma ağ qarı,
Yola saldım dostu-yarı,
O aşiqi-vəfadarı
Qapımı döyən görmədim.

16.04.13

DÜNYA ƏYNIMƏ DARDIR

İynə gözünə batsın,
a mənə paltar tikən,
Tikişləri sökülür,
dünya əynimə dardır...

Qayçı dizinə batsın,
ay bu paltarı biçən,
Üstümdən dərd tökülür,
cismim qabar-qabardır…

Qumaşı iynə-iynə,
alovdan tikib düymə,
Yaxa qüssədən ilmə,
içi borandır,qardır...

Üstümdə tikib donu,
gəlmir eni-uzunu
Necə soyunum bunu?–
Bir yolun bilən vardır?

15.02.13

TƏLƏSIRSƏN

Yığ üstümə qalaq-qalaq dərdləri,
Çəkər çiynim – necə olsa, öyrəşib.
Bir yol çönüb, bax üzünə bəndənin,
Gör ki, üzü necə çöküb, dəyişib...

Qəlbim daim nahaqqa tuş gəlibdir,
Haqqı kimə, nə yollarla göndərdin?
Qəm qəlbimi çürüdübdür, dəlibdir,
Harda qəm var, başımdan hey əndərdin.

Tök başımdan, tök, nə qədər qəmin var,
Səndə qalan qismətimdi bilərəm,
Məni sevdiyindən olur olanlar–
Tələsirsən, nə vaxt Ora gələrəm…

20.12.13

YAĞ, AY BULUD

Gözlərimə bulud dolub,
Yağ, ay bulud, yağ, ay bulud,
Hər tərəf sis, duman olub,
Yağ, ay bulud, yağ, ay bulud...

Yaş kirpikdə çox qalmaz ki,
Hər yağış sel-su olmaz ki,
Susuz hansı gül solmaz ki?–
Yağ, ay bulud, yağ,ay bulud...

Yağ, gözümdə güllər açsın,
Kəpənəklər qonub-uçsun,
Bu günüm də belə keçsin,
Yağ, ay bulud, yağ,ay bulud...

12.07.12

ƏS, EY KÜLƏK

Haralardan gəldin, külək,
Yel nəfəsin kəsim-kəsim?
Bir xəbər varsa verəcək,
Əs, ey külək, əsim-əsim.

Əsdir nazik budaqları,
Tök budaqdan yarpaqları,
Bizə mədh et uzaqları,
Əs,ey külək, əsim-əsim.

Atam yox bir məclis qura,
Başında da anam dura.
Əs, üzümə rüzgar vura,
Əs,ey külək,əsim-əsim.

Əs,qəlbimdən qəmi apar,
Qəmim gedər dəmin tapar,
Qəmim orda kama çatar,
Əs,ey külək, əsim-əsim.

Uzaqlardan gəlir ətir,
O ətiri mənə gətir,
Bu günü də belə ötür,
Əs, ey külək,əsim-əsim.

Ömür durmur– gedir,gedir,
Hər gün neçə yol qət edir,

Nə danışır, nə eşidir,
Əs,ey külək əsim-əsim.

Mahiyə sən ruh, həvəs ver,
Nəfəsindən bir nəfəs ver,
Qanadından bir az kəs ver,
Əsib-gedək əsim-əsim.
Əs,ey külək,əsim-əsim...

DUA

Hər ürəyin yanğısı var–
yanar, qovrular içində,
Hər yanğının ağrısı var–
qəlbin qıvrılar içində.

Üfüqdən bir Günəş baxar,
Qəm qalasın sökər, yıxar,
Çox ağrılar qeybə çıxar,
Allah duası biçimdə...

İNŞALLAH

Dolanar dünyanı, gəzər hər yanı,
Ədalət geriyə dönər, inşallah!
Silkələr kor olmuş qara vicdanı,
Qəlbimin atəşi sönər, inşallah!

Kimlər əzab çəkər öz sözü üstdə,
Fitnəli, hiyləgər, pis üzü üstdə,
Dönərlər qarşıma şil, dizi üstdə,
Lal olmuş ürəklər dinər, inşallah!

Bir gün qapısını döyəcək fələk,
Zülm edib, yığdığı eyləməz kömək,
Haqqım üzə durar, o gün dinəcək,
Namərd göydən yerə enər, inşallah!

İSTƏRƏM

İçindən ataraq qəmi-kədəri,
Qəlbimi tərtəmiz yumaq istərəm,
Gördükcə etdiyim böyük səhvləri,
Başımı daşlara vurmaq istərəm.

Yuxusuz qaldığım hər bir gecəni
Yenidən yaşayıb yatmaq istərəm,
Bir qədirbilməzə olan sevgini,
Qəlbimdən qoparıb atmaq istərəm.

Boşaldıb içimdən peşmançılığı,
Ta yolun başına dönmək istərəm,
Başımdan ataraq dərdi, acığı,
Quş kimi yuvama enmək istərəm.

KAŞ KI..

Kaş ki,telli bir saz olaydı qəlbim,
Ən həzin nəğməsin çalaydı bu gün,
Mənimtək ağlayıb-sızlamayaydı,
Kül olub tellərdə qalaydı bu gün....

Yanaydı mizrabı tellərin üstdə,
Tutiya olaydı əllərin üstdə,
Külü səpiləydi yellərin üstdə,
Namərd gözlərinə dolaydı bu gün.

Alaydı namərddən intiqamımı,
Qaytaraydı ölən hər bir anımı,
Azdıraydı yolda qəm karvanımı,
Yolun azmış sarvan olaydı bu gün…

GÖZLƏ, GƏLIRƏM…

Bir sevda yurd salıb qəmli başımda,
Surəti bərq vurur hey göz yaşımda,
Uzun bir yol gedir can bu yaşımda,
Canımın məkanı, gözlə, gəlirəm,
Ruhumun sultanı, gözlə, gəlirəm...

Yarandığım andan yol gedirəm mən,
Ünvanım bəllidir elə ilk gündən,
Keçib gah qüssədən, gah qəm gölündən,
Canımın məkanı, gözlə, gəlirəm,
Ruhumun sultanı, gözlə, gəlirəm...

Yolun çoxu keçib, azı qalıbdır,
Dalımca ömrümün izi qalıbdır,
Mahinin bir-neçə sözü qalıbdır –
Canımın məkanı, gözlə, gəlirəm,
Ruhumun sultanı, gözlə, gəlirəm...

19.07.13

KƏSIB KEÇDIM

Bulud dolub, çisəkləyər –
Yağış olub, səpələndim,
Bulaq axıb, nəhrə dönər –
Dəniz oldum, ləpələndim....

Hava axar, külək olar–
Qasırğa tək əsib keçdim,
Qarlar yağar, sular donar –
Sərt şaxta tək kəsib keçdim...

05.05.13

ALLAH, MƏNI DAŞDAN YARAT

Yenidən xəlq eylə məni,
Allah, nolar,başdan yarat,
Al cismimdən hisslərimi,
Bu dəfə sal daşdan yarat.

Nə kimsəni qəlbdən sevim,
Nə kimsəyə ümid verim,
Nə dərd çəkim, qəhr eləyim–
Allah, məni daşdan yarat.

Kimsə mənə zülm etməsin
Ağlatmasın, tərgitməsin,
Yanımdan yad tək ötməsin –
Allah, məni daşdan yarat.

Canım-başım özüm olum,
Can yoldaşım özüm olum,
Lap başdaşım özüm olum–
Allah, məni daşdan yarat.

Bir kənarda sakit durum,
Həyat axsın burum-burum,
Ömrün sonu bir uçurum,
Allah, məni daşdan yarat.

Mahi mənə sirdaş olsun,
Dərdin desin, dərddaş olsun,
Mənlə qalsın, yurddaş olsun,
Allah, məni daşdan yarat.

DƏRDIM...

Alıbdır əlinə qara mizrabın,
Çalır ürəyimin tellərin dərdim,
Bəlkə də, kimsəyə bu heç dərd deyil,
Mənsə dərmanına ömrü verərdim.

Damlayan su kimi oyub qəlbimi,
İlan köynəyi tək soyub qəlbimi,
Bu dərdim viranə qoyub qəlbimi –
Onu kərpic-kərpic tikib hörərdim.

Bu dərdim qapımı nə vaxt döyübdür,
Ürəyim bu donu nə vaxt geyibdir?
Gecəmi ulduzsuz, Aysız qoyubdur –
Göydən ulduz-ulduz ümid dərərdim.

Mahinin başına dolanır Dünya,
Haqsız oyunlardan bulanır Dünya,

Ürəyi od tutur, hey yanır Dünya,
Qapısın tapsaydım, çıxıb gedərdim...

14.05.13

DAMLA

Bir ah çəkib, göyə qalxdım,
Başım dəydi buludlara,
Buluddan min bir ah qalxdı,
Cismim oldu para-para.

Zərrə-zərrə düşdüm yerə,
Gilə-gilə toparlandım,
Yerin yanan ürəyindən
Alov düşdü, buxarlandım...

Uzun yola çıxmışam mən,
Ağ-qaradır sağım-solum,
Yerlə göyün arasında,
Sonsuzluğa gedir yolum.

09.03.13

BIR ŞIRIN LAYLA DE

Qəlbimin kilidin açar tutubdur,
Ürəyim düşübdür bəndi-zindana,
Xəyallar uçmağı da unudubdur,
Bir layla lazımdır hamı oyana.

Bir layla lazımdır, yatanlar dura,
Kilidli qəlblərin zəncirin qıra,
Tərtəmiz bir körpə dünyası qura,
Analı dünyamız nura boyana...

Dünyada nə qədər ağrı-acı var,
Qayğıya, şəfqətə min möhtacı var,
Hər kəsin laylaya ehtiyacı var,
Bir şirin layla de, ay Dünya ana...

Layla de, vicdanı, ruhu oyatsın,
Dünya sülh içində oyanıb-yatsın,
Səsin zalımların beyninə batsın,
Çatsın ürəkləri viran qoyana.
Bir şirin layla de,ay Düya ana...

19.08.13

ÜSYAN

Kirpiyimlə od götürdüm,
Od düşdü cana, yandırdı,
Qəlbimə əli çatmadı
Ki, yana-yana yandırdı.

Bir əlində tutdu qəmi,
Bir əlində də ələmi,
Topladı bütün aləmi,

Saldı hicrana, yandırdı.

Qəlbimi oddan qorudum ,
Mahi, istədim yarıdım,
Sıxıb bağrıma, sarıdım,
Qalxdı üsyana, yandırdı…

16.08.13

GÖZÜMDƏN YUXU TÖKÜLÜR

Gözümdən yuxu tökülür,
Axıb gedir qaranlığa,
Bu zülmətdə kor gözlərim
Necə gedib onu yığa?

Qorxuram bu qaranlıqda
Tapa bilməz üfüqü Gün,
Dünya azar birdən yolun,
Öz oxundan çıxar bu gün.

27.05.13

AD GÜNÜM

Bir ilim də keçib getdi,
Gözüm qaldı baxa-baxa,
Bir ili də xırdaladım:
İçindən neçə gün çıxa....

Ötən ilin yaddaşında
Neçə toyum-yasım qaldı,
Görən, daxılın dibində
Neçə əskinasım qaldı?

12.06.13

TƏBRİK

"Ad günüm" şeirinə cavab:

Bir ili də xırdaladın,
Gözəl xanım, layiqincə,
Gözün qalmasın arxada,
Davam elə bax beləcə.

Hər bir kəsi ruhlandırdın
"Zərif beytlər" oxumağa,
Səndən elə ilham aldım,
Başladım mən də yazmağa.

Neçə qəlbə yol tapmısan,
Sevilirsən, gözəl qadın,
Ürəklərdə yaşayırsan,
Mübarəkdir təzə yaşın!

Ema Alov

BIR TƏBRIK GƏLDI BU GECƏ

Bir təbrik gəldi bu gecə,
Ətəyindən əli uzun,
Açdı qapımı səssizcə,
Əliylə gizlətdi üzün...

Nə üzümə durub baxdı,
Nə qapımı vurub çıxdı,
Gözlərini yumub sıxdı.
Yaş axıtdı süzüm-süzüm...

NƏ OLAR KI…

Adamlar adam olsa,
Adam olmağa nə var?
İnsan kimi yaşayıb,
Yaşa dolmağa nə var?

İnsanlıqan çıxarır
Bəzən adam adamı,
Bilmirsən inanasan
Döğmayamı,yadamı?

Bəzən örtüb qapını,
Heç açmaq istəmirsən,
Küncənişin tək göydən
Gözləyirsən əmr sən.

Adamlar adam olsa,
Yaşamağa nə var ki?
Bir azca ADAM olaq–
Ay insan, nə olar ki?..

30.05.13

BIR GÜN DƏRDƏ SALAM VERDIM

Bir gün dərdə salam verdim,
Dərd dilimi buraxmadı,
Saçlarına sığal çəkdim,
Əllərimi buraxmadı.

Belə girdi həyatıma,
Zəhər qatdı ovqatıma,
İşlədi min bir qatıma,
Əl-qolumu buraxmadı.

Hara getdim, tapdı məni,
Unutdurdu dost-düşməni,
Kəsdi tini, dar döngəni –
Hər yolumu – buraxmadı.

Qul tək əmrə müntəzirəm,
Bu günə də şükr edirəm,
Yolu dərdlə tən gedirəm,
Gözü sulu – buraxmadı...

16.05.13

BIR HISS ÖTDÜ KÜÇƏMIZDƏN

Bir hiss ötdü küçəmizdən,
Qapımızı çaldı, keçdi,
Gül ətirli kölgəsini
Ürəyimə sald, keçdi.

Səba yeli əsdi birdən,
Keçdi qəlbin tellərindən,
Xəbər verdi zərif sirdən,
Ruhumu da aldı, keçdi...

PAYIZ KÜLƏYI

Bir payız küləyiyəm, gəzirəm küçələri,
Qısalıb gündüzlərim, uzanıb gecələrim.

Səfil kimi gəzirəm, bağçaları, bağları,
Gəzirəm o izləri, gəzirəm o çağları.

Bir payız küləyiyəm, əsirəm soyuq-soyuq,
İçim dolu fırtına, divarlar oyuq-oyuq.

Bir sazaq dolub mənim vücudumda hər yerə,
Bir çiskin düşüb qalır keçdiyim küçələrə.

Üzü qışa gedirəm, Günəşdən heç xəbər yox,
Bu yolda fırtınalar, boranlar, tufanlar çox.

Bir payız küləyiyəm, gəzirəm küçələri,
İçimdəki o sazaq isladır hər bir yeri.

18.09.2011

BIR ÜRƏK AĞLAYIR

Bir ürək qalıbdır yalqız, avara,
Gözünün yaşını siləni yoxdur,
Bir baş özün çırpır daşa-divara,
Ağrısın-acısın biləni yoxdur...

Bir eşq havalanıb bu vurhavurda,
Sığınıb bir küncə, səsini qısıb,
"Vağzalı" ilişib ən zil notlarda,
Bir gəlin paltarı özünü asıb...

Bir mağar belini düzəldə bilmir,
Qırılıb dirəyi, yerə sərilib.
Qızılgül kolların tikanlar didir–
Gülü yad əllərlə bu gün dərilib...

06.07.13

BÖLGÜ

Sovuşan ömrümü didirəm yuntək,
Pıtrağı bir yana, yunu bir yana,
Keçdiyim günləri arıtlayıram –

Gecəsi bir yana, günü bir yana.

Elə günüm var ki, bir ömrə dəyər,
Bu həmin gündür ki,ötməyib hədər,
Həyatım ikiyə bölünsə əgər,
Ömrü bir yana qoy, bunu bir yana.

Dostları tökürəm ovdana bir-bir,
Arıda biməyir nə ələk,xəlbir,
Hər kəs dəyirmanın gözündən keçir–
Kəpəyi bir yana, unu bir yana.

Bəxtimlə dünyaya birgə gəlmişdik,
Bu qərib dənizdə üzüb-ötüşdük,
Batıb çıxa-çıxa ömrü bölüşdük–
Əvvəli bir yana, sonu bir yana.

BU DÜNYA BAŞIMA DOLANDI MƏNIM

Yerimdə fırlandım bu dünya kimi,
Bu dünya başıma dolandı mənim,
Gördüm bu dünyanın hər cür üzünü,
Ürəyim nə yaman bulandı mənim.

Gördüm, hər daş altda bir ilan yatır,
Hər feldə- fitnədə bir insan yatır,
Hər anda bir ömür, bir zaman yatır,
Bu dünya başıma dolandı mənim.

Gördüm, əsən yellər sizdən əsirmiş,
Gördüm ki, səbrimi hicran kəsirmiş,
Gördüm, həyat, ömür sənli bir sirmiş,
Bu dünya başıma dolandı mənim.

Elə hey qəlbinə dəydin Mahinin,
Yerinə başqasın qoydun Mahinin!
Səhər qapısını döydün Mahinin –
Bu dünya başıma dolandı mənim!...

18.05.13

GERI YOL YOXDUR...

Bulud nəm nəfəsin vurur üzümə,
Ay payız havası, payız havası,
Yağış damlaları düşüb izimə,
Ay payız havası, payız havası.

Durnalar yenə də düşüb yadıma--
Məktublar yazırlar hər gün adıma,
Nəm qapmış xəyallar çatır dadıma,
Ay payız havası, payız havası.

Bir ilin dərdləri ürəyindədir,
Bir ilin qəm yükü kürəyindədir,
Qan-tərdən köynəyin yaş, əynindədir,
Ay payız havası, payız havası.

İrəlidə qışdır,qardır, soyuqdur,
Fələk yolun sonun bilir–duyuqdur,
Əlini ver gedək ,geri yol yoxdur,
Ay payız havası, payız havası.

11.11.13

Mahirə Nərir



YAĞIŞ YAĞA

Bir şıdırğı yağış yağa,
Şimşəklər də çaxış-çaxış,
Bayram ola bağça-bağa,
Hər yan ola yağış-yağış.

Yuvasına qaça quşlar,
Qanadları islanmışlar,
Dünəndən bol dən yığmışlar–
Yeyib yata yatış-yatış.

Nişanlı qız "nasazlaya",
Həyəcandan lap buzlaya,
Pəncərədə yar gözləyə,
Yollar ola baxış-baxış.

Udaq təmiz hava dadın,
Duyaq səsin dostun-yadın,
Ümidlənsin yalqız qadın–
Xəyalları naxış-naxış...

ÇƏK DAĞ ÜSTÜNƏ

Bulud yığıb göyün dərdin, kədərin,
Qapqara qaralıb, gəlir üstümə,
Külək də ah çəkir dərindən dərin,
Bilmirəm bunların mənlə qəsdi nə?...

Başımda yer yoxdur yeni fikirə,
Bir cüt göz gərəkir, halımı görə,
Kimsə cəhd etməsin yeni dərd verə–
Ay külək, buludu çək dağ üstünə...

09.11.13

BU GECƏ

Allah,elə gözəl bir ilham ver ki,
Bütün dərdlərimi yazım bu gecə,
Qəhər girdabından çıxıb beləcə,
Sonsuz kədərimi yazım bu gecə.

Haqqa ürəyimdə gözəl taxt qurum,
Nahaqq qapısına bir qıfıl vurum,
Ömür dağ çayıdır, önü uçurum –
Qəmli səfərimi yazım bu gecə.

Vicdanın, sevginin, əhdin bəhsinə,
Bütün namərdərin durub qəsdinə,
Ömür köhlənini çapım tərsinə,
Yenik zəfərimi yazım bu gecə.

Xəyanət bürüyüb dörd bir yanımı,
Qəzəb xımır-xımır içir qanımı,
Necə vermisənsə, gəl al canımı,
Bu son xəbərimi yazım, bu gecə.

28.05.13

DAYAN,DURNAM

Dayan,durnam, məni də al dəstənə,
Uçub gedək nainsaflar elindən,
Nə iman var, nə vicdan var bu yerdə,
Cana gəldim haqsızlıqlar əlindən.

Baş durnaya söylə, mənə yer açsın,
Dərdi az olanlar arxaya keçsin,
Bir müddət mənimlə yanaşı uçsun,
O qərib nəğməni duyum dilindən.

Uçaq ötən zaman, çağlar üstündən,
Uçaq viran qalmış bağlar üstündən,
Bir yol salaq dərdlidağlar üstündən,
Keçək doluxsunmuş bulud selindən.

Dayan,durnam, məni də al dəstənə,
Uçub gedək nainsaflar elindən.....

DAĞ OLAYDIM

Başımın üstünü alıbdır duman,
Kaş başı dumanlı bir dağ olaydım,
Dağdan nə qoparır bu zalım zaman?–
Mən də üç-dörd əsr kaş sağ olaydım.

Göz yaşım yuyubdur qara daşları,
Kədərim ağardıb saçı, qaşları,
Yığaydım bir ömür yağan yaşları,
İkinci ömrümdə bulaq olaydım.

Bir ömür axaydım bulaqlar kimi,
Arxamda bir ömür, bu dağlar kimi,
Toxumtək açaydım göz – ağlar kimi,
Sonra barlı ağac,budaq olaydım.

Budaqtək yellənib, alaydım nəfəs,
Dünya olmayaydı mənə dar qəfəs,
O şıltaq yarpaqlar salaydılar səs,
Budaqda qayğısız yarpaq olaydım.

Ömür bitməyincə can sağ olacaq,
Dağın qəm yaşları bulaq olacaq,
İnsan əvvəl-axır torpaq olacaq,
Yarpaqtək düşəydim, torpaq olaydım.

10.02.13

DÜŞÜR

Başımı harada gizlədim, Allah,
Göylərdən yenə də sal-sal daş düşür?
Bir insan övladı hey gəzdim,Allah,
Yoluma nacinslər hey yoldaş düşür.

Ömrümü şərəflə keçmək istədim,
Hər işi düz ölçüb-biçmək istədim,
Hər kəsi ağlıyla ölçmək istədim,
Elə hey payıma bomboş baş düşür.

Allahım, məni də apar yanına,
Rəhm elə verdiyin ruha, canına,
Dolansın dərd Yerin dörd bir yanına,
İzimi tapmasın – Sən çaş-baş düşür..

DÖYÜŞ

Dünyayla yenə də rinqə çıxmışam,
Əlim yaxasında, döyüşürəm mən,
Vurduğu zərbələr yaman göynədir,
Alnım ortasında – dəyişirəm mən.

Dünyanın milyon il təcrübəsi var,
Zərbə nöqtələrin çox gözəl bilir,
Yıxıb-sürüdükcə qoca canavar,
Dirsəyim sıyrılır, dizim əzilir.

Bir əlin yaxamdan salıb içəri,
Qəlbimi sıxdıqca sıxır, göynədir,
Qartıyıb Dünyanın incə hissləri,
Unudub ağrımaq, göynəmək nədir.

29.03.12



GECƏ

Gecə yaman qıvrılır,
Ağrıları duyulur,
Başı dizim üstündə,
Uşaq kimi uyuyur..

Bağrı zülmətli gecəm,
Min əziyyətli gecəm,
Hər kəsin dərdi səndə,
Üzü töhmətli gecəm...

Gözləri qara gecəm,
Qəlbi min para gecəm,
Əl-ayağın soyuyur,
Gedəsən hara, gecəm?

Zülməti izlər gecəm,
Hər sirri gizlər gecəm,
Tutar dərdlərin əlin,
Sabahı gözlər gecəm.

GÖYDƏ GƏZIR

Yenə başın alıb qəlbim,
Uçub səmalarda gəzir,
Yerdə qərar tuta bilmir,
Çıxıb göyə, orda gəzir.

Yerdə nələr görüb deyə,
Dizlərinə döyə-döyə,
Evin yığıb, köçdü göyə,
Pakdır deyə, orda gəzir.

Ürəyimi seyrə çıxın,
Arzusuna gəlib baxın,
Allaha bir addım yaxın –
Deyə-deyə orda gəzir.

CÜTLÜKLƏR

Mənə sevgi verin, dilimin altda
İlan zəhərini bal-qənd eyləyim.

Mənə inam verin,Vətən yaxasın
Xudafərin kimi gül-bənd eyləyim.

Mənə şəfqət verin, susuz çölləri
Yamyaşıl bir oba, bir kənd eyləyim.

Qoymayın gen düşüm dilimdən məni –
Dədə Füzuliyə rişxənd eyləyim…

01.08.13

MƏNI BURDAN ÇIXARIN…

Bir ürəkdə nə qədər
dərd taxçası var, görən,
Neçə kədər qutusu,
qəm böxçası var, görən?

Neçə bulud köç edir
küncdən küncə ürəkdə,
Qapısı bağlı qəlbdə
əsir qalıb külək də.

Qovub dağıda bilmir
buludların qatarın,
Yenik düşüb, yalvarır:
–Məni burdan çıxarın!...

TƏSƏLLİ

Sudan çıxmış bir balığam,
Quru yerdə boğuluram,
Bir dərdimdə qərq oluram,
Digərindən doğuluram.

Dərddən dərdə keçə-keçə,
Yaşayıram, bax beləcə,
Düşünürəm incə-incə:
Dərd olmasa, yox oluram...

NƏ DEYIM?

Yollardan yığışmır fikrim,xəyalım –
Bu yollar kimləri aparmadı ki!...
Allah, yoldan necə intiqam alım?–
Yollar kimi məndən qoparmadı ki !...

Yollara deyim ki, bağlansın qapız,
Siz də mənim kimi yalnız qalasız,
Mən kimi qüssədən siz qaralasız?–
Yollar qapqaradır, ağarmadı ki...

Deyim ki, o əyri boynuz qırılsın,
Qəlbizə ayrılıq dağı vurulsun,
Qəm tutsun yaxazı, dartsın – cırılsın?
Yollar qəm köynəyin çıxarmadı ki...

15.09.12

NEYLƏYIM

Gecə keçir, hamı yatıb bayaqdan,
Yuxu məndən düşüb qaçaq, neyləyim?
Yatanların xəbəri yox oyaqdan,
Gözüm yolda, könlüm oyaq, neyləyim?

Bir azdan yatanlar şən oyanacaq,
Soyuq evdə ocaq çat-çat yanacaq.
Yuxulayar bircə bizdə kül-ocaq,
Ha üfürrəm,yanmaz ocaq, neyləyim?

Gecə yarı, su da yatıb eşikdə,
Körpə fidan mışıldayır beşikdə,
Kirpiklərim əsgər – durub keşikdə,
Yatmır gözüm – səhər açaq, neyləyim?

İllərdir ki, Mahi gecə yatmayır,
Qaranlığa hey yol gedir, çatmayır,
Ömür dəniz – batıb-çıxır, batmayır,
Külək əsmir yelkən açaq, neyləyim?

02.02.13

GECƏ

Bulud yorğanıyla Ay üstün örtdü,
Körpə tək sakitcə yuxuya daldı...
Küçədə itlər də yuxuya getdi,
Bir ovuc yuxuya tamarzı qaldım.

Körpə mışıl-mışıl yatdı beşikdə,
Sürüşdü yüyrükdən yorğun əllərim.
Qıvrılıb bir küncdə yatdı pişik də –
Röyada siçanın ən gözəlləri....

Gəlmədi gözümə bir ovuc yuxu,
Dünyanın dərd-qəmi düşdü yadıma,
Göz-gözə dayandı dərdlərin çoxu,
Yuxum da yetmədi mənim dadıma.....

08.09.13

PAYIZ

Yenə payız gəlir, xallı yarpaqlar
Xal düşmüş qəlbim tək əsib-döyünür,
Sarı sırğaların taxıb budaqlar,
Şeh-güzgü önündə son kəz öyünür.

Xəzan xəbər verir, öndə bir leşkər
Sırsıra qılınclı şaxtalar gəlir!
Düzüb yaxasına cüt-cüt düymələr,
Ağac qabığında yatıb dincəlir.

Günəş erkən yatır, çox gec oyanır,
Saralmıış bənizin gizlətmək üçün
İlboyu ilimiz şam kimi yanır,
Tezliklə əriyib, bitirir ömrün...

Yenidən doğulur yenə təzə il,
Ağappaq bələkdə qapını döyür.
Kaş bələk içində gələ ilbəil,
Məsum körpə kimi, bitən hər ömür.

ONDA NEYLƏRIK

Heç zaman döymədik yerin qapısın,
Hər cür dərdimizi göyə söylədik,
Dərdimiz zəbt etdi göyün yarısın,
Ürəyin dərd dolu girdab eylədik.

Ruhumuz göylərdən bizə qonaqdı,
Bir gün vaxt çatacaq, o uçacaqdı.
Bədənin vətəni, yurdu torpaqdı,

O yurda turp əkdik, yurdun bellədik!

Üzümüz yoxdu ki, yerə dərd deyək,
Durub qarşısında biz boyun əyək,
Bir-bir qapımızı döyəndə fələk
Hara üz tutarıq, onda neylərik?

22.06.13

QƏMDƏN KEÇIR HƏR BIR IŞIM

Qəmdən keçir hər bir işim,
Nə əkirəm, qəm biçirəm,
Hər bir yolum dönüb gəlir,
Qəm küçəsindən keçirəm.

Təşnə qəlbim salır soraq,
Su gətirir quyu, bulaq,
Əlimdə su dolu bardaq –
Qəm badəsindən içirəm.

11.05.13



QƏMLƏR MƏNI VƏTƏN SEÇIB...

Qəmlər məni vətən seçib –
Vətəndən üz çevirməzlər!
Döyüşər son nəfəsəcən,
Sevincimə yer verməzlər!

Qəm düşdüyü yerdə durar,
Özünə bir yuva qurar,
Sonra cüt-cüt balalayar,
Birin ordan endirməzlər.

Yuva hər gün genişlənər,
Qəmlərimə kiçik gələr.
Qəlbi hər gün yuyar,silər,
Amma günə heç sərməzlər.

Qəlbim itib qübarında,
Mamır bitib divarında,
Həddi yox etibarın da –
Mahi, vurar – öldürməzlər!

PAYIZ HAVASINA KÖKLƏNIB QƏLBIM,

Payız havasına köklənib qəlbim,
İçində köç edir qərib durnalar,
Elə bil, qar üstdən əsir küləklər –
Yəqin, qaranquşdan qəmli namə var.

Uçuşur havada sarı yarpaqlar,
Ömrümə tuş gələn yağışlar kimi,
Bülbülü gözləyir payız gülləri –
O ki yaz quşudur, güzdə gələrmi?

Kəsilib quşların civiltiləri,
Elə bil, dilini udub canlılar,
Hərə bir tərəfə vurnuxub gedir,
Hər kəsin başında min bir fikri var...

Pırpız saçlarını daramır bulud,
Bilir ki, küləklər vurub dağıdar,
Qəlbimdən astaca keçir bu payız,
Hələ arxasında qarlı qışı var...

16.09.13

QOY SIZIN OLSUN

Yuxum gözlərimə batan qanlı ox,
Alın gecələri, qoy sizin olsun,
Onsuz da yuxum yox, rahatlığım yox–
Ömrümün qalanı gündüzün olsun...

Gəlməsin gecələr bir də ömrümə,
Pərişan, qüssəli, yalqız dövrümə,
Körüyü sıxmasın qəmi-qövrümə,
Xeyri-şəri Ayın, ulduzun olsun.

SOYUQDAN DONACAQ BIR GECƏ DÜNYA

Dünyanın qapısı sınıb, sökülüb,
Yamanca üşüyür bu qoca Dünya.
Bu ev niyə belə zəif tikilib,
Bu qışı keçirər bəs necə Dünya?

Alın əlinizə çəkic-mismarı,
İnsanlar, təmirə başlayın barı,
Gözləməyin düşsün şaxtanı-qarı,
Soyuqdan donacaq bir gecə Dünya.

LABIRINT

Bir labirint içindəyəm,
Yol gəzirəm sənə çıxam,
Qəlbim kibit qutusunda,
Bir çaxmaqdaş yox ki, çaxam.

Dərd yığılıb qalaq-qalaq ,
Donub qoşa şır-şır bulaq,
Başıaçıq, yalın ayaq –
Güc yox, durub yola baxam.

Dirsəklərim sıyrıq-sıyrıq,
Çarıqlarım cırıq-cırıq,
Çıraqlarım qırıq-qırıq –
Yağ yox töküb birin yaxam.

Buludlarım pırpız-pırpız,
Üşüyübdür nanə-yarpız,
Yamanca sərt gəlib payız,
Güz əlində qalıb yaxam.

Hicran saçım qulac-qulac,
Təsəlliyə yox ehtiyac,
Mahi,dur, bu pəndəmi* aç,
Selə dönüb, nəhrə axam...

29.07.12

* pəndəmi*- çayın qarçısını kəsən torpaq bənd.

ÜRƏK QIRILIB

Yenə də göylərin üzü qaralıb,
Yenə də hardasa ürək qırılıb,
Görəsən, xəyanət harda qor alıb,
Qəmin sarmaşığı kimə sarılıb?

Kimin ürəyidir dolub-boşalır,
Şaqqıldayıb sınır, od-alov saçır?
Bu, kimin ahıdır, yerdən daş alır,
Bir xəyanətkarın dalıyca qaçır?

Bu ah kimi gəzir, kimi arayır,
Yüyürür, üfürür, əsir-kükrəyir?...
Hardasa bir sevgi yaman ağlayır,
Bir qapı dalında kimsə titrəyir...

02.07013

VAĞZAL

“Getmə” desəm,qaçacaqsan,
“Get”deyim ki, bir durasan,
Keçib gedən bu karvanı
“Nırx” deyəsən,durdurasan.

Yarım qalan sevdamıza
Yeni ömür-don biçəsən,
Çıxam küçə qapımıza,
On beş yaşında keçəsən.

Hər gün Ay bir səbəb tapa,
Boylana qoy gecəmizdən,
Səhər yellər sizdən əsə,

Keçə bizim küçəmizdən.

Dayanmışam...köhnə vağzal..
Ağır-ağır keçir ömür ,
Baxır qara vaqonlardan
Köhnə dostum məni görmür.

02.09.12

YA QALARAM...

Bir yelkənsiz qayığam mən,
Qəm gölündə ləngərlərəm,
Dalğalarla döyüşürəm,
Ya qalaram, ya ölərəm.

Fırtınada qağayıyam,
Min bir yerdən yaralıyam,
Təsadüfə mən bağlıyam,
Ya qalaram, ya ölərəm.

Budaqda bir son yarpağam,
Şükr edirəm hələ sağam,
Külək əssə, uçacağam,
Ya qalaram, ya ölərəm.

Kirpiklərdə bir damlayam,
Gərək düşəm, çox qalmayam,
Qırpım gərək ki, damlayam,
Ya qalaram, ya ölərəm.

Ayrılığın boz rəngiyəm,
Sızıldayan sim dəngiyəm,
Öləziyən bir sevgiyəm,
Ya qalaram, ya ölərəm.

13.09.12

YENƏ DƏ…

Kürəyimə yenə də
Qılınc-xəncər sapıldı,
Günü zəhər etməkçin
Bir bəhanə tapıldı.

Yenə yığdı ürəyim,
Dünyanın dərd-bəlasın,
Yığdı...yığdı üst-üstə,
Ucaltdı qəm qalasın.

Damarımda yubandı
Qanım – qapqara axdı,
Ümidlərim yenə də
Əridi, puça çıxdı...

Aç qapını, ay Allah,
Dərgahına gəlim mən,
Qoyma bu dərd gölündə
Hər gün bir az ölüm mən....

26.07.13

EL APARIB

Mən küləkdən incimişəm –
zəhmətimi yel aparıb,
Mən yağışdan incimişəm–
əkdiyimi sel aparıb.

Quru yerdə qalıb əlim,
Faydasızdır hər əməlim,

Dərd deməkdən şişib dilim,
Sirlərimi el aparıb…

AÇ QƏLBINI,ANA VƏTƏN

Aç qəlbini, Ana Vətən, mən girim,
Ürəyimdə qan yaddaşım,qeyrətim,
Qeyrətimi yaddaşıma bandırım,
O, yarana məlhəm olsun – mən həkim...

Başını qoy dizim üstdə, ağlayaq,
Bir ah çəkək, yeri-göyü dağlayaq,
Yaralara şəhid qanın bağlayaq,
Çallaşan ağ saçlarına əl çəkim.

Bölünərək nəhəng gövdən kiçildi,
Güllərin dərildi, otun biçildi,
Buna dözür qəlbin, gör neçə ildi,
Yollarına nə vaxta dək göz dikim?

Niyyəti var “talış,” “ləzgi” deyənin,
Paxıllıqdan öz-özünün yeyənin,
Biz yumruğuq başı üstdə düşmənin,
Bölünməzdir bu azəri millətim.

Arzum budur, göz yaşların qurusun,
Şanlı ordum düşmənləri “kürüsün,”
O yerlərdə “Cənnət bağı” qurulsun,
Xarı bülbül gülün orda mən əkim.

HƏLƏ GÖZLƏRINI AÇMA,NƏ OLAR...

Doğum evi qarşısında köhnə ayaqqabılarını gizlətməyə çalışan,amma yeni doğulan oğlunu ona göstərən tibb bcısına 5 manatı sevinclə verən gənc ataya...

Bu gün bu dünyaya gələn a körpə,
Hələ gözlərini açma,nə olar!
O kiçik qəlbindən,eh,nələr keçir!–
Oyuncaq dalınca qaçma, nə olar!

Qoy atan axtarıb, bir işə girsin,
Axaşam evə bircə çörək gətirsin,
Nolar,yat, qoy anan sənə süd versin,
Hələ gözlərini açma, nə olar!

Arzular hələ ki,qoy oyanmasın,
Dünya gözlərində boz boyanmasın,
Gənc atan qarşında qoy utanmasın–
Hələ gözlərini aşma, nə olar!...

YENIDƏN DÜNYAYA GƏLSƏYDIM ƏGƏR...

Yenidən dünyaya gəlsəydim əgər,
Keçdiyim yollarla yenə gedərdim,
Ömrümü məhv edən bircə kəlməni
Dərin bir quyuda dustaq edərdim.

Dilimlə o sözün arasın vurub,
Qanlıbıçaq kimi düşmən edərdim;
Bir də qoy gəlməsin dilin ucuna,
Aşmasın başımdan qoy yenə dərdim.

Keçən hər günümü narın doğrayıb,
Yaşanan günümə məzə edərdim,
Gələcək hər günə ürək dolusu
Mahnılar qoşardım, nəğmə deyərdim.

KIMSƏ YOXMU

Yenə də özgə yükü,
yenə də çiyinlərim...
Qarışqa fil yükünü
çəkə bilmir, neyləyim?!

Yaya döndü qamətim,
Ox da çomağım mənim,
Ümid oduna yanır
Dərd-qəm ocağım mənim.

Alsın çiynimdən bunu,
yoxmu bir Allah qulu?
Bu yüklə necə keçim
uzun, dolanbac yolu?

TOY

Bu gün toy-düyünmü var göy üzündə?–
bütün ulduzlarım bəzənib, gəlib,
Hər kəs rəqs eyləyir nur dənizində,
qəlbindən hicranı, kədəri silib.

Yoxsa, Göyün toyu yadına düşüb,
Lent geri fırlanıb, bu gün baxılır?
Yoxsa, Ayla Günəş bu gün görüşüb,
Yoxsa söz kəsilib, nişan taxılır?

Yoxsa, sabah səhər yeni üfüqdən,
Günlə Ay əl-ələ qoşa çıxacaq,
İllərin həsrəti bitər bu gündən,
Qaranlıq gecələr boşa çıxacaq?

Bu gün toy-düyünmü var göy üzündə?

09.10.13,Werywell

YAĞIŞ

Səhərdən hey yağır...yağır,dayanmır,
Görən, qəlbi nədən doludur göyün,
Bu yağışın qəsdi nədir bu Yerə,
Başından hey tökür gözünün suyun?

Sellər gəlib novalçadan tökülür,
Xəndəklər də, çay da dolub ləmbələm,
Yarımcan ot dözmür, beli bükülür,
Çılpaq ağac gözlərində bir ələm.

Səhərdən hey yağır yağış, dayanmır...

10.10.13 Werywell

QƏM QƏM GƏTIRƏR…

"Dərdi ver dərdçəkənə"

Ürəyimi yuyub, verdim yellərə,
Nə bir qəmim qaldı, nə dərdim qaldı,
Qəmim uçdu qəmlər yığılan yerə,
Dərdim dərdçəkənə doğru yol aldı.

Qəmim qəmləri də gətirdi geri,
Dərdim dərd çəkməkdə bir ustad oldu,
Qınadım geriyə əsən yelləri –
Qəlbim əvvəlkindən də bərbad oldu.

10.10.13, Werywell

ZALIM GECƏ

Belinə daş dəyən bir ilan kimi
Can verir, sürünür bu zalım gecə,
Zər-xara geyinən ağ yalan kimi
Riyaya bürünür bu zalım gecə.

Qəsdimə dayanıb düşmənim kimi,
Ömrümə susayıb, bir qənim kimi,

İtirib vicdanın gedənim kimi,
Zülmüylə öyünür bu zalım gecə.

Bayquş gözləriylə baxır gözümə,
İlan nəfəsini sıxır üzümə,
Qara qətran kimi axır izimə,
Heç bitməz, görünür, bu zalım gecə...

09.10.13, Werywell

AÇIL, SƏHƏR

Nə ömürdü, mən yaşadım?-
Açıl, səhər...açıl,səhər...
Qəlbimə hey qəm daşıdım,
Açıl, səhər...açıl,səhər...

Qəm həsrəti körüklədi,
Qara qanım köpüklədi,
Dərdlər yenə küçüklədi,
Açıl, səhər...açıl,səhər...

Hər ulduz bir iynə oldu,
Gözlərimə batıb, doldu,
Ayda qəmə büst qoyuldu,
Açıl, səhər...açıl,səhər...

Ey ümidə ilmə səhər,
Yolu dəlmə-dəlmə səhər,
Mahini yad bilmə, səhər,
Açıl, səhər...açıl,səhər...

ŞƏHIDLƏR

Xocalı şəhidlərinə

O yerin insanı deyil tək şəhid,
O yerin torpağı, daşı da şəhid,
O yerin maralı, cüyür-ceyranı,
O yerin göyü də, quşu da şəhid!...

O yerdə açmayır dağların gülü,
Köçüb – görən yoxdur Xarı bülbülü,
Yazı, yayı qəmgin, güzü mürgülü,
Al qana bələnən qışı da şəhid.

Quruyb o yerdə güllər, zanbaqlar,
Quruyub ağaclar, atlas yarpaqlar,
Düşübdür taqətdən o məğrur dağlar,
Bulağın gözündə yaşı da şəhid.

Şəhiddir o yerin əsən küləyi,
Şəhiddir şəhidin nakam diləyi,
Dəlik-deşik olmuş ana ürəyi,
Göynəyir – qəlbinin başı da şəhid.

25.02.13

TORPAĞA BAĞLIDIR AĞACIN KÖKÜ

Külək nə istəyir ağacdan, görən,
Yolub yelə verir yarpaqlarını?
Yoxdurmu bu haqsız oyunu görən,
Bura bu küləyin qulaqlarını?

Əlvan paltarını alıb əlindən–
Utancdan çırpınır çılpaq budaqlar,
Küçə uşağı tək fit çalır hərdən,
Çatlayır hirsindən çat-çat qabıqlar.

Torpağa bağlıdır ağacın kökü,
Yüz belə yel əssə, dimdik duracaq,
Külək yelə dönüb gedəcək , çünki,
Kökü yox bağlana – gəzir künc-bucaq...

23.09.13

DAŞLAR ARASINA SIXIŞAN GÜLÜM

Daşlar arasına sıxışan gülüm,
Alqış hünərinə, alqış əzminə!
Körpə tək beşikdən yapışan gülüm,
Varlığı möcüzə, gizli xəzinə!

Bəlkə də küləyin qanadlarında
Düşmüsən daşların arasına sən,
Çox söz eşitmisən dünya haqqında–
Axı vurulmusan harasına sən?!

Bu daşlar qoyarmı qanad açasan?–
İndidən saralıb gül üzün sənin.
Qoyarmı böyüyüb ətir saçasan?–
Solubdur yanağın, bənizin sənin.

O zərif qamətin necə əyilib!–
Bir kiçik dayağın, arxan yox sənin,
Yəqin, qulağına çox söz deyilib –
Bu həvəs sonuna çıxacaq sənin...

Bir işıq ucundan tutub, gəlmisən,
Sanmısan ömrünə xoş bahar gələr,
Bir az da böyüsən, gülüm,bilərsən,
Bu kiçik vücuda Dünya dar gələr...

Sıxacaq o daşlar hər yandan səni,
Nə geri yol qalar, nə də irəli,
Taleyin ilan tək sıxar gövdəni,
Gözünü silərmi bəxtinin əli?...

QAPI

Üfüq Günün qapısıdır –
Hər gün səhər açıb gələr,
Qürub sadiq qapıçıdır–
Axşam örtər, kilidləyər.

Gecə azad bir dünyadır,
Həm həqiqət, həm royadır,
Kimə doğru, ya riyadır –
Kim nə istər, orda edər....

Hər səhər bir yaranışdır,
Kimə yazdır, kimə qışdır.
Dünya elə yaranmışdır –
Mahi, gələn bir gün gedər...

03.09.13

FIRTINA

Bu dalğalı dənizdə nə axtarır qağayı,
Dalğaya nə söyləyir – göyə qalxır harayı?
Enib-qalxır dənizin ürəyi aram-aram,
İçində bir fırtına – uçur könül sarayı...

Dalğaların çırmağı qayaların üzündə,
Yosunlar suya düşüb – fəlakətin izində,
Külək başın itirib, yol gedir dalğa-dalğa,
Gəmilər ləngər vurur, halı yox dənizin də...

Bu da keçər, ay dəniz, üzün yenə güləcək,
Küləklər qanadıyla fırtnanı siləcək,,
Qoca qayalar bilir– pis günün ömrü azdır,,
Yaman gün tez ötəcək, gözəl günlər gələcək!

01.09.13

GÜNƏŞ HARDA QALIB

Gəl, ay Gecə, tut əlimi,
gedək çıxaq üfüqlərə,
Görək Günəş harda qalıb,
niyə işıq salmır Yerə?

Yuxuyamı qalıb bu gün,
kimi görüb yuxusunda?
Kirpiyimi düşüb düyün,
açmır gözün qorxusundan?...

BƏNÖVŞƏ

Səhər-səhər kol dibində
Bir utancaq qız görmüşəm,
Gözlərində bir damla yaş,
Baxışında naz görmüşəm.

Dodağını büzüb bu qız,
Gözlərini süzüb bu qız,
Görən, kimdən küsüb bu qız? –
Belə gözəl az görmüşəm.

Yanaqları tərtəmizdir,
Baxışları hiyləsizdir,
Bu qız mənə çox əzizdir,
Onu keçən yaz görmüşəm.

05.04.13

BƏLKƏ

Ulduzların hər biri bir nakam eşq,
Bəlkə, yağış onların göz yaşıdır,
Bəlkə də, Göy vurulubdur bu Yerə,
Bəlkə də, Ay Göyün elçi daşıdır.

Bəlkə, külək ulduzların ruhudur,
Səfil-səfil Yer üzünü dolaşır,
Bəlkə,Günəş sevən qəlbin özüdür,
Kərəm kimi ah çəkdikcə alışır...

GETMƏ, BULUD..

Başın alıb yaman qaçır,
Görən, hara gedir bulud?
Rəngi yaman boğulubdur,
Özün"həlak edir" bulud.

Səssiz-səssiz haray çəkir,
Saçlarını yolur bulud,
Külək vurur yel qamçısın,
Əlcim-əlcim olur bulud,

Getmə, bulud, çatammazsan,
Gedən çoxdan boz yel olub,
Sən küləyə "batammazsan"–
Cismin, artıq, tel-tel olub.

08.10.12

TABLO

Səba fırçasını alıb əlinə,
Günəşə batırıb bir rəsm çəkir;
Səhər gözlərini işvəylə açır,
Üfüq bir tir üstdə durub gərnəşir...

Buludlar qırmızı donun geyinib,
İndicə şıdırğı yallı gedəcək,
Gözəl Dan ulduzu gözünü qırpıb,
Bu tablonun foto-şəklin çəkəcək.

01.08.13

GƏL KEÇ QƏMLI ÜRƏYIMDƏN

Qəlbin yenə dərdlə dolub,
rəngin olub qara, bulud,
tutub saçından rüzgarlar
sürüyürlər hara, bulud?

Göyün dağı, düzəni yox,
bir qaydası,düzəni yox,
vurub-çapıb, əzəni çox--
canın gəlib zara, bulud.

Ömrün keçib, başa dönüb,
pambıq qəlbin daşa dönüb,
çəkdiklərin yaşa dönüb,
çəkib səni dara, bulud.

Gəl keç mənim ürəyimdən,
gəl nəm götür bol nəmimdən,
keç dərdimdən, keç qəmimdən,
bəlkə tapaq çara, bulud...

TIKAN

Yaz gəldi, çiçəklər hamı gül açdı,
Tikan da gül açdı – gülü də tikan,
Bu kolun gövdəsi, yarpağı tikan,
Danışsa, yəqin ki, dili də tikan.

Tikandır bu kolun nəsli, soy-kökü,
Köküdür bir ömür onun şəriki,
Allah ona elə xislət verib ki,
Diriykən də tikan, ölü də tikan…

09.05.13

XOŞ GƏLIRSƏN,TƏZƏ ILIM

Xoş gəlirsən,təzə ilim,
Yenə mənim həyatıma,
Yetir artıq, gözəl ilim,
Məni bu il muradıma.

Gecələrim ay-ulduzlu,
Gündüzlərim Günəş üzlü,
Təzə ilim – xumar gözlüm,
Yetir məni muradıma.

Ömrüm,artıq,açsın çiçək,
Yarpaqları ləçək-ləçək,
Təzə ilim – gözəl-göyçək,
Yetir məni muradıma.

Kədər bizdən düşsün qaçaq,
Uşaq kimi gülüb-qaçaq,
De ki, yeni gün doğacaq,
Yetir məni muradıma.

Arzuların güman yeri,
Gümanların uman yeri,
Yola saldım çox illəri,
Yetir məni muradıma.

SAXLAMAZ SƏNI

Açma qanadını, balaca sərçə,
Otur öz yuvanda, dimdiklə dəni.
Dimdiyi sapsarı, alaca sərçə,
Hələ o qanadlar saxlamaz səni,

Sən insan deyilsən, boyun burasan,
Elə hey yıxılıb, bir də durasan,
Ömrünü beləcə başa vurasan –
Hələ o qanadlar saxlamaz səni.

Sən quşsan – uçdunmu, uçub gedərsən,
Bir bəla gördünmü, firar edərsən,
Vaxtsız uçsan əgər, düşüb ölərsən,
Hələ o qanadlar saxlamaz səni.

Hiyləgər pişiklər sənə "gülməyib",
Bədənin hələ qar, çovğun bilməyib,
Küləkdən qanadın tərs çevrilməyib,
Hələ o qanadlar saxlamaz səni.

Yerdə nələr dönür, bilmirsən, sənsiz!
Anan gec gələndə bir az döz dənsiz,
Nə qədər vaxtın var, qal orda qəmsiz,
Hələ o qanadlar saxlamaz səni.

11.11.12

KƏNDIMIZ

Bu kənd axşam çağı çıxdı yol üstə,
Bir gələn olmadı, incidi, getdi.
Görən, dərdi nədir, düşübdür xəstə?–
Heç bilən olmadı, incidi,getdi.

Bu kəndin qırmızı, sarı gülləri,
Bəzərdi hər bahar sonsuz çölləri,
Güllər də gözlədi zərif əlləri,
Gül dərən olmadı, incidi, getdi.

Qızılgül güllərin şahı seçildi,
Mürəbbəsi bişdi, çayı içildi.
Həsrətdən əyildi, boyu kiçildi,
İyləyən olmadı, incidi, getdi.

Ayıq çıxardılar itlər səhərə,
Mal-mülkdən arxayın yatardı hərə,
İtlər köç dalınca qaçdı şəhərə,
Yal verən olmadı, incidi, getdi.

Boynubükük qaldı kəndin sərvləri,
Ruhlar bir-bir gəzdi hər gün evləri,
Axtardı kənd əhlin udan divləri,
Bir görən olmadı, incidi, getdi..

22.04.13

QIŞ GƏLIB ÇIXMIR...

Payız boxçasını yığıb, gözləyir,
Yükü çox ağırdır – qış gəlib çıxmır,
Qar qız tacın alıb, Baba əsasın,
Üç atlı xizəyi nöş gəlib cıxmır?

Neçənci dəfədir geri qayıdır,
Payız üz-gözünü silir Günəşin.
Sevinir,elə bil, bu gün toyudur,
Sevinclə gözləri gülür Günəşin.

BIR ADDIM

Birnəfəsə yazdığım şeirlərdən…

Ən yaxın arzuya
bir addlm,
Ən yaxın qonşuya
bir addım.
Gecədən səhərə
bir addım.
Sevincdən qəhərə
bir addım.
Qızıma çatmağa,
bağrıma basmağa
bir addım.
Oğlumu görməyə,
alnından öpməyə
bir addım.
Sevgidən nifrətə,
vüsaldan həsrətə
bir addım.

Bu gündən sabaha,
Savabdan günaha
bir addım...

Addımla gedirik
bu ömür yolunu,
Addımlar həll edir
hər işin sonunu.
Tək Allah yaxındır
addımdan da bizə;
Qapını açmadan,
bir addım atmadan
əlini uzadır
Göylərə açılan
əllərimizə.

25.06.12

DAŞ ADAM

Bir daş adam istəyirəm –
oturum qabağında,
danışım dərdlərimi,
açıb töküm ürəyimdəkiləri...

Sözümü kəsə bilməsin...
bir söz deyə bilməsin...
sakitcə dinləsin.
Heç kimə deməsin dediklərimi...
Qaşları çatılmasın,
gözündən yaş axmasın
dinlədikcə söylədiklərimi.
Qəlbini sıxdığımçın
vicdan əzabı çəkməyim,
üzr istəməyim...
Danışdıqca danışım

yüz ilin,
min ilin qat-qat yığılmış –
ürəyimdə qartımış dərdlərini...

ARZULARIM

Arzularım
balıqçı vedrəsində ;
bir qismi tullanıb
düşür dənizə,
bir qismi
çabalayar…çabalayır…
Ömrünü başa vurur
ordaca üzə-üzə…

İZINDƏYƏM

Günəş çıxır,
axşam düşür–
sıfırın üstündəyəm,
aşağı-yuxarı baxmaqdan
boynum uyuşur...
Gün düz keçir,
ağ şam çökür –
düz gedənin izindəyəm..

BU GÖYÜ
APARIN DƏNIZ SAHILINƏ,

Bu Göyü
aparın dəniz sahilinə,
Qoy dərdini desin
həmdərdinə…
Boşaltsın ürəyini,
Dəniz dalğalanıb,
yusun kədərini…
Bəlkə, eyni açıldı,
bəlkə, üzü güldü bu Göyün…
Bəlkə,açıldı
neçə gündür
qaşlarına vurulan düyün…

21.06.13

SƏNSIZLIK...

Qapını açmaq istədim,
çiynini çəkib,üzünü çevirdi,
əlimi itələdi qapı ...
Qaranlıq otaqlar bayquş gözləriylə
baxdı qapı dəliyindən...
yalnızlığın fısıltısı gəldi
qulaqlarıma...
Sal daşlar bağlandı
ayaqlarıma...
Bəlkə, bu, hiyləydi,
bəlkə, bir savaşdı...
Cəhənnəmin yolu
belə başladı...

07.04.13

MƏN ƏKMIŞDIM…

Yenə bir zərbə gəldi
ürəyimin başında bəslədiyim
qızılgüldən...
Batırdı qəlbimin başına
tikanlarını...
Dönüb heç baxmadı
axan qanıma...
Bir üşütmə doldu
canıma:
onu mən əkmişdim
qəlbimə...
uyub ətrinə...

12. 04.13

YOSUN

Gözlərimin gözü quruyub,
çölə axmır göz yaşları,
Ürəyimin yoluna tökülür
damla-damla,
İsladır ürəyimdə
qalaq-qalaq yığlan
qara daşları...
Göyərir,
yosun bitirir daşlar...
Bəs deyirdiz
“qara daşlar göyərməz?”....

BƏNÖVŞƏYƏ DEYƏSƏN

Səhər-səhər tərtəmiz
kol dibini görəsən,
Uşaq tək məsum baxan
bənövşəni dərəsən…
Baxıb məsum gözünə,
tərtəmiz gül üzünə,
xatırlayasan məni...
Qəlbindəki sevgini,
səni didən nisgili
bir-bir ona deyəsən…
Ləçəklərindən öpüb,
tez mənə göndərəsən…

YOL

Qatardayam,
yol boyu azdırdığım fikirlər
vaqon-vaqon gəzib,
axtarır məni...
Gizlənmişəm
yorğunluğumun
arxasında...

Biri gəlib keçdi məni,
görmədi,
digərinin əlləri
köynəyimin yaxasında...

Kim oduğu, nə olduğu
bilinməyin mənzərələr
keçir pəncərələrdən...
Rəngi süzülən
rəsmlər kimi...

Qatar gah sürətlə gedir,
gah dayanır...
Niyə, nə üçün?–bilmirəm bu işi,
Məncə, yenə içib,
sərxoşdur maşinist
Zaman kişi...

07.04.13

ÜŞÜYÜRƏM

(Xəstə yatağımda)

Yayın cırhacırında
üşüyürəm...
ürəyim buzlar içində,
bədənim dərəcə-dərəcə yanır,
üşüyürəm bu atəşlər içində...
Qaldırın Yer kürəsin,
atın ayzberqlərin arasına,
bəlkə, soyuya Yer kürəsi,..
bəlkə, isinə ürəyim...
Üşüyürəm....
Çox üşüyürəm...

07.04.13

BƏXŞIŞ

Dəniz Allahın bizə bəxşişidir.
Üzündəki rəngli ləkələr
günahlarımızdır – rəng alıb-verir.

Ləpələr səkdirdiymiz,
suyun ayna üzünü
çilik-çilik etdiyimiz
çay daşlarıdır,
qayıdıb üstümüzə gəlir...

Qağayı tamaşaçıdır;
gah cahilliyimizə baxıb
şaqqanaq çəkir,
gah təsəlliyçin
ağlayan dənizin
üzündən öpür....

15.05.13



BILIRSƏN MƏN SƏNI NƏ VAXT TANIDIM?

Bilirsən mən səni nə vaxt tanıdım?–
Üzümə baxmadan cavab verəndə,
bir ay əvvəl keçən doğum günümə
sevdiyim ətiri alıb gələndə...
Məktəb uşağı dərsin əzbərlər kimi,
suala tez-dəqiq cavab verəndə...
Sevmədiyin yeməyi "ləzzətlə"yeyib,
əllərimdən öpüb,
"çox gözəldi"deyəndə...
Bilirsən mən səni nə vaxt tanıdım?–
Sən "sən" olmayanda...
Kaş...heç tanımayaydım...

25.06.13

AĞLADI DAMLA-DAMLA

Yenə yağış yağır,
yenə hər damla
Göydən Yerə gələn,
dərddir, hədədir...
Yenə Göy dözmədi
çəkdiklərinə,
Yerlə mübarizə
bildi, hədərdir...
Axıtdı göz yaşın,
tökdü axırda,
bəlkə, Yerdən gələn tozu yatırda...
Bəlkə, ulduzların tozu silinə,
Bəlkə, Ayın üzü aydın bilinə...
Bəlkə, nəfəs ala təmiz havayla,
Ümidin bağladıı gözəl xəyala...
Ağladı..ağladı Göy damla-damla ...

21.06.13

YUMRUQ

Ürəyim yumruq boyda –
sinəmi əzir,
Qəhərim yumruq boyda –
nəfəsimi kəsir...
İki yumruğum var,
yenə də məndən
nə bir qorxan var,
nə də haqqımı
qaytaran...

İPƏK QARI

Qaralmış hava
susmuş insan kimidir–
ya tezliklə tökər gözlərindən leysanı,
ya köksünü ötürüb,
yandıracaq yeri-göyü...
Azad edəcək içindəki insanı...

Külək –
təsəlliyə gəlmiş qara çadralı qarı;
İpək qarıdırsa, gün çıxacaq,
köpək qarıdırsa....
şimşək çaxacaq,
tufan qopacaq.

22.05.13

QORXULARIM

Qorxuram
qorxularımdan...
Bir kabus boylanır
onların arxasından..
Qorxularım
izləyir məni bir kabus kimi,
Bir kabus izləyir məni
qorxularım kimi...
Ürəyimdə qorxularım,
yollarda kabuslar,
gedirəm kor kimi...
Bir işıq tutub əlimi...
Yolum uzanır
Allahın qapısına kimi...

22.04.13

SƏN KIMSƏN?

Bir bədəndə nə qədər
insan olarmış,
Bir insanda nə qədər
adam yaşarmış...
İçimdə bir qadın var–
yuyar-silər,bişirər-düşürər,
bəzənər-düzənər;
İçimdə bir ana var –
hamını düşünər,
hər canı öz canı bilər,
özü ən sonda yadına düşər;
İçimdə bir kişi var –
qovar-qoruyar,
gecə-gündüz keşik çəkər,

hər xırda şey üçün usta çağırmaz,
özü düzəldər;
İçimdə bir müəllim var –
bildiyini hər kəsə öyrədər,
hər kəsi öz övladı bilər,
hər kəsin uğuruna sevinər,
hər kəsin dərdini çəkər...
İçimdə bir döyüşçü var–
dünyaya gəldiyi gündən savaşır,
gah qalib olur,
gah məğlub...
İçimdə daha kimlər...kimlər var...
Bəs onda mən kiməm?
– Mən –xalqam.
mən – eləm,obayam,
mən qoşunam....
Mən toplu isiməm....
Sən kimsən?

14.05.13

ÜFÜQƏ DOĞRU

"Üfüq əlləri qoynunda yollara baxır..."
Balayar Sadiq

Sanırdım ki,qürub
bizi gözləyir,
Demə, yanılmışam,
yol üfüqəymiş...

İnsan oğlu
yarandığı yerə dönməli!–
Üfüqdəymiş
yaranış da,
qayıdış da –
bunu hamı bilməli!

HƏRDƏN

Hərdən
ürəyimdən kədəri,
bşımdan fikirləri
qoparıb
atmaq istəyirəm...
Qorxuram ki,
heç nəsiz qalam –
hər şeyimi itirəm...

DÜNYANIN QAPISI

Dünyanın qapısını açıb,
çıxıb getmək istəyirəm
elə bir yerə ki,
orda ayaq izləri yoxdur...
Orda küləklər əsir,
saçlarımı dibindən qoparacaq qədər
güclü küləklər...

Açım qəlbimin qapısın,
silib süpürsün o dəli külək
içəridə nə varsa...
Aparsın
gücü haracan çatarsa...
Quş kimi yüngülləşim,
uçum havada,
heç kim tapmasın izimi,
beləcə gizlədim özümü...

DƏYMƏZ

Dəyməz, gözüm,
dəyməz o axıtdığın yaşlara.
Bağrından gələn can suyun
onun üçün
dənizdən götürülmüş
bir damladır…

09.05.13

ÇƏTIR

Yağış həqiqətdir,
çətirsə yalan;
Başdan deyil,
ayaqdan islanar
çətir altda
daldalanan...
İliyinə işləyər
yağışın soyüğu...
Başı ağrıdacaq
ayaqlarını isladan
yağış suyu…

19.05.20013

GIR QƏLBIMƏ

Əs, ey külək,
vur üzümə saçlarımı,
Bundan başqa nə gəlir ki,
əlindən?
Pərğu kimi saçlarımı
tərpətməyə nə var ki?
Gücün çatır,
gir qəlbimə,
tərpət orda
yosun basan
qara ömür daşlarını,
götür apar ürəyimin dibindən...

Qəzəllər

Şad olma, könül, aqibətin çox betər oldu,
Bir gün ki sevindin, sabahın beşbətər oldu...

Avarədi can, düşdü çölə, atəşə yandı,
Atəşdə də məchulə qədər yol gedər oldu.

Şad olmağa haqqınmı qalıb fitnələr içrə?–
Aləm yığılıb, halına rişxənd edər oldu.

Naz etmə, könül, nazına qurban gedənin yox,
Hal əhlimi var?– Çəkdiyin ah da hədər oldu.

Mahi, nə təmənna edərək odlara yandın! –
Eşqdə yerin bircə ovuc kül qədər oldu.

08.01.14

Adı dillərdə gəzən bir dəli Leyla kimiyəm,
Gecə - gündüz dolanan sərsəri dünya kimiyəm.

Günahım nəydi mənim, aləmə səs saldı ünüm?–
Ürək atəşdə yanır, bülbüli-şeyda kimiyəm.

Dilimin zaminiyəm, sirrimi açmaz, bilirəm–
Nədən aləm danışır, ellərə rüsva kimiyəm?

Mənə tən eyləyənim, köksümü yar, qəlbimi gör–
Ürəyim tir-tir əsir, dalğalı dərya kimiyəm.

Günahım, Mahi, budur – bir qara sevda quluyam,
Vüsala yoxdur ümid, mehri-Züleyxa kimiyəm.

Ümidim yox vüsala

Bir il bizə içdirdi zəhər,ə'fiyə döndü,
Görcək gəlib artıq o kəhər, ə'fiyə döndü.

Aldanma, könül, hər görünən zər deyil altun,
Daş altda yatan gör neçə "zər" ə'fiyə döndü!

Peyda olan hər aşiqə "aşiq" demə, ey dil,
Aşiqləri gördüm, nə təhər ə'fiyə döndü!

Axşam yaxarıb:"dərdimə çarə!"– deyən insan,
Müşküldən ötüb çıxdı, səhər ə'fiyə döndü...

Gəl, Mahi, çıxaq ə'fi ilindən, gedər olsun,
Gəlsin "Göy at"ım – cümlə-bəşər ə'fiyə döndü.

Yenə bir ah çəkəm, göydə fələklər yanar,
Neçə illdir uyuyan xəstə ürəklər yanar...

Gələ haraya külək, üfləyə yanğın ocağın,
Olacaq ərşə büləndd, odda küləklər yanar...

Qalacaq mat-məəttəl, gələ bilməz köməyə,

Dolanıb göydə gəzər arzu-diləklər, yanar...

Gələcək dərdverənim, peşman olar, çarə gəzər,
Yalın əlnən çalışar, onda biləklər yanar...

Çəkərəm, Mahi, bir ah, amma, görün, kim yanacaq?!
– Başım üstündə gəzən körpə mələklər yanar...

02.01.14

Qəsd etdi mənim canıma, bir dərdə düçarəm,
Olmuş ürəyim göylərə möhtac, nədi çarəm?

İmdad dilədim, qoy nəfəs axsın ciyərimdən,
Düşmür ki əlindən qızıl oxlar– dili-zarəm.

Bir ah çəkib, parçalar atəş göyü hər dəm,
Atəşdə yaxıb, çızdağ olub hər tikə-parəm.

Aləm danışır halımı, agahdımı qafil?–
Hardan biləcək kim, necə rüsva, necə xarəm?

Töksün başım üstdən qəmi, hicranını, Mahi,
Bilsəm ki, onun qəlbinə hakim gülüzarəm.

Sənsiz qalacaqsa, bu yazıq canımı neylim,
Etməzsə kömək – loğmanı, dərmanımı neylim?

Canım can atır, vəslinə yetməklə dirilsin,

Qurtarsın özün – vəslinə qurbanımı neylim?

Yoxdursa içindən Sənə bənzər biri, hərgah,
Göydən enəcək min pəri-qılmanımı neylim?

Canım da Sənin, bəxt də Sənin, taxt da Sənindir,
Qəlbində yoxamsa, o Süleymanımı neylim?

Mahi, yaxarıb əlləri göydə, mədət umdum–
Hicran bürüyüb ətrafı, dörd yanımı, neylim?

Durub abrım yolum üstdə, keçib getmək zülümdür, bil,
Hər ah cəkdikcə bagrımdan qopan oddur, külümdür,bil.

Gəzib göylərdə sərgərdan, buludlardan mədəd umdum,
Siyah geymiş qərib quşlar qəmimdir, nisgilimdir, bil.

Xəyalımda salıb məskən, nəzərlərdən didərginsən,
Şikayət eyləyən səssiz qabar olmuş dilimdir,bil.

Zaman çılğın küləklərtək başın almış gedir,durmur,
Ötən an kim, keçir sənsiz , ömür-gündür, ilimdir, bil.

Kəsibdir qollarım zəncir, axıb getmiş qızıl qanım,
Nəfəs alsam, çıxır canım, güzarm qum çölümdür,bil.

Qərib yollar günahkartək xəbər gözlər hər an səndən,
Gözümdən lal axar qan-yaş, yaxam duzlaq gölümdür,bil.

"Dönər, Mahi", – deyir hər kəs – ümid vermək bir adətdir,
Nələr xəlvət çəkir canım, bilən düm-ağ telimdir, bil.

Elə pəjmürdədi halım, görən ah çəkdi ürəkdən,
Saralan yarpağa bənzər– dilər imdadı küləkdən.

Üzüb axır gedərəm yelkəni dolmuş gəmilər tək,
Ləpələndikcə könül, bir haray olmazsa fələkdən.

Üzülən canımı al, iynə götür, çək dəliyindən,
Elə yüngüldü ki, pərsəngi olar ağ kəpənəkdən.

Dolanıb gəzsə də örkən bütün aləm boyu, hərgah,
Keçəcək axır ucu doğmaca ilkin gödənəkdən[*].

Quruyan arxa gələr su, dolanar bir daha başdan,
Arıdan olsa yolun bağlayacaq daşla kəsəkdən.

Ümidim bir onadır, hər əzabın bir sonu vardır,
Gün olar, Mahi, ürək qurtulacaq fitnə-kələkdən.

**gödənək–uc, başlanğıc,doğanaq*

Mənə biçarə deyib, üz çevirib getmə, təbib,
Ümidim səndədi, bimarını tərk etmə, təbib.

"Məni bimar sanıb, dərdimi gizlətmə" dəsəm,
Demə pünhanidi dərdin, məni kövrəltmə, təbib.

Ürəyim dad eləyir, ta çəkə bilmir bu qəmi,
Elə naçar döyünür – qəlbimi titrətmə, təbib.

Özüm öz dərdimi billəm – gülüzarımdı gedən,
Perikən ruhumu qaytar, məni gözlətmə, təbib.

Qoyaraq dizləri üstündə başım, yaş tökə,
Tapacaq Mahi nicat, bimarı incitmə, təbib.

25.11.13

Ürəyim can çəkişir, yarə de gəlsin,

Çəkir axır qəmi, bir çarə de, gəlsin.

Yetə bilmək diləyir vəslinə könlüm,
O gül üzlüm – güli-rüxsrə de, gəlsin

Yenə hicranı çəkib xəncəri gəlmiş,
Ciyərim eylədi min parə de,gəlsin.

Yenə Gün üz çevirib, nurunu səpmir,
Yenə aləm boyanıb qarə, de gəlsin.

De ki, gəl, Mahi sənin hüsnünü görsün,
Gedəcək, çəkmə bu gün darə, de gəlsin.

Gələcək gəlməyəcək, mən bilirəm,
Üzümə gülməyəcək, mən bilirəm.

Keçərək bir belə qəm sədlərini,
Gözümü silməyəcək, mən bilirəm.

Qalan ömrüm gedəcək badə mənim,
Qübarım ölməyəcək, mən bilirəm.

Bu qədər dərdləri yalnız çəkərəm,
Gedənim bilməyəcək, mən bilirəm...

Tökülər, Mahi, xəzəl, hər gedənin
İzi örtülməyəcək, mən bilirəm...
15.01.14

Bu nə cür qəmdisə, çəkdikcə könül işğal olur,
Dadı səkkər kimidir, hər kim içir, xoşhal olur.

Çəkirəm bir belə qəm, halımı görsən – nə gözəl!
Çəkə bildikcə çəkir, tuti dilim həm lal olur.

Çəkilib küncə, Sənin həsrətinin təşnəsidir,
Ürəyim gah üşüyür, gah da yanıb xal-xal olur.

Arının şakəridir, gül ləçəyindən kam alar–
Kədərim gül kimidir, hey süzülür, şan-bal olur.

Elə şərbət dadan olmazsa bu qəm, Mahi, inan,
Çəkə bilməz bu könül – qəm ilə xoş əhval olur.

Aşiqdi sənin hüsnünə könlüm üzün heç görmədən, ey gül,
Hər yerdə sənin əksini gördüm – deyə bilməm nədən, ey gül.

Hər zərrədə vardır ki, nişanın, duyulur varlığın hər dəm,
Yellər nəfəsin, Gün ürəyin, Yer də gülabdan bədən,ey gül.

Hər kimsə Sənin varlığını dandı, onun çarəsi yoxdur,
Kim, gözləri kor, ağlı kəmin fərqi nə divanədən, ey gül?

Səndən bir əlamət soruşur hey mənə cahil biri, bilmir
Kirpikləri qırpmaqçın alır gözüləri güc kimsədən, ey gül?

Nadanlar ilən çox savaşıb Mahi sənin uğruna, ey Can,
Sultanı bilib canı bu dünyaya hələ gəlmədən, ey gül.

Şikayət etməyim, neylim?– çıxıb getmir xəyalımdan,
Gözümdən heç kənar olmur – çəkir qəlbim bəlalımdan.

Nə vaxtdır fal açıb falçım, görüb sapsarı güllər var,
"Bu güllər ayrılıqdır, bil,"– xəbər vermiş məlalımdan.

Zaman durmur – çapır köhlən, keçir ömrüm-günüm qəmgin,
Keçər illər, əsər qalmaz bu üzdən, xətti-xalımdan.

Çıxıb, artıq, həyatımdan, uzaq durmaq əsalətdir –
Gəlib gizlin, xəbər tutmuş o naməhrəm bu halımdan.

Ümidim var, vəfasızlar peşimanlıqla dönsünlər,
O gün mən intiqam allam, könül, əlbət,o zalımdan!

Gələr bir gün, həmən falçım sevinc içrə gülüb söylər:
– Gülər bəxtin bu gündən, Mahi, at çıxmışdı falımdan.

Aşiqdi könül hüsnünü heç görmədən, ey gül,
Hər yerdə sənin əksini gördüm – nədən, ey gül?

Vardır ki, nişanın, duyulur zərrədə hər dəm,
Yellər nəfəsin, Gün ürəyin, Yer– bədən,ey gül.

Bir çarəsi yox, kim ki, Sənin nurunu danmış,
Bir ağlı kəmin fərqi nə divanədən, ey gül?

Səndən bir əlamət soruşur hey mənə cahil–
Qırpılmaq üçün göz güc alır kimsədən, ey gül?

Nadanlar ilə çox savaşıb Mahi sənincin,
Sultanı bilib dünyaya heç gəlmədən, ey gül.

Sevdalını Allah qoruyar qövmü-fənadan,
Aşiq dolanar dərdli, deyər zövqi-səfadan.

Nə sirdisə, bir barmağım ağrarsa, sızıldar,
Bezmir ürəyim, can çəkişincə bu cəfadan.

Bir an belə əl çəkmədi sevdam ürəyimdən,
Yəqin, gərəkir aşiqə ənam bu vəfadan.

Fəxr eylə, könül, sahibin ol möhnətə dözmüş,
Bir ömrü verib, hicrana yoldaşdı binadan.

Atəşlərə yanmaqdımı sevdalara düşmək,
Sevda bizə ənam idi bəs, Mahi, Xudadan?

Mənə səndən danışan hər kəsi həmdəm bilirəm,
Dediy, hər nədisə, könlümə məlhəm bilirəm.

"Geri baxmış, gözü dolmuş" – bunu hər kəs danışır,
Süzülən yaşları dən-dən tökülən qəm bilirəm....

Gecə ulduzlara dalmış neçə göz şehlə dolur,
Geri baxdıqda dolan gözləri şəbnəm bilirəm

Çəkə bilsəm adını bir kərə, ruhum dirilər,
Nə təhər dərddisə, həm bilməyirəm, həm bilirəm.

Çəkirəm çövrünü gündüz-gecə mən Mahisayaq,
Nə qədər səy edirəm, hey yaxamı nəm bilirəm.

Çəkdiyin hicran odun yarın savab bilmiş əgər,
Ta nədən könlün küsür? – çəksin cəfalər bəs qədər.

Çəkməsən hicran odun, səndən vüsalın yan gəzər,
Etmə hicrindən şikayət, eşqə hicran dad verər.

Hər kəsin bir yarı vardır, hər sevən yardan deyər,
Çox da "yar","yar"söyləsən, hər kim bezib, imdad edər.

Hər sözün az söyləsən, hər kəs durub dinlər səni,
Mahirə Nərimanqızı. "Mənim Dünyam"

Bir qaşıq baldırsa söz, tüm dərdlərin eylər hədər.

Mahinin könlün çalıb, çoxdan firar etmiş yarı,
Hicri dərman oldu, artıq, Mahi ardından gedər.

12.10.13

Bir "OL!"la yaratdın bütün aləmləri, ya Rəbb,
"OL!" söylə ki, yellər ala dərd-qəmləri,ya Rəbb.

Artıq dayanıbdır sümüyə tişəsi zülmün,
Bir "OL"la bitir bəndənə zülümləri, ya Rəbb.

Qaçdıqca qovur qəm məni, əl çəkməyi yoxdur,
"OL!" söylə ki, yansın oda qədəmləri , ya Rəbb.

Dərd çəkməyi qəlbim edib adət, neçə ildir,
Azdlr qəmi, itsin bütün ələmləri, ya Rəbb.

Bil, Mahi çıxar zülmükarın məngənəsindən,
Bir "OL!" deyə Rəbbim, bitə sitəmləri, ya Rəbb.

Qəlbim onu seçmiş, bunu dildarına söylər,
Gündüz Günə, axşam Aya– həm yarına söylər.

Qorxum budu, sirrin bu ürək hər kəsə açsın,
Dinlərsə də hər kim, o da əğyarına söylər.

Dildən dilə düşmək yaraşarmı bizə, eyvah,
Bir sirri açılsa, hərə həmkarına söylər.

Bağban açılan hər gülü bağdan belə gizlər,
Bülbül gülə baxmış isə, gülzarına söylər.

Ah-vay edərəm, Mahi, yaman dillərə düşsək,
Düşmən sevinər – həm kora, həm karına söylər.

Qəlbim yenə ərş-əlaya qalxmış bu kədərdən,
Olmuş içi al-qırmızı qan qəmli xəbərdən.

Açmış yenə ağzın bədağız, söyləmiş,eyvah,
Köçmüş gecə yarın, köç edib getdi şəhərdən.

Görməkdi sənin vəslini hər gün–- budu niyyət,
Düşmüş çölə, səhralara yarın bu qəhərdən.

Hicrin nə yaman zülm elədi aşiqə, ey gül,
Fəxr eylə, şad ol, hər kəsə söz aç bu hünərdən.

Peşmandı könül, Mahi, tökür hər gecə qan-yaş,
Amadədi kim, yar qayıda, keşkə, səfərdən.

03.10.13

Aşiqdi, Sənin vəslinə amadədi canım,
Görməzsə, ötən hər günü qəm-nalədi canım

Bir can ki gəzir ayrı bədəndən, nəyə lazım?–
Yurdsuz-yuvasız quşdumu? – bilməm nədi canım.

An-an əridir vaxtı ki, gəlsin, Sənə çatsın,
Sığmır tənə ruhum, Sənə çox təşnədi canım.

Yaz-yay vətənin məndə tapıb, könlümə qonmuş,
Payızda dönən durnadı, yol üstdədi canım.

Qılmaz mənə bir vəfa – adım tək bunu billəm,
Bir gün gedəcək, Mahi, himə bənddədi canım.

Məni qəm içrə gömüb, göyləri vəd etmə, canım
Hara gömdünsə, o yer cənnətə layiq məkanım.

Ala bilməz məni bir kimsə bu qəmlərdən,inan,
Köləyəm onlara, ol qəmlərə sığnaqdı canım.

Nə qəmin varsa, ata qıl mənə, gəl etmə inad,
Çəkəcək, sanma zəif, qəlbimə vardır gümanım.

Nə gəlir bəndəyə, gəlsin təki Səndən – nə gözəl!
Çəkərəm canım ilə kim, çəkə bilməz cahanım.

Saralıb Mahi – sənin hicrinə dözmür ürəyi,
Deyir, eşq aşiqə zinətdi, qoy odlara yanım.

Keçirin şamları, yansın gecə qəlbimdə çıraq,
Yana qəm atəşi, yandıqca alovlansın ocaq.

Gələ pərvanə təkin xanəmə yarın xəyalı,
Verə atəşlərə şahpərləri, yalnızca qalaq.

Uça bilməz ki qanadsız, qalacaq sübhə qədər,
Deyərəm dərdlərimi, dinləsə yar, assa qulaq.

Baxacaq qəm tökülən gözlərə,qəmdən üzülər,
Qəmə mehman olacaq göyləri görmüş o qonaq.

Keçirin şamları, yansın gecə qəlbimdə çıraq,
Deyəsən, Mahi bu gün qəlbimə mehman olacaq.

17.09.13

Qəm çəkmə, könül, bir belə qəm çəkməyə dəyməz,
Nadan yası neylir, ona yaş tökməyə dəyməz.

Bir yer ki, əzəldən qaya-daş məskəni olmuş,
Bitməz – becərib, gül toxumun əkməyə dəyməz.

Uçmuşsa saray, bax ki, nədən uçdu imarət,
Yarğandısa, özlün qazıyıb, tikməyə dəyməz.

Saxlandısa bir sirr ki,– el adəti vardır,–
Bir yol ki açıldı, onu ta bükməyə dəyməz.

Xırman arıdar hər kəsə tökmüşsə nə cür dən,
Çovdardısa dən, buğdaya göz dikməyə dəyməz.

Qəm çəkmə ki, qəm Mahiyə gör bir nələr etmiş!–
Nahaqdı, könül, nakəsə diz çökməyə dəyməz.

Qəmə ürcah olanın gözləri gülməz, bilirəm,
Gələ Loğmanı, yenə dərdini bilməz, bilirəm.

Seyr edib gülşəni, həm dinləyə şux nəğmələri,
Qəmə qəm artıracaq bu, qəmi silməz, bilirəm.

Kim açar boynuna pərçim o kədər sarmaşığın?–
Dolanar kəndiri bərk-bərk, üzülməz, bilirəm.

Yağa yağmur, düşə qar– halına tə`sir eləməz,
Olacaq gözləri pəndəm – sü süzülməz, bilirəm.*

Bilirəm, Mahi, nədir çəmbəri-qəm, dərdü məlal,
Bu qəmin əydiyi qədd qeyrə əyilməz, bilirəm.

* *pəndəm- çayın qarşısın kəsən torpaq bənd*

Gedə bir gün bu kədər, tapmaya döndükdə məni,
Ala gündüz çırağın, axtara bu kökdə məni.

Ola xoşbəxt ürəyim, qalmaya qəmdən bir əsər,
Açа güllər– bu kədər seçməyə güllükdə məni.

Uça quştək ürəyim, göydə buludlarla gəzəm,

Qədərim çəkməyə, artıq, bu ağır yükdə məni.

Aza yurdun-yuvasın, qoy buraxa qəm yaxamı,
Yaradan qoymaya bəxtim asa bir tükdə məni.

Mahi, xoşbəxt edəcək, istəsə Allah,bilirəm,
Bu imarət nə gərək, bir kiçik üsküdə məni.

25.01.13

Qəmi mən tək çəkənin yoxdusa, əlbət, çəkərəm,
Didəcək qəlbimi qəm, Allaha niyyət, çəkərəm.

Sənə eşqimlə qəmim can-bir olub məndə yaşar,
Çəkərəm nazını gündüz-gecə, zəhmət çəkərəm.

Təki Səndən gələ qəm, bəndə qəmin çəkməyə can,
Gələcək sonda vüsal – bax ona həsrət çəkərəm.

Ürəyim qəmlə doğulmuş, xəmirim qəmdi mənim,
Özüm öz dünyama sığmam, elə qürbət çəkərəm.

Nə olar, Mahini Sən nadana tuş etmə daha,
Ürəyim qəm çəkəcək, illa da zillət çəkərəm.

26.07.13

Bir gün gələ – məsud edə artıq bu bahar könlümü,
Töküb ətəyindən daşı, şadlandıra yar könlümü.

Hər dəm çəkirəm hicrini, həm qəhrini, həm dərdini,
Yad etməyə gəlmir məni, alıbdı qübar könlümü.

Həsrətdi şirin uyquya, kor olsa da, yatmır gözüm,
Min göz gərəkir görməyə olmus tari-mar konlumu.

Qəm yurd salıb artıq bura, qalmaqdı, yəqin, niyyəti,
Qəlbim ha sitəm eyləyir, almış ahu-zar könlümü.

Dağlarda da buz qalmadı, ay Mahi, qışdan çıxmadım ,
Yaz gəlmədi, bir dəm bizə, tərk etmədi qar könlümü.

Bir ömürdür çəkirəm bir dəli insanın əlindən,
Bu, rəvadırmı canım qəm çəkə bir canın əlindən?

Dəli aşiqdimi hicran, nə gəzir dərdli başımda? –
Yenə mən dərd çəkirəm bir dəli hicranın əlindən.

Dəli Məcnun, Dəli Qəmbər də sevərmiş – bunu billik,
Dəli sevdadır, alıb onları cananın əlindən.

Aparır fikrimi dağdan-dağa, könlüm, dəli yellər,
Dəli könlüm ala canım dəli ümmanın əlindən.

Dəlidən ağlını sordum, mənə yol çəkdi səmadan,
Dəlilər səltənətində çək o "sultanın" əlindən.

Bir ağıl sahibi yoxdur ki, tutam, Mahi, əlindən.

– Dəlidir dövri-zəmanə, tut o dövranın əlindən.

Məni yaddan soruşan, ay dəli yarım, necəsən?
Deyə bilmir ki,dilin:"nazlı nigarım, necəsən?"

Elə keçdin ki bu bağdan, tökülüb gül ləçəyi,
Külə dönmüş bağatım, ey gülüzarım, necəsən?

Hanı şaqraq gülüşün, şax yerişin, şux duruşun,
Qaşı-kirpikləri buz , saçları qarım, necəsən?

Qara gözlərdə donub çəkdiyin hicran havası,
Ürəyin dərdə salan, gözləri zarım, necəsən?

Bu yazıq Mahi solan gül bağının bağbanıdır,
Qayıdıb gəlmədi bulbul, qoca sarım, necəsən?

17.08.13

Qalmasın məndən nigaran kim, halım xoşdur mənim,
Yer ki vermişdim, o yer qəlbimdə bomboşdur mənim.

Fikri-rüzgarım gəzir hərdən ötüb keçmişləri,
Sanmasın dərman gəzir – fikrim uçan quşdur mənim.

Çeşmi-halım bəllidir, hər gözdə var göz yaşları,
Göz suyum hərdən axır, ondan üzüm yaşdır mənim.

Qəlbimin halın sorur, qəlbim də rahatdır, deyin ,
Düzdür, hərdən sızlayır, qəlbim, məgər daşdır mənim?

Mahirə Nərimanqızı. "Mənim Dünyam"

Yay gəlib, hər yan yanır, odlar yağır göydən bu gün,
Rahatam, qəlbim tamam buz bağlamış qışdır mənim.

Mahi, şahidsən ki, məndim hər şeyin qəhrin çəkən,
Çıxmışam hər imtahandan, qiymətim beşdir mənim.

06.05.13

Yenə ritmin pozulubdur, yenə döndük başa, könlüm,
Qoşa gəldik, yenə burdan gedərik biz qoşa, könlüm.

Deyəsən, naşükürün hiylələrin sən də duyubsan–
Kürəyimdən vuracaqsan məni lap birbaşa, könlüm.

Görəsən, neyləmişəm hər kəsə – düşmən kimi olmuş,
Oturub, çötkə alıb, hirslə vurur daş-daşa, könlüm?

Axı bağban da mənəm, bağ da mənimdir, kimə borcum–
Niyə bağdan əriyin bitməsi gəlmir xoşa, könlüm?

Soruşan yoxdu, görən, yoxmu sənin, ay bala, dərdin,
Nə çaxırsan bu qızın daş kimi daşın başa, könlüm?!

Nola, nankor nəfəsin Tanrı götürsün başım üstdən,
Sənə bir Mahidi möhtac – nə olar, çox yaşa, könlüm!

30.07.12

Mənə lütf eyləyəcəksənsə, günün mən də bilim,
Nəzərin məndə olan anda bilim, gündə bilim.

Məni möhtac elədin ins ilə cins məxluquna,
Yaradan səndin, axır çarəni qoy səndə bilim.

Nə dumanlar dolanır bəndəinin ağlında bu gün,
Axı mən dağ deyiləm dərdə əlac çəndə bilim.

Demə səbr et, elə səbr etməyə yoxdur daha tab,
Sübutun saçlara gizlində düşən dəndə bilim.

Hər anım qüssə-qəhər,hər qəmə candan oluram,
Bəni-adəm deyiləm?–ver canı, qoy təndə bilim.

Mənə Sən qıy,elə qismət ki, tapım Səndə əlac,
Ya da biryolluq apar, Mahini amandə bilim.

Leşkər kimi qəm üstümə gəlməkdədi, ya Rəbb,
Şeytan da baxıb bəndənə gülməkdədi, ya Rəbb.

Hər kəs ki bilir qəm necə divan eliyəndir–
Canım çürüdüb, ömrümü bölməkdədi, ya Rəbb.

Bir Səndədi çarəm – ya mənim tabımı artır,
Məndən ya da qov, qəlbimi dəlməkdədi, ya Rəbb.

Gülmür nə zamandır bu könül, bəs hara köçsün?–
Gizlənsə də, qəm ünvanı bilməkdədi, ya Rəbb.

Mahirə Nərimanqızı. “Mənim Dünyam”

Al Mahini, nolar, bu qəmin məngənəsindən,
Qurtar məni artıq, ümid ölməkdədi, ya Rəbb.

22.08.13

"Canım sənə qurban" demərəm, can ki Sənindir,
Mehmandı bu can təndə, o mehman ki Sənindir.

Rəbbim, mənə verdin ki, bu can təndə yer alsın,
Hər gün bədənimdən qopur, ol an ki, Sənindir.

Leşkər kimi dərd üstümə yol aldığı anlar
Hər dərd mənə düşməndi, o düşmən ki, Sənindir.

Çəkdim qəmi can-başla, o qəm Sənlə gəlibsə,
Hicranına qurban – qəmü-hicran ki, Sənindir.

Sevdim, mənə Səndən nə gəlibsə, onu sevdim,
Sev Mahini, vurğundu, o çoxdan ki Sənindir.

31.06.13

.
***

Duman getmir başım üstdən, külək susmuş, bu gün dinmir,.
Dərinlərdən baxan şimşək, uzaqlardan çaxıb getmiş.

Küsüb səndən bütün dünyam, küsüb hər kəs, küsüb yer-göy,
Küsüb göllər, küsüb çaylar, bulaqlar lal axıb getmiş.

Ürək küsgün, üzüm gülməz, duyar hər kəs görüb halim,
Gəlib hər kim görüb xəlvət – gözün möhkəm sıxıb getmış.

Səhər şəbnəm xəbər vermış ki,gəlmişdi bu gün yarın,

Gəlib xəlvət,baxıb gendən,dönük üzlüm çıxıb getmış.

Soruşsan, söyləyər yollar;gələn səndin, gedən kimdir?
Dayanmır odlu göz yaşim, zərif cismim yaxıb getmiş.

Vəfasızdır yarın, Mahi, sədaqət umma ta ondan,
Ki,sən hər nə xəyal qurdun, o nainsaf yıxıb getmiş....

Gəl, ey könlüm, gedək burdan, bu yerdən yar gəlib keçmir,
Qalıbdır buz bulaq susqun – gəlib neyçin sudan içmir?

Yolun hardan salıbdır bəs, bu yerlərdən uzaq düşmüş,
Nələr fikrində yurd salmış, xəyalından nələr uçmur?!

Qızıl güllər açıb çoxdan, nədən yığmır, gətirmir bəs,
Gəl,ey könlüm, yanır bağrım, neçin gəlmir, qapım açmır?

Gəlib əğyarə tuş, bəlkəm, edib qəlbin tamam təslim,
Bu xofdan qəlb olub zindan, dönüb gəlmir, işıq saçmır.

Bağımdan, Mahi, bülbüllər küsüb çoxdan, uçub getmiş,
Könül bağçam alaf basmış, gəlib bağban neçin biçmir?
14.02.13

Ver,məni qəmlər didə, hicran dəmi, həm qəm didə,
Qoy məni yarım deyil, ondan gələn əqdəm didə .

Ver gülü xarlar ala, zülm eylə ol aciz gülə,
Mahirə Nərimanqızı. “Mənim Dünyam”

Göy üzü qan-yaş tökə, yarpaqları şəbnəm didə.

Bal kimi şəkkər dilə bir qətrəcə zəqqum düşə,
Həm yarı səndən ala, canındakı can həm didə.

Eşq elə qəlbin didər, ağlın başı tərk eyləyər–
Yar yarı tərk eyləsə, hicran yarı hər dəm didə.

"Al sazı,– könlüm dedi,–yardan ona bir söz demə,
Qoy çala mizrab məni, tel-tel sevib, bəm-bəm didə" .

Tut dilə sən Mahini, versin yenə könlün qəmə,
Qəm kimi öldürdü ki? – qəlbindəkin ərdəm didə.

05.10.12

Gələ bir gün, döyə "tuk-tuk"qapı zəngin o gül üz,
Deyə, döndüm daha, xürrəm keçəcək hər günümüz.

Açа qəlbin qapısın,kaş qova ordan kədəri,
Ola başlanğıcı – qəmsiz ötə hər bir ilimiz.

Soruşan olmaya, hardaydı o gündən bəri yar,
Yenə xatırlamayaq hicranı, getsin qəmimiz.

Ötə günlər, necə azadə gəzir ağ kəpənək,
Elə ötsün gecəmiz, çıxmaya tezdən Günümüz.

O gedən gün mənə düşmən kəsilən dar gecələr
Ola dost – olmaya dərd-qəm gətirən düşmənimiz.

Nə olar, Mahi, gəlib bir gecə döysün qapımı,
Olaq "ev dustağı"– ömrümcə keçə sürgünümüz.

18.01.13

Yenə Zəmzəm suyun içmiş, cana gəlmiş sona bulbul,
Yenə güllər cələ asmış budağından – qona bulbul.

Yığışıb bir yerə güllər, yenə qiybət göyə çıxmış –
Görəsən, qəhqəhə çəkməklə baxarmı ona bulbul?

Bihuş olmuş bu bağın bülbülü ənbər qoxusundan,
Külək əsdikcə vurur ətri, olub məst buna bulbul.

Elə zəngulə səsin kəsdi gözəl nəğmələriynən,
Bulaq ağlar dayanıbdır, təki eşqdən yana bülbül!

Yel əsib, busə alır bağçada gülzadələrindən, –
Vecə almır axı, girmiş neçə dondan-dona bülbül !

Gülə bir sirdi ki,aşiq niyə hey Mahiyə baxsın?–
Gülərək Mahi baxır, tüklərin eşqdən yona bülbül.

Arəstədi məclis – yenə Yaz fəsli gəlibdir,
Aləm yığılıb, gör neçə gül nəsli gəlibdir!

Vah-vah, yuxudan kal oyanıb sapsarı Nərgiz,
Gözlər yaşarıb – məclisə Dağ sisli gəlibdir.

Mahirə Nərimanqızı. “Mənim Dünyam”

Zanbaq butasın zorla tutub, indicə çatlar,
Qıpqırmızıdır Lalə, yaman süslü gəlibdir.

Yalnızca Tikan orda durur, harda Qızılgül,
Bülbül bunu görmüş, necə bir hirsli gəlibdir!

Qurmuş yenə ot-gil yuvasın nazlı Qaranquş,
Evdardı bu quş – çömçəli, cam-taslı gəlibdir.

Kimlər daha yoxdur?–Göyün ol Mahı gəlibdir,
Gəl, biz də gedək – yaz belə məclisli gəlibdir!

05.03.13

Demə,aləm bunu bilmiş, mənə gülmüş,xəbərim yox,
Demə,aləm mənə gülmüş, bunu bilmiş,xəbərim yox.

Demə,hər gün verilən bir salamın mənası varmış,
Mənə göndərdiyin al gül də nə gülmüş, xəbərim yox!

Demə,hər gün küçədən keçməyinin sirləri varmış,
Mənə rastgəlmə təsadüfmü – deyilmiş, xəbərim yox.

Demə, hər adi sözün min sözü varmış ki,deyirmiş,
Nə bilim, səndəki dil möcüzə dilmiş, xəbərim yox.

Nə dedin, anlamadım, çünki dilin yaddı mənimçin,
Demə, axşam anan ondan bizə gəlmiş, xəbərim yox…

23.02.13

Kül olub yandı könül, külləri yellər aparır,
Gəzir əldən-ələ tutiya tək – əllər aparır.

Eşidən hər kəsə bir dərs olacaq çəkdiyim ah,
Vücudum ahla olub kül, məni küllər aparır.

Kim əkibdir söyüdün şah budağın qəlb evimə?–
Necə zəhmət çəkirəm, barını sellər aparır.

Yeyənin min də olar – heç səsi çıxmaz birinin,
Deyənin birdisə, artıq, səni dillər aparır.

Dilə düşmüş ürəyim, çeynənir ağzında elin,
Çölə Qeys, Mahi, düşüb, Leylini ellər aparır.

Səni kimdən soruşum, ay izi itmiş gedənim,
Məni ağlar qoyanım, qürbətə getmiş gedənim?

Yola baxmaqla gedib göz bəbəyimdən qarası,
Yanağımdan süzülən çeşmə yol etmiş, gedənm.

Qara yollar dolanır boynuma sənsiz gecələr,
Ürəyim küllərə dönmüş, odu bitmiş, gedənim.

Qapanıb yolları qəlbin – nə gedən var, nə gələn,
Quruyur cismi gülün – can suyu bitmiş, gedənim.

Səni dağlar soruşur – bağrımı gördükdə susur,
Səni bağlar soruşur – yel kimi ötmüş gedənim.

Gedişin qırx gün olub, sanki keçib qırx-neçə il...
Elə bil, Mahinin ömrü sona yetmiş, gedənim.

Mahirə Nərimanqızı. “Mənim Dünyam”

Bir güldü yuxum – güllərə dastan desəm,azdır –
Hər yan gül açıbdır, bu zimistanda nə yazdır?

Dürr-inci təkin şölə saçır gün səhər-axşam,
Aydındı gecəm, yox qara zülmət – nə bəyazdır!..

Hər bir budağın üstünə bir aşiq oturmuş,
Oddan sazı tutmuş,oxuyur – gör nə avazdır!..

Mizrab telə dəydikcə, telin naləsi qalxır,
Qalxdıqca alov, saz da yanır – saz necə sazdır?!

Yarpaqları dəsmal götürüb,yallı gedirlər,
Yellərlə budaqlar da tutub səf – nə tarazdır!..

Aldım yuxudan bülbülü,verdim ona əmrim:
Get Mahini gör, röyama eşq dastanı yazdır.

31.12.12

Dedin, ey dil, darıxıb tökmə yaşın, yar gələcək.–Gəlmədi ki!
Dönəcək bir gecə xəlvət, nədi hicran, biləcək. – Bilmədi ki!

Görəcək halını, bax-gör necə dil-dil ötəcək, gözlə, – dedin,
Görəcək gözlərinin yaşını, qəmdən öləcək, – Ölmədi ki.

Neçə gündür, dediyin vaxtı keçib, dönməyəcək, – yoxdu soraq,
Baxaraq yollara gözlər dolacaq, kimsə silər?– Silmədi ki.

Nə Ayın hökmü qalıb, ulduza him-cim eləsin, güdsün onu,
Mahirə Nərimanqızı. “Mənim Dünyam”

Nə Günüm gözlərin açmır ki, görüm üz güləcək? – Gülmədi ki...

Bu qədər hicrana dözmək necə dərddir, bilirəm,– Mahi bilir,
Danışan dərdə düşən qəlbdmii,– lal dil dinəcək?– Dimmədi ki...

Gəl ,ey bülbül, susub qəlbim, bu qəlbin lal halın bildir,
Durub susqun, vurur üzgün, pərişan əhvalın bildir.

Sular axmır bu bağlardan, gülün ətrin duyan yoxdur,
Xarab olmuş könül bağçam, arım tutmur balın bildir.

Qırıq qəlbim fəğan etmir, susub küskün uşaqlar tək,
Əsir tir-tir: " Tez üstündən salın yundan şalın,"– bildir.

Muraddır at – bilir hər kəs, yuxumdan hey keçir atlar,
Çapır, üstündədir qəlbim, yolur bir-bir yalın, bildir.

Muradımdır çapan atlar,nədən yolsun yalın qəlbim?–
Murad məndən qaçır, yəqin – dönük, qaçqın halın bildir.

Didir qəm Mahinin qəlbin, gedən getmiş, dönüb gəlməz,
Gəl, ey bülbül, gedək burdan, tutanda vəbalım, bildir.

05.08.12

Çağırın bülbülü gəlsin, sözü ol yarə desin,
"Tapılıb dərmanı,"- getsin bunu bimarə desin.

Mahirə Nərimanqızı. "Mənim Dünyam"

Əgər etməzsə təhəmmül, deyə bimarə salam,
Geri gəlsin uçaraq, qoy mənə bir çarə desin.

Necə etsin ürəyim, – qırdığı qəlb ah çəkir ,–
Ağa "ağ" söyləməsin, bəs ağa " qapqarə" desin?

Cana həmdəm olanın çəkdiyi qəm qəmdi məgər?–
Qəmə ürcahdı o kəs, dərdini qəmxarə desin.

Düzə "düz" söyləməyin Mahi çəkibdir cəzasın,
Qayıdıb gəlməsə yar, dərdini əğyarə desin?

21.10.12

Qəlbimə dağ çəkib gedən yadlara döndü günbəgün,
Ay kimi nur saçıb gedən, şam kimi söndü günbəgün.

Sübhə qədər şirin yatan hər kəsə qəlb həsəd çəkib,
Qirmizi-al qanın süzüb, qara geyindi günbəgün.

Hər gecə "yar gələr" deyib, sübhə qədər keşik çəkən
Gözlərimin yaşın töküb, həsrət öyündü günbəgün.

Birdəfəlik çıxıb gedib, dönməyə yoxdu bir güman,
Sanki boran tutub yolun, yolları dondu günbəgün.

Mahi, çalış çəkəndə qəm, heç kəsə çatmasın qəmin,
Dost eşidib qəmin çəkir, düşmən sevindi günbəgün.

Məndən də qabaq cana gələn can ürəyimdin,
Yorğun düşərək yolda qalan xan ürəyimdin.

Dağdan da ağır dərdləri çiynində çəkərdin,
Heç səs-səmirin çıxmadı,sultan ürəyimdin.

Səndən biri "dərman" deyə bir çarə dilərsə,
Qəlbin yağın eylər ona dərman ürəyimdin.

Heç bilməmisən gün nədi, ulduz nədi, Ay nə,
Kortək evi zülmət, qara zindan ürəyimdin.

Hər dərdimə səndin arayıb çarə bulan kəs,
Mən xəstə idim,sən mənə loğman ürəyimdin.

Ömrün yükü çiynində, nə cür yol elədin sən,
Heç "of!"demədən,can – içi al-qan ürəyimdin?

Dərdlər səni yormuş, azalıb tabi-tabanın,
Yorğundu Mahin, sən tabi-taban ürəyimdin.

22.07.12

Gəl ki, qəlbim rahat olsun – hər duam hasil olub,
Tökdüyüm göz yaşlarım dən-dən axıb, qəlbim dolub.

Gəl ki, görsün gözlərin məndən nələr qalmış bu gün,
Gözlərim mərcan bulaq – qan-yaş axır, rəngim solub.

Simsiyah saçlar bəyaz qarlar təkin yellərdədir,
Gah sığal çəkmiş zaman, gah qüssə-yalnızlıq yolub.

Ötməyib illər, mənim ömrümdə çovğuntək əsib,
Hər keçən sənsiz gecəm yatmış ilan tək qıvrılıb.

Mahi dardan qurtular, açsan əgər qəm zəncirin,
İllərin dustağıdır, hicrində çoxdan qovrulub.

19.08.12

Yanlış kəliməm od kimi yanmış, cana düşmüş,
Min bir tikə olmuş ürəyim əfğanə düşmüş.

Hər kirpiyimin üstünə düşmüş gecə şəbnəm,
Dalğın baxışım dağda duman, çovğuna düşmüş.

Aç qəlb evimin pəncərəsin, gör nə "büsat" var ,
Uçmuş divarım, kərpici dörd bir yana düşmüş.

Gözlər mənə bir hiylə-duzaq – bir tələ qurmuş,
Qəlbin gözü yox – kor ürəyim böhtana düşmüş.

"Dost "söylədiyim bər-bəzəkli əfi ilanmış,
Altun kimi qəlb bölgüdə bir şeytana düşmüş.

"Göz batili görməz,"– neçə yol söylədi Mahi,
Mən dinləmədim, xan ürəyim zindana düşmüş.

12.07.12

Aləm yığıla, dərdimə dərman edə bilməz,
Qəlbim çəkəcək hər qəmi – nöqsan edə bilməz.

Canım çəkilən qəmlərə dustaqdı bu axşam,
Bir özgə qəmim könlümü zindan edə bilməz.

Təskinlik üçün söylənilən bircə şirin söz,
Bimarı sağaldar, bunu loğman edə bilməz!

Axır qəmin olsun, ürəyim, üstünə sağlıq,
Bir hiyləyə düşdün – onu şeytan edə biləz.

Nadan nə bilir, dünyaya neyçin gəlib insan?
Nadan edəni, Mahi, min insan edə bilməz.
21.01.14

Yenə qapdın gecə zülmətdə qəhərdən qəmi, könlüm.
Yenə tutdun yolu qürbətdə gəzənlərləmi, könlüm?

Yenə aldın başının toz-dumanın çöllərə düşdün,
Səba əsdikcə sinən yellənə – altun zəmi könlüm.

Necə qorxub gecənin zülmətinin şər bazarından,
Yenə almış nəsibin can, fənadır görkəmi, könlüm.

Nə qədər qəm çəkəcəksən,olan olmuş bizə artıq,
Geri gəlməz o gedənlər,"yola düşmüş gəmi", könlüm.

Mənə bir sən qalacaqsan , elə getmiş ki gedənlər,
Gecə-gündüz ah edib, gəzmə səfil aləmi könlüm.

Mahi bəs tənha qalıb neyləyəcək – sən də gedirsən,
A mənim dərd ocağım, yox çarə səndəndəmi, könlüm?

05.07.12

Gedən gəlmir, nə sirdir kim, bu yollardan dönən yoxdur,
Nə yarğandır, nə çovğundur?– Susur hər kəs, dinən yoxdur.

Gözün yummuş gedən yəqin, yolun səmtin itirmişdir,
O üzdən, yol gəzir, bəlkəm, gəlib çıxmır, görən yoxdur.

Olub bir parça əppək tək gedənlər qeybə çıxmışlar,
Çəkilmiş ərşi-əlaya, ha yalvarsam, enən yoxdur.

Yüyənsiz qaldı köhlənlər –siyah bəxtin kor atları,
Gəzir çöllərdə sahibsiz, cidarlanmış, minən yoxdur.

Əlim üzdüm tamam, Mahi, – qədərdən qaçmaq olmaz ki –
Ha dil tökdüm, gedənlərdən yerindən tərpənən yoxdur.

21-22.08.13

Səndən mənə həsrətdi qalan, bir də bu qəmdir,
Sənsizliyi sənsiz yaşamaq gör nə sitəmdir!...

Yatmır gecələr gözlərim artıq neçə gündür,
Hər gün ki, yaxam sel-sudu, bilməm niyə nəmdir?

Keçmir bu zaman, sanki donub kəfkiri vaxtın,
Çarmıxdadı çərxi fələyin, astaqədəmdir.

Gəlmir sabahım, gün də yatıb – durquzan olmur,
Bəxtim yazılan köhnə qələm gör nə qələmdir!..

Gəl, Mahini gör,– qürbətə getməkdi qərarı,
Burda sabah olmur, gecələr qüssə-ələmdir.

05.08.13
05:12

Bu gözəl dağların, artıq, çəni- dumanı mənəm,
Bu gözəl ölkəmizin ən dəli heyranı mənəm.

Səba oxşarsa, saçım dalğalanar, fəxr eləyər,
Deyəcək:" Səhra yarım, sevgili ceyranı mənəm!"

Baxışım seyr eləyir hər sabah açdıqca gözün,
Uyuyan dağlarımız bilməyir mehmanı mənəm.

Gəzirəm yurdumu mən şəst ilə, min bir naz ilə,
Bu gözəl yurdumun həm sultanı, həm xanı mənəm!

Vətənim sevsə mənim tək qızı– şair qızını,
Bilərəm aşiqi-dövran odu, cananı mənəm!

Mahi çoxdan vurulub hüsnünə dilbər diyarın,
Bilir hər kəs bu yerin cananı, həm canı mənəm.

Yoxdur sənə and içməyə cismimdə də taqət,
Vardır bizə müşküldə də yol göstərən, əlbət.

Bir ali məqamdırsa yerin, Allaha üz tut,
Ondan dilə hər dərdinə dərman, verə şəfqət.

Bir kəs ki bilir haq yoludur getdiyi düz yol,
Olmaz o yolun nur saçılan son ucu zülmət.

Nadan nə bilir, şükr eləsin Allaha hər gün,
Tutmuş birinin boş damarın, eyləyə qiybət.

Qalxmaz ki yataqdan, tuta üz Kəbəyə sübhdən,
Təsbeh çevirib, zikr edə bir Allaha niyyət.

Qalx, Mahi, alıb şükr ilə abdəstini, səf tut,
Getməz bada Allah qulunun çəkdiyi zəhmət.

Çeşmim quruyub, çöldə bitən qönçə güləm mən,
Hicran dayanıb qəsdimə, qoymur ki, güləm mən.

Almış başımın üstünü çən, getməyi yoxdur,
İsrar eləyir, çən ilə hicranı siləm mən.

Getməz yeri, silsəm də tamam dərdləri başdan,
Yanmaz ocağım, nəm götürən nəmli küləm mən.

Qılmaz bir ömür bircə sözün dərdinə dərman,
Loğman tapa bilmir, axı hardan bə biləm mən?

Dinməz daha Mahin, səni görsəm də yaxından,
Dinməklə məni dərdə salan dərd-ü-diləm mən.

03.09.12

Erkən oxuyur nəğmələrin bağçada bülbül,
Tezdən yenə gül üzlünü salmış yada bülbül.

"Bül-bül" deyərək ismini təkrarlayır hər dəm,
Duysun deyə gül, bir nəzər etsin ada, bülbül.

Tezdən oyanıb,bir belə məclis qurub aşiq,
Varmı belə aşiq, görəsən, dünyada,bülbül?

Nazikcə boqazdan neçə zəngulə çıxarmış!...
Eşqin gücü çapdırdı dağı Fərhada,bülbül!

Gör,Mahi,gülün ətrafın almış necə sarlar,
Qorxum bir odur, zəhməti versin bada bülbül.

Dəli yellər, hara uçduz, sizə qalmış gümanım,
Hara getmiş bu adamlar, duyanım yox amanım.

Ürəyim qəmlə dolub, qiyyə çəkir hayqıraraq,
Səsi yetmirmi, görən, yoxmu mənim can yananım?

Sizə qalmış gümanım, bəlkə gəlib car edəsiz,–
Biri atəşdə yanır, vardımı bir dərd qananım?

Gedənim dərdini qoymuş ki, çəkən can gərəkir,
Mənə kim ağlasın, artıq, nə deyim cana, yanım?

Elə zalımca gedib, hicranı ölçüb boyuma,

Cana qıysınmı canım?–yol verə bilmir imanım.

Sizə aşiq demərəm,aşiqin əlası mənəm,
Gələ min bir gözəl afət, neçə huriyi-sənəm.

Bulud aşiqdimi məskən eləsin dağ başını?–
Uca dağ zirvəsinə haqqı çatan dürlü çənəm.

Mənə meydan oxumaq hər kəsə nəsib olamaz,
Yada sal Məcnunu – səhrada qərib eyləyənəm.

Kərəmin Əslisi var,Fərhada Şirin yaraşır,
Çağırın məclisə gəlsin Qəribim – Şahi-sənəm.

Yenə eşqdən danışıb, min yola baş vurdu rəqib,
Guya hədyan danışan hər kəsi mən dinləyənəm.

Sınayır min yolu, məndən yenə xoş söz dilənir,
Neçə gündür dolanıb, qəlbin açır, bəlkə, dinəm.

Qara günlər keçirib, ağlamasan eşqin üçün,
Verəməz Mahi sənin eşqinə qiymət, əminəm.

Qəm ilən soldu gülüm, nola sən hicranı bitir,
Tökülür eşqidə min qan, nə olar qanı bitir.
Vüsal Əli

Canı yanmaqda ikən, gər, dəli-divanələrin,
Ona ver yarını kim, yoxsa, yanar canı, bitər.

Yarı əğyarı seçən aşiqə dərman nə gərək?–
Ona baxdıqca yanıb, din ilə imanı bitər.

"Sevirəm"söyləyənin diqqəti yarında gərək–
Gülü sarlar aparar, qəlbinə tikanı bitər.

Elə "dərd-qəm" deyənin qəm tökülər yollarına,
Günü ah-vayla keçər, əldəki imkanı bitər.

Əməyin verməsə eşqin, əli boş yrdə qalar,
Elə ləng tərpənənin, Mahi, o dövranı bitər.

Demə,ey dost ki, bu eşq qəlbimə bir oddu, calanmış –
"Sevirəm" söyləyənin qəlbidi tonqal ki, qalanmış.

Keçər üç-dörd gecə, qəmgin dolanıb, göydə gəzərsən,
Səhər aşkar görünər, məlum olar hamsı yalanmış.

Ola aşiq bir adam, baş götürüb, çöldə gəzərmiş,
Necə Məcnun evi, nəslin, varı-mülkün belə danmış.

Sevənin eşqi düşər dillərə – hər kəs buna şahid,

Necə Fərhad, necə Məcun – hamı məşhuri-cahanmış.

Kimi açmaz niyətin, gözləyər olsun buna əmin,
Kimi gec anlayar, ol eşq gözü kormuş – kor ilanmış.

Biri dərd eyləyər eşqin, biri xoşbəxt olar eşqdən,
Biri "Kəbəmdi" deyər, sanki bu eşq dini-imanmış.

Görərək Mahi ki, sevdalara düşmüşləri qəmgin,
Deyər:Ustad, gözün aydın,"bu cəfadan yar usanmış" .

Sənə yoxdur inamım, yüz dili töksən, nə olar?
Dilə düşmüş bu könül, min suya çəksən, nə olar?

Ayı örtmüşdü bulud, haləsi bir nurdu göyə,
Alıb üzdən o niqabın, daha büksən, nə olar?

Aradan çəkdi hasar gör neçə qiybət, neçə dil,
Daha bundan belə, artıq, onu söksən, nə olar?

"Qırılan qəlblərə ol çarə" desəm, uyma mənə,
Qolu zəncirdə olan qul kimi gəlsən, nə olar?

Bir ipək torba deyil ağzı elin kim, büzəsən,
Sap ilə iynə alıb, Mahi, ya tiksən, nə olar?

Gedərəm bir gecə Yerdən, bura lənət deyərəm,
Neçə gün qaldı ömürdən, buna fürsət deyərəm.

Xəyalım harda gəzir, mən ora güzar edərəm,
Yığaram ulduzu,"bəh,bəh, nə ziyafət!" deyərəm...

Göyü bir huri-mələktək xəyal etməzmi könül?–
Ona ulduzları daş-qaş, Ayı zinət deyərəm.

Məni yaddan da betərtək, yada salmaz ki yarım,
Ayı əğyar bilərək," kaş edə söhbət",– deyərəm.

Olaram pərğu təkin mən, süzərəm göydə o gün,
Ataram dərdləri başdan,"yaşa xoşbəxt,"– deyərəm.

Baxaram, Mahi, o göydən, deyərək şükri-ilah,
Olaram Allaha aşiq,"bu, məhəbbət!"– deyərəm.

30.10.12

Vermə əzab, yazıqdı qəlb – görgüsüzün əlindədir,
Şahə çıxan paxıllığın indi elin dilindədir.

Qəlbi veribdilər ki, sən sevgi tumun becərdəsən,
Yüklədiyin ağır yükün indi onun belindədir.

Çəkmə,yazıq, onun-bunun dərdini, dərd yıxar səni,
Hər sabah it hürüb durur – yolçu keçir,yolundadır.

Harda görürsən inqilab, fikrə gedib, çəkirsən ah,

Bürcünü bir desən nədir – bəlkə də iş ilndədir.

İnsafa gəl, qayıt, adam, vaxtın ötür, günün keçir,
Şeytana tuş gəlib könül, bil ki, günah gölündədir.

Allahı yad edib, dayan, Mahi səninlə tay deyil –
Dağ çayıdır – axıb gedir, ömrü zaman selindədir

09.02.13

Qapı ritmik döyülür, sanki döyən sən kimidir,
Sözü bizdən, özü bizdən, o da bizdən kimidir.

Qapının gözlüyü kor oldu həmən, görmədi heç,
Şüşə buz pəncərətək oldu duman, çən kimidir.

Hanı bəs, heç ürəyim vurmadı əvvəlki təkin,
Yenə kövrək ürəyim doldu kədərdən kimidir.

Necə hər dəm məni kövrəltdi o dən teldə – düm-ağ ,
Səni görmək də, gülüm, saçda bəyaz dən kimidir.

Yenə sənsiz qalaram qəm yenidən başlayacaq,
İki cənnət kimi gün – sonrası zindan kimidir.

Yenə bir gün duracaq, söyləyəcəksən "gedirəm,"
Yenə hicran gələcək–"xəstəyə dərman kimidir".

Yenə gündüz qaçacaq, mən qaçaram çatmağa – yox,
Gecə məndən yapışar– sanki mənəm, mən kimidir.

Bu gedişlər məni səndən ayırıb məhv eləyir,
Mahirə Nərimanqızı. "Mənim Dünyam"

Mahi bir sənlə gəlib, sənlə gedən can kimidir.

02.07.12

Bağa bax, bağ səni sevməz ona düşmən kimi baxsan,
Başa düşməz o susuz gül hanı bağban, niyə yoxsan.

Belə baxsan, quruyar gül-çiçəyin gövdəsi kökdən,
Ta nə faydan olacaq çay kimi sən bağçaya axsan?

İşi gör vaxtı çatantək, demə vardır hələ vaxtım,
Çıxa can, kim onu saxlar – geri dönməz, göyə çıxsan.

Sözü möhkəm tutaraq saxla hələm, gözlə ki, vaxtın,
Axı yersiz deyilən sözlə nahaq can yaxacaqsan.

Yara verdin sözü, ondan geri durmaq nə deməkdir?–
Onu əğyar aparar, sən ona gendən baxacaqsan.

Demə sən: "Eh, bu nədir, eh, o nədir?–hər şeyi billəm",
Ola qarşında duran bir oxumuş, pərt olacaqsan.

Elə "mən,mən" deyərək çoxları çoxdan yelə dönmüş,
Biri səndən belə "Mən!Mən!"ola – qorxub qaçacaqsan.

Mahi, boş çəlləyi kim gördü ki, dağdan düşə səssiz?
Dolu çəllək kimi düşsən, yolu səssiz aşacaqsan.

04.06.12

Belədir dövri-əzəldən,nuru zülmət yaradır,
Doğulan hər günümüz Gün ilə cənnət yaradır.

Gedirik kor kimi, zülmətdə nicat axtarırıq,
Nicatın bir yolu vardır – onu qismət yaradır.

Demə insan yaradır hər şeyi,qadir bir odur,
Onu insan eliyən Qadiri- Qüdrət yaradır.

Onu danmaqla keçir günləri cahil olanın–
Kiçicik zərrədə,gör bir, necə hikmət yaradır!

Bir anın mində biriycən çəkə gər qüdrətini,
Dayanar külli-cahan, hər kəsə zillət yaradır.

Onu danmışları, azmışları çox yaxşı görür,
Yola gəlsin deyə, bax, Mahi, O şiddət yaradır.

Könül, səndən xəbərlər var– içindən yar gəlib keçmiş,
Xəbər tutmuş olanlardan, qərib halım bilib keçmiş.

Olan olmuş, keçən keçmiş, nədən səndən yolun salmış,
Gəlib məndən xəbər tutmuş, baxıb, yaxud, gülüb keçmiş?

Deyirlər, yaş axıtmışdır, üzün qəmlər əsir almış,
Çıxıb kindən- küdurətdən, kini qəlbdən silib keçmiş...

Mahirə Nərimanqızı. “Mənim Dünyam”

Gəzib qəlbin bucaqların, görübdür öz qərib qəbrin,
Görüb ondan qalan hər şey gedən gündən ölüb, keçmiş.

Baxıb küskün, töküb yaşlar, peşimanmış olanlardan,
Bilib, artıq, "qatar getmiş," o günlər kül olub keçmiş.

Xəbərdən çox fəna oldum, üzün görmək nəsib olmur,
Tufan ötmüş o yollardan, yağıb dərd-qəm, dolub keçmiş.

Ötən günlər dönüb gəlməz, peşimanlıq xeyir verməz,
Payızdır, Mahi, yarpaqlar o günlər tək solub keçmiş.

Tək beytlər

Amadədi könlüm, qırılar indicə qəmdən,
Bilməm ki, nə istər bu qədər qəm bu bədəndən...

***

Gülməz üzü, vursan üzünə gər yenə töhmət,
Aləm gələ, kar eyləməz əhvalinə, ey gül.

***

Nə qədər köhnə qəmim versə əzab,
Olacaqsa bir ümidgah – çəkərəm.

***

Ürəyim köklədi zil səsdə simin,
Çalacaq bir dəli segah bu gecə.

***

Qurulub min tələ, min bir duzaq ömrün yoluna,
Yenə yazıq ürəyim, gör necə bir ağa düşüb!

***

Elə pəjmürdədi halım, görən ah çəkdi ürəkdən,
Saralan yarpağa bənzər– dilər imdadı küləkdən.

***

Mənə səndən danışan hər kəsi həmdəm bilirəm,
Dediyin, hər nədisə, könlümə məlhəm bilirəm...

***

Səssizcə sənin qüssəni çəkdim, yasa batdım,
Sənsizliyi səssiz yaşadım, susquna döndüm.

Mahirə Nərimanqızı. “Mənim Dünyam”

***

Çəkdiyin hicran odun yarın savab bilmiş əgər,
Ta nədən könlün küsür,çəksin cəfalar bəs qədər.

***

Qəmi məndən alanın qəlbinə nurlar yağacaq,
Ürəyindən keçəcək Gün də, gözündən doğacaq.

***

Kökü üstündə bitən ot qara asfaltda bitər,
Kökü yoxdursa onun,ot ayaq altında itər.

***

Keçmir gecə, gəlmir sabahım gör neçə gündür,
Bitməz gecəmin hüsranı bilməm kim üçündür.

***

Gəl, ey sabahım, ruhuma şəfqətlə sığal çək,
Gəl, sübh mələyim, vermə əzab nazlı gəlintək.

***

Gəlməsə ondan xəbər, axşam ürəyim qan edər,
Ərşə dək ahım çıxar, ərzi- dilim bəyan edər.

***

Bəhər verməz,ağac açmazsa vaxtında gözəl güllər,
Hər açmış gül də bar olmaz, söyüddən nar düzəldim mən?

***

Kimə dost söyləyib sevdim, ədasından üzüldüm mən,
Pərişan oldu şad könlüm, yanaqlardan süzüldüm mən...

***

Pərvanə dolanmaz başına yanmasa bir şam,
Yanmazsa, qaranlıq bürüyər qəlbləri axşam...

DEYİMLƏR

Dünya qalın bir kitabdır,hər kəs yalnız öz həyat hekayəsini oxuyur.(M.N.)

***

Qar da insan kimidir– gəlişi gözəldir.gedişi zülmdür.

***

Özgə yerişini yerisə bir kəs,
Sonra öz yerişin yeriyə bilməz.

***

Adam var, gördükcə düşür gözümdən,
Adam var, birə-on artır hörmətim....

***

Günah var ki, bir ton balla yeyilməz,
Günah da var, külək olub keçəcək.

***

Kəpənək qanadı kimidi qəlbim,
Üfürsən,tökülər, əl vursan, qopar...

Mahirə Nərir



Təkbəndlər

Bu necə quşdu,gecə,
Gecələr uçdu, gecə,
"Qa..."deyib,dimdiyindən
Balası düşdü,gecə?

***

Aşiqəm Aya gecə,
Düşməyir sayə gecə,
Buludla örtüb üzün,
Ay edir həya gecə.

***

Gözləri yaşlı gecə,
Qara göz-qaşlı gecə,
Adın olub vayqanlı,
Ay başı daşlı gecə.

***

Yolların daşdı, gecə,
Yanağın yaşdı, gecə,
Sil gözünün yaşını,
Dənizlər daşdı,gecə.

***

Sinəsi yara gecə,
Qəlbi min para gecə,
Asılıb yar zülfündən,
Çəkilib dara gecə.

***

Ay üzü qara gecə,
Bəxti qapqara gecə,
Ayın yox,ulduzun yox,
Gedəsən hara,gecə?

***

Saçları qara gecə,
Qəlbi min para gecə,
Dərd onu dara çəkib,
Olub qapqara gecə.

***

Ay qara şallı gecə,
Yanağı xallı gecə,
Nola uzana boyun,
Yuxusu ballı gecə.

***

Çöldə boran var gecə,
Hır tərəf ağ qar gecə,
Gedənlər səhər gedib,
Onları qaytar,gecə.

***

Gecə gələr,xoş gələr,
Əlləri bombboş gələr,
Üzündən qəm tökülər,
Kədərdən sərxoş gələr.

***

Gül sığınıbdır kola,
Gözün dikibdir yola,
Bağrına daş basıbdır,
Bəlkə,qəmdən qurtula.

***

Dərdi atdım dənizə,
Dərd getdi üzə-üzə,
Yığdı dənizin dərdin,
Qayıtdı üstümüzə.

***

Sanmayın ki, qəlbim yoxdur,
Dağ sinəmdə var ürəyim,
Dağlandıqca külə dönüb,
Buz bağlayıb qar ürəyim...

***

Yuxum qaçdı, mən qaçdım,
Ərşə çatdıq ikimiz,
Gün çıxdı, gecə bitdi,
İndi necə yataq biz?

***

Həyat dərin bir çaydır,
Hamını sürükləyir,
Biri hoppanıb keçir,
Birisi iməkləyir.

Ömrüm çiynimdə yük idi–
Hər gün bir daş düşüb getdi,
Əvvəl məndən böyük idi,
Sonda uşaqlaşıb getdi....

***

İllər elə qovdu məni,
itirdim nazi-qəmzəmi,
Ta yaraşmır gülmək mənə–
qırış örtüb cüt qəmzəmi....

***

Titrəyir yenə qəlbim
su üstdə yarpaq kimi,
Damırmış göz yaşlarım
köksümə bulaq kimi...

***

Dünya gözəl bir çəmbərdir–
gündən-günə daralır,
Hər gün bir qəlp simu-zərdir–
axşamacan qaralır.

***

Səba yelin sığalladım,
tufan olub, aldı məni,
Bir mələklə əhd bağladım,
ilan olub, çaldı məni.

***

Demədiyim bir kəlməni,
Min bir kəlməyə vermərəm,

Qəmlə dolu ürəyimi
Min boş ürəyə vermərəm!

***

Elə şirin baxdın ki sən,
Gözüm dəydi bal gözünə,
Dünya baxıb, bir ah çəkdi,
Düşdü qara xal gözünə.

***

Yenə dindi qərib qəlbim,
Sızlar sübhə qədər, susmaz,
Yenə sel oldu göz yaşım,
Gecə durmaz, səhər susmaz...

***

Başım yenə duman-duman,
Bir yel əsə,əsib keçə,
Qəsdə durub qarı zaman,
Fürsət gəzir,kəsib keçə...

****

Qaç görgüsüz bəy-xandan,
Qorx hər kəsdən qorxandan,
Dərd tikanlı gül kimi
Asılacaq yaxandan

***

Dağ zirvəyə asdı çəni,
Tutdu duman bənd-bərəni,
Sığınmağa qucaq gəzdim,
Qəm bağrına basdı məni.

***

İnsan dəndir – səpələnib,
Qoz-fındıqtək ləpələnib,
Yaxşılar çoxdan dənlənib,
Pisləri sən dənlə, Dünya.

***

Bir söz qopdu dodağımdan,
Tutub saxlaya bilmədim,
Qaçıb keçdi qabağımdan,
Çatıb saxlaya bilmədim.

***

Dan ağarır,görən, bu gün
nə müjdələr yetirəcək?
Günəş zərli saçlarında
bizə nələr gətirəcək?!

***

Ört qapını,ürəyim,
Bunun qurdu-quşu var,
Hər gün bir qəlbə girib,
Ordan qovulmuşu var...

***

Günəş yenə daldalanıb,
Görən,bu gün günahı nə,
Nə iş görüb bizdən gizli,
Üzü yoxdur bir görünə?

***

Çəkdiyim dərdlərin rəngi
Üzümdə,eynimdə bitib,
Bəylərlə bostan əkmişəm,
Tağları çiynimdə bitib.

***

Namərdlərə sirri vermə –
Öz sirrinlə satar səni,
Vəfasıza könül vermə –
Gec-tez – bir gün atar səni.

***

Biri özünə bığ qoydu
Ki,ona "kişi" desinlər,
Hamı ona "pişik" dedi,
İtlər,az qaldı,yesinlər.

***

Yenə Ayım bədirlənib,
Par-par yanır çıraq kimi,
Nuru aləmə çilənib,
Sərdim nuruna qəlbimi.

***

Bu gün yenə gəlin kimi
Duvaqlanıb gəlib Günəş,
Göydə naməhrəm gözü var–
Yoxsa, bunu bilib Günəş?!

***

Bir yola çıxmışam – min bir ucu var,
Hansı səmtə getdim, dalana çıxdı,
Tutdum ümid yolun, getdikcə getdim,
Ümidim tükəndi, yalana çıxdı...

***

Qızılgül gülümdür, mənim canımdır,
Ətri cənnət ətri – ərmağanımdır,
Ləçəklər üst-üstdə yığılan qəmim,
Rəngi ürəyimdən axan qanımdır...

***

Dağların ətrini bizə gətirən,
Səhər tezdən əsən meh nə gözəldir!
Güllərin gözündə sevinc yaşları–
O büllur,o inci şeh nə gözəldir!

****

Alın ürəyimi, asın buluddan,
Külək döyəcləsin, yağışlar yusun,
İçində nə varsa, silinsin burdan,
Çıxsın yaddaşından, qoy unudulsun...

***

Ay ellər,yığılın imtahan edək,
Qəlbim səhv üstündən niyə səhv edir?
Niyə düz yolundan dönüb burulur,
Çınqıllı, kəsəkli yollarla gedir?!

***

Bu gecə bir qara qəbirdi qəlbim,
Qərib bir duyğunun yasın tutmuşam.
Zəncirə vurulmuş əsirdi qəlbim,
Dünyanın yolunu mən unutmuşam....

***

Qara bulud, görən, hara tələsir?–
Bu gün yoxdur göydən bir ulduz dərən.
Ürəyimdə dəli küləklər əsir–
Qaranlığa qərq olubdur pəncərən...

***

Səsin qulağıma gəlməsə bir gün,
Xəyalın üzümə gülməsə bir gün,
Ümidim anbaan ölməsə bir gün,
Sənsiz yaşamağa nə vardı axı?

***

Qəlbimdən yuxarı qalxa bilsəydim,
Nələr dəyişərdi ömür yolumda!..
Bəlkə də çıxmışdı cüt qanadlarım,
Mələklər gəzirdi sağda-solumda....

***

Dəliliyi tutub yenə payızın,
Buz kimi əliylə vurur üzümə,
Bulud dəli kimi axtarır məni,
Külək sinsi-sinsi düşüb izimə

***

Demədiyim sözüm mənim qulumdu,
Qırdı zəncirləri, qaçdı əlimdən,
Cənnət qapısında bu sözdən ötrü
Bir gün asacaqlar məni dilimdən...

***

İndi bu Dünyada nəyə inanım?--
Cəhənnəm Günəşin lap bağrındaymış,
Arının ağzında bal dolu xortum,

Zəhərli iynəsi quyruğundaymış!!!

***

Dərdimi deməyə bir nəfər yoxsa,
Neylirdim insanla dolu cahanı?!
Bir qaya olaydım, dağda bitəydim,
Darısqal etməzdim, barı, dünyanı....

***

Bir dəstə gül dərdim könül bağından,
Gözəl insanlara hədiyyə üçün,
Yol saldım dostlara gül yarpağından,
Ən gözəl arzuya yetsinlər bu gün...

***

Gözünü uzağa zilləyən qadın,
Üzündə nə qədər dərdin, qəmin var!
Dünya fırlanacaq – oldun-olmadın,
Bir gün kürəyindən səni də atar….

***

Güzgünü neylirsən, gözlərimə bax,
Keçdiyin bir ömür gözümdən keçir,
Ürəyim qayçıdır, bu uzun yolun
Əyrisin doğrayır, düzünü biçir...

***

Bir ilgək bağladım hər bir duama,
Atdım göy üzünə,tutan olmadı,
Quyunun dibindən çağırdım, amma,
Dəli harayıma yetən olmadı.

***

Əllini aşırdım – seçə bilmədim
Bu fani dünyada dostla düşməni,
Hər kimi dost bilib sirrimi verdim,
İmtahana çəkdi sirrimlə məni.

***

Ayağı altda yer titrəyən ana–
Qupquru quruyan ağac olmusan,
Bir cüt ayaq səni daşıya bilmir,
Bir qırıq əsaya möhtac olmusan....

***

Köhnə dərdlərimi alıb qoynuma,
Allaha min dəfə mən şükr eylədim,
Yeni dərdlərimin baxıb boyuna,
Yüz təsbeh çevirib, min zikr eylədim.

***

Aç qəlbini, Ana Vətən, mən girim,
Əllərimdə qan yaddaşım, qeyrətim,
Qeyrətimi yaddaşıma bandırım,
O, yarana məlhəm olsun, mən – həkim...

***

Kaş keçə biləydin dolaylarından,
Görəydin qəlbimə nələr etmisən,
Necə viran qoyub könül bağçamı,
Güllərin məhv edib, çıxıb getmisən...

***

Gecənin gözləri nə yaxşı görür–
Gedib qaranlıqda sabaha çatır.
Qara gözləriylə qara yollarda
Görəsən, addımın o necə atır?

***

Bu gün xoşbəxtliyi yaxından gördüm,
"Bəh-bəh"lə bir qonşu mənzilə girdi,
Boyuna-posuna mən fikir verdim –
Alçaq qapıdan da keçə bilərdi…

***

Kağıza sığmayan tale kitabın,
Alnına,üzünə yazılıb,Anam,
Qara daşda yoxdur dözümün-tabın,
Sətirlər nə dərin qazılıb,Anam!..

***

Yenə qulaq asdım qəlbim deyənə,
Bir gün ağlım məndən küsüb, gedəcək!
Verməzdim sirri hər dost görünənə,
Bilsəydim, yad kimi susub, gedəcək...

***

Mənə ümid verin, bütün sədləri
Keçim birnəfəsə, birbaşa – vallah,
Körpə uşaq kimi ümid dağların
Aşaram dırmaşa-dırmaşa – vallah!

***

Məndən ənvalımı soruşan adam,
Əhvalım gözümdə yazılmayıbmı?
Həyatım alnıma kitabə kimi
Dərin misralarla qazılmayıbmı?

***

Bu gözlər hüsnünü görmürsə əgər,
Al bu gözlərimi, ver kor bəxtimə;
Bəlkə bir yol tapa, hüsnü-camalın
Nur saça qaranlıq könül taxtıma.

***

Bir bağlı sandığam, içim dolu qəm,
Əl vurma, açılmaz yadlara qapım.
Bir ümman içində tənha üzürəm,
Söykənib durmağa çöp hardan tapım?

***

Mən gedirəm, kölgəm gedir, o qalır,
Kölgə qədər sədaqəti yox imiş,
Bulud dolur, yağıb,yağıb boşalır,
Onun kini buluddan da çox imiş...

***

Dərdimi söylədim bir dərd bilənə,
Dinlədi, göz yaşı sel olub getdi.
Dedim:ay dərdbilən, çarə de mənə,
Tez aldı başını, yel olub getdi...

***

Əlimi açmışam göyün üzünə,
Tutan yox, əlimdən asıblar məni,
Dərd demək istədim Onun özünə–
Mələklər dilimdən asıblar məni...

***

Ağlaya-ağlaya gəldik dünyaya,
Dünyanı bəyənib, heç gülmədik ki...
Sanırdıq əbədi gəldik buraya,
Ölümün olduğun biz bilmədik ki...

***

Dünyanın qərəzi nədir mənimlə?–
Nə olar, a dostlar, bir araşdırın.
Yapayalnız qoyub dərdlə, qəmimlə,
Məni bu zalımla Siz barışdırın...

***

Qəlbimdə bir quş var yalqız,yaralı,
Dolaşır qəlbimin viranələrin,
Ruhu çoxdan düşüb candan aralı,
Köçüb ürəyinə pərvanələrin.

***

Alıb başımı da çıxmışdım yola,
Zatən, götürməyə nəyim vardı ki?
Dünyanı yaz bilib köçmüşdüm bura,
Gördüm hər yan qışdır, hər yan qardı ki!

***

Söz var– desəm, yüngülləşər ürəyim,
Söz var– desəm, aləm mənə güləcək.
Söz var–desəm, bəlkə, dünya qurtular,
Söz var– desəm,dünya məni siləcək.

***

Səni mən ömrümə bərabər tutdum,
Dedim, yaşamaram sənsiz bircə gün,
Zamanın nəhrinə axıb töküldü –
Sən kimi vəfası yox imiş ömrün...

***

Qəlbin bir teli də bu gün qırıldı,
Qəlb ölən telləri bitirmir axı,
Tutub,birləşdirən olarmı onu,
Ürək yamaq-yırtıq götürmür axı...
***

Getmək istəmirsən, qal ürəyimdə,
Amma bir ağrı tək, bir sızı kimi...
Adın orda durur, çoxdan silinmiş,
Üstün yosun basmış bir yazı kimi...

***
Bu gün dan qırmızı rəngə boyanıb,
Görünür,Günəş şad xəbərlə gəlir,
Hiss edib quşlar da – erkən oyanıb,
Gözəl nəğmələri göyə yüksəlir...

***
Uğurum göylərdən enəcək mənim,
Yerdə kimsə onu saxlaya bilməz!
Aqil uğuruma baxıb sevinər,
Paxılın ürəyi bir daha gülməz!
28.07.13

***
Kor "dostum" istədi gözümü tökə,
Hər iynə atdıqca barmaq qatladı,
Nə etdi, gözlərim yenə də gördü,
Bədbəxtin qəhərdən bağrı çatladı...

***

Ömrümün alnına qırışlar düşüb,
Ümidim daş atır bir kor quyuya,

Bəxtimin payına yağışlar düşüb,
Bir Günəş çıxmır ki,əyni quruya...
***
Azmışıq həyatın dolaylarında,
Qərib rüzgar gəzər, axtarar bizi,
Gedək durnaların uçduğu səmtə,
Durnalar Vətənə aparar bizi...
***
Mən niyə hər kəsin dərdini çəkdim?--
Dərdlər "hurrey!!!"çəkib,gəldi üstümə...
Apardım bazarda dərdləri satım,
Bir alan olmadı, qaldı üstümə..

***
Səmimi oxucularımın üzündən iraq!
Sahibinə:
Çox hürən bir köpək giribdir kola,
Cırılmış dərisin yamaqla örtür,
Sadəlövh küçüyün buraxıb yola,
"Hür" deyibdir ona, o da hey hürür.
09.02.13
02.43

***

Sən demə, bəzəkli əfi ilanmış,
İnandım Dünyanın parıltısına,
"Mars"imiş taxtada, oyun tamammış,
Ümid bağlamışdım cüt altısına...

***
Əvvəli zülmətdi, sonu zülmətdi,
İşığı az oldu bu uzun yolun,

Sadiq dostlar kimi biz qoşa getdik,
Yolboyu boynuma bəxt saldı qolun...

***
Aynalarda qaldı gözəl illərim,
Kaş ki, aynalara heç baxmayaydım,
Soldu günlərim də, itirdi ətrin,
Ömrün yaxasına kaş taxmayaydım....

***
Sənin qüdrətinə min şükür, Allah,
Gün çıxmasa, daim gecə olardı,
Qanadı versəydin qozbel dəvəyə,
Bu göydələnlərin necə olardı?

***
Çinar qonaq getdi meyvə bağına,
Görüşmək istədi həmcinsləriylə,
Ağaclar çıxdılar tez qabağına,
Boyu qoymadı ki,çinar əyilə.

***
Deyir,tək qanadla uçmaz heç bir quş.....

Anasız yuvasın xəyal edərsə,
Yuvada balası boynun əyərsə,
Tərlan balasını tutub yeyərsə,
Uçar, vallah, uçar tək qanadla quş…

***
Bu gün bir şəkil gördüm...

Şəhid anasına əl qaldırmayın,

Şəhidlər qəbirdən baxıb,ağlayır,
Çıxıb mərmər altdan, gələ bilməyir,
Qəlbində gülləni sıxıb, ağlayır....
10.03.13

***

Yenə də şeirimin gözləri dolub,
Yazdıqca vərəqlər köksün ötürür,
Qələm tale yazan qara qul olub,
Çiyninə ömrümün yükün götürür...

***

Neçə dəfə içimdə ağlamışam,gülmüşəm,
Heç xəbəriz olmayıb mənim ağlar halımdan.
Axan göz yaşlarımı sizdən gizli silmişəm,
Amma küsülü qalmaq heç keçməyib ağlımdan.



DEYİŞMƏLƏR

İçtirak edirlər:

Balayar Sadiq–müəllim-şair,AYB-in üzvü ,R.Rza makafatçısı
Bayram Apoyev–Gəncə Pedaqoji universitetinin dekanı–şair
Nazlı Hacılı–müəllimə-şairə,NaxçıvanMR
İlqar Süleymanlı Bizəban–Qəzəl ustadı
Mahirə Nərimanqızı– filoloq-şairə
Əliheydər Babayev–müəllim,şair
Fərrux Həsənov–müəllim-şair
Kərbəlayi İlham–FHN əməkdaşı–şair
Ema Alov–müəllimə-şairə
Vaqif Kərimov–rəssam-şair
Xalidə Hicran–rəssam,şairə
Nigar Məhərrəmli–müəllimə-şairə
Rauf Qərib–aşıq
Taha Temel Oktay–şair Türkiyə
İltimas Səmimi–gənc şair
Amil Ağayev–gənc şair
Ruslan Dost Əli–gənc şair
Vüsal Əli–gənc şair

Fərrux Həsənov (Kəlbəcər köçkünü)

Gözəl şairəmiz Mahirə xanıma.

Nə ola qayıdam uşaqlığıma,
Ol mənə bir ana, mənə layla de.
O incə əlinlə oxşa telimi,
Qoyma qəlbim yana, mənə layla de.

Uzun gecələrdə nazım çəkəndə
Mürgülə yenə də dan söküləndə,
Ağlayıb yorulum, kiriyim mən də
Ol mənə bir ana, mənə layla de.

De ”beşiyim laylası”nı, de mənə…
“Ev-eşiyim laylası”nı de mənə,
“Çək keşiyim laylası”nı de mənə,
Ol mənə bir ana, mənə layla de.

"Bala" sözün ölsun dərdim məlhəmi,
Ana deyim, qurban verim didəmi,
Ağlasam, şeirinlə ovundur məni,
Ol mənə bir ana, mənə layla de.

Böyüyüb, yenə də bu yaşa gəlim,
Ay Fərrux, bir eylə tamaşa, gəlim..
Səslə, dizin-dizin həmişə gəlim,
Ol mənə bir ana, mənə layla de.

Mahirə Nərimanqızı

Kaş dönə biləydin uşaqlığına,
Anan sağ olaydı, layla deyəydi,
Oxşayaydı sənin ipək telini,
Ev nurla dolaydı, layla deyəydi.

Analar anadır hər bir körpəyə,
Bükər hər balanı şala, örpəyə
Cüt ana qəlbində sən dön körpüyə,
Ağlayıb,kövrəlim, bir layla deyim.

Deyim "gül beşiyin laylasın" sənə,
Deyim "ev-eşiyin laylasın" sənə,
Deyim "çək keşiyin laylasın" sənə,
Dərd-qəmini silim, bir layla deyim...
Anan tək tut əlim,bir layla deyim.

...
Laylay, beşiyim laylay,
Evim-eşiyim, laylay,
İllər yorğunu tək yat,
Çəkim keşiyin,laylay.

Laylay,beşiyim laylay,
Çəkim keşiyin,laylay,
Dalımca baxıb ağlar,
Evim-eşiyim,laylay.

Laylay,illərim laylay,
Solan güllərim laylay,
Qurda-quşa,çaqqala
Qalan ellərim laylay...
Mahirə Nərimanqızı. "Mənim Dünyam"

Aşıq, al balabanı,
Asta çal balabanı,
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Xoş gün gələr,inşallah,
Üzün gülər,inşallah,
Qəlbindəki nisgili
Allah silər,inşallah!
***

Amil Ağayev
Hərarət icində bir gözəl ana!
Görən, nə düşünür, görən, nə yazır?
Əlac axtarırmı ki, rahatlana,
Yoxsa agrıları bagrına basır?

Mahirə Nərimanqızı
Hərarət içində yatıram bu gün,
Görən, övladlarım, harda, nə edir?
Düalar edirəm mən onlar üçün
Gözümdən göz yaşım sel-su tək gedir.

Amil Ağayev
Görən, düşürmü bir kesin yadına,
İtirmişkən ömrün ötəri dadın?
Bu yetim ölkənin hər övladına
Analıq qayğısı göstərən qadın!

Mahirə Nərimanqızı
Səhərdən telefon susub, dinməyir,
Görəsən, onlardan niyə xəbər yox?
Ürəyim tələşlə əsir, inləyir,
Bayırda xəstəlik, qəza-bəla çox…

Amil Ağayev
Agrınızın mənə verin sərtini.
Ana toxunulmaz, ana muqeddes!
Övladlar anaya deyər dərdini
Analar dərdini kimə deyir bəs?

Mahirə Nərimanqızı
Ağrın mənə gəlsin, ay əziz oğlum,
Ana öz ağrısın sənə verərmi?
Ürəyim – dərd quyum, tərtəmiz oğlum,
Ana övladına dərdin deyərmi?!

21.01.14
00:36

***

Mahirə Nərimanqızı

Ramazan ayının ilk sabahında
Bu gözəl bayramın mübarək,Qərib.
Gəl bir ay buraxaq kədəri, qəmi,
Allaha ibadət, şükr edək, Qərib.

Qərib:
Xoş gəlib Ramazan, ya Rəbbim, şükür,
Bu ayın mübarək olsun, ay xanım,
Namazla, orucla paklanaraq biz,
Qəlbimiz nur ilə dolsun,ay xanım.

Mahirə Nərimanqızı:
On bir ay dolanar bir ay başına,
Tanrı tac qoyubdur bu ay başına,
Sürmələr çəkilb o göz-qaşına,
Toyudur bu ayın, gəl gedək,Qərib.

Qərib:
Sultandır bir ilə bir ay Ramazan,
Zövqləri oxşayır oxunan azan,
Allahın izniylə Cənnəti qazan,
Önündə şeytanlar solsun, ay xanım.

Mahirə Nərimanqızı:
Allah nə yaradıb,gözəl yaradıb,
İnsana baş verib, göz, əl yaradıb,
Gözlərdə nə yox ki?!–Köz, ləl yaradıb,
Bunların qədrini gəl bilək, Qərib.

Qərib:
Ramazan bərəkət, şükür ayıdır,
Allahın insana nemət payıdır,
İçində bir gün var– cənnət tayıdır,
Əlin Cənnət gülü yolsun, ay xanım.

Mahirə Nərimanqızı:
Dünyaya gör kimlər gəldi də, getdi!
Kimlər ad-san qoydu, kimlər nə etdi!
Kimlər nələr əkdi, amma nə bitdi!–
Dünyaya bir nəzər yetirək, Qərib.

Qərib:
Nə gözəl bir mövzu açmısan bu gün,
Sözünlə nur kimi saçmısan bu gün,
Elə bil Cənnətdən uçmusan bu gün,
Növrağın hey belə olsun, ay xanım.

Mahirə Nərimanqızı:
Torpağa gül tumu ək ki, gül bitsin,
Adın sağ dəftərə "insan" tək getsin,
Allah orucunu qoy qəbul etsin,
Cənnətdə Mahiyə rast gələk, Qərib.

Qərib:
Arzuna şəriklik edirəm, əlbət,
Dunyada mən sənə verərək qiymət.
Arzumdur, qapmasın səni də qəflət,
Qərib də yaddaşda qalsın, ay xanım

Mahirə Nərimanqızı

Ürək susub dil danışsa,
Deyilən söz yalan olar,
Dil də çaşıb, həddin aşsa,
Bir qəlb sınar, talan olar.

Vusal Əli
Acı sözlər qəlbi dələr,
Hey axıtsan dildən zəhər,
Sözün dönüb geri gələr,
Öz ağzını çalan olar.

Mahirə Nərimanqızı
Demə, sözüm azad quşdur,
Nə oxusa, mənə xoşdur–
Çox dil yanıb, kül olmuşdur,
Səni oda salan olar.

Mais Temkin
Ürəyimi yaxan gözəl,
Həsrətiyle sixan gözəl,
Oğrun-oğrun baxan gözəl,
Məni məndən alan olar.

Əli Heydər
Şirin oldu söz-söhbətim,
Vardır əhdə sədaqətim,
Bu gecikmiş məhəbbətim,
Mən tək fikrə dalan olar.

Mahirə Nərimanqızı
Avam işin sonun görməz,

Aqil "başa corab hörməz",
Son peşmanlıq fayda verməz,
Bir çiy sözlə olan olar.

Mais Temkin
Məhəbbətsiz günüm qara,
Axtarıram dərdə çara.
Qovuşmasam nazlı yara,
Ömrüm-günüm solan olar.

Balayar Sadiq
Bu nə agrı, bu nə zülüm,
Odum sönüb,yanır külüm.
Boynubükük durma, gülüm,
Sair könlüm nalan olar.

Mais Temkin
Bel baglama qohum, yada,
Dara düşsen, çatmaz dada.
Biz olmasaq bu dünyada,
Sözlerimiz qalan olar.

Mahirə Nərimanqızı
Xoş söz könül sevindirər,
Susan qəlbi də dindirər,
Söz var siniri endirər,
Söz də var qan salan olar.

Əli Heydər
Məni atıb gedən zalım,
Bağrımı qan edən zalım,
Addımımı güdən zalım,
Uyma, yalan-filan nolar.

Mahirə Nərimanqızı
Dediyin söz düzdür əgər,
Min qızıla, lələ dəyər,
Bir gün dilin yalan deyər,
Düz sözün də "yalan"olar.

Ruslan Dost Ali
Mənəm ən cox ən gecikən,
Lap ay-ay, gun-gun geciken
Məclisə hər gun gecikən
Olsa, olsa Ruslan olar.

Əli Heydər
Nə daş atıb baş tutursan,
Gözün atıb qaş tutursan,
Zalım,nahaq unudursan,
Mənsiz günün talan olar.

Nazlı Hacılı
Gəzdim beli bükə-bükə,
Dərd olarmı bundan yekə,
Ümidsizəm,amma bəlkə,
Göz yaşımı silən olar?

Mais Temkin
Şeirdir sərvətim-varım,
Onsuz dinməz könül tarım.
Gəlsə təbi sənətkarın,
Söz-söhbəti kalan olar.

Vusal Əli
Öyrənsən də min bir varaq,
Öyrədənə olsan sən ağ,
Sən olarsan uzunqulaq,
Elim sənə palan olar...

Nazlı Hacılı
Belə inad etmə, gözəl,
Bu qədər naz satma, gözəl,
Məndən uzaq getmə, gözəl,
Baxıb bizə gülən olar.

Mais Temkin
Əclaf, alçaq olan yerdə,
Ustada ağ olan yerdə,
Uzunqulaq olan yerdə,
Mais şiri-aslan olar.

Fədakar Müəllim
Haram qazan daşan yerdə,
Nahaq qızıb-coşan yerdə,
Haqq yolunu çaşan yerdə,
Saxtakarlıq plan olar.

Mahirə Nərimanqızı
Mar yumurtasın gizləsən,
Silib, sevib, əzizləsən,
Hansı quş altda düzləsən,
Ondan çıxan ilan olar.

Nazlı Hacılı
Qızlar, süslənin,bəzənin,
Atlaz,qumaşla düzənin,
Ədəb-ərkanlı gözəlin
Dərdindən çox ölən olar.

Mahirə Nərimanqızı
Bir gözəli sevsən əgər,
Versən ona qiymət,dəyər,
O da səni elə sevər,
Hər dərdini bölən olar.

Mais Temkin
Şair dostum, düşün bunu:
Özündə yoxsa quyunun...
Bütün dünyanın suyunu
Töksən, sanma dolan olar.

Əli Heydər
Əgər mərdə namərd desən,
Dost söyləsən namərdə sən,
Nankor ilə çörək yesən,
O dost deyil, ilan olar.

Mahirə Nərimanqızı
Dünya borca borc dünyadır,
Bizlərə möhtac dünyadır,
Qurd tək gözü ac dünyadır,
Xəz-dərisin yolan olar.

FədakarMüəllim
Birinə çəksən zəhməti,
Halal eylə əziyyəti.
Yaxşılığa ver qiyməti,
Ürəklərdə qalan olar.

Əli Heydər
Yaş ötüşdü,dedim aman,
Əhvalımı sandım yaman,
Canım əldən gedən zaman,
Qayğıma kim qalan olar?

Nazlı Hacılı
Din bəzəsə də aləmi,
Hamının var dərdi,qəmi,
Bu kənddə axtarsan cəmi,
Üç-dörd namaz qılan olar.

FədakarMüəllim
Çalış olma yolun azan,
Kiminsə taleyin pozan.
Ayaq altda quyu qazan
Filan oğlu filan olar.

Bayram Apoyev
Çox olsa da yarın,yiyən,
Qabagında boyun əyən,
Sonda sənə ağı deyən
Bir saçını yolan olar....

FədakarMüəllim
Ağardı bu yolda saçım,
Çox olub şirinim, acım.
İstəsəm bir yerə qaçım,
Qarşımdakı dalan olar.

Balayar Sadiq
Bu bir yoldu,omur adlı,
Kim piyada,kimi atlı.
Sözlə davran ehtiyatlə-,
Bir gün senin bəlan olar.

FədakarMüəllim
Fədakaram,sözündə düz,
Bir biçmədən ölçmüşəm yüz.
Qızardarsam yalandan üz,
Xəcalətim kalan olar.

Mahirə Nərimanqızı
Üzüyümün qaşı düşüb,
Qəmdən ürəyim büzüşüb,
Mahi, dərdlərim birləşib,
Qaş yerinə dolan olar.

***

Mahirə Nərimanqızı
Dəliliyi tutub yenə payızın,
Buz kimi əliylə vurur üzümə,
Bulud dəli kimi axtarır məni,
Külək sinsi-sinsi düşüb izimə

Nigar Meherremli
Bîz tərəfə cövlan edir kuləklər,
Buludlara seyrə cıxıb mələklər.
Dag basına tamarzıdır tuləklər,
Çıxan gündən gün olmadi gözume.

Mahirə Nərimanqızı
Nə qədər incitsə bu payız məni,
Buludlar gəzsə də dağı, dərəni,
Külək də deyəcək hamı deyəni–
Əyrim yoxdur mənim –çıxar düzümə.

Taha Temel Oktay
Çağırdı sözlerin tamamı meni,
Pamuk ellerinde yoğurdu meni,
Bulut gebe Güneş doğurdu meni,
Özüm şaşıp kaldım kızlar özüme.

Mahirə Nərimanqızı
Böyük hörmətim var hər birinizə,
Hər fəsil qoy gülsün gül üzünüzə,
Təşəkkür edirəm,dostlarım,sizə –
Nə gözəl söz qoşduz bir bənd sözümə!

***

Mahirə Abdullayeva
Gecənin gözləri nə yaxşı görür –
Gedib qaranlıqda sabaha çatır.
Qara gözləriylə qara yollarda,
Görəsən, addımın o necə atır?

Amil Agayev
Yol görünməsə də, görünür axı
Yolun sonundakı zəif işartı.
O nur görünməsə bəlkə də gecə,
Azaraq, sabahdan uzaqlaşardı...

***

Mahirə Nərimanqızı
Nə ömürdü, mən yaşadım?–
Açıl, səhər...açıl,səhər...
Qəlbimə hey qəm daşıdım,
Açıl, səhər...açıl,səhər...

Nazlı Hacılı
Üz tutram buludlara,

Yer də qara, göy də qara,
Yalvarıram ulduzlara,
Bu səhər açılmır, açılmır.

Mahirə Nərimanqızı
Qəm həsrəti körüklədi,
Qara qanım köpüklədi,
Dərdlər yenə küçüklədi,
Açıl, səhər...açıl,səhər...

Nazlı Hacılı
Ürək vurur intizarla,
Gözləyirəm mən vüqarla,
Görüşüm var vəfadarla,
Bu səhər açılmır,açılmır.

Mahirə Nərimanqızı
Hər ulduz bir iynə oldu,
Gözlərimə batıb, doldu,
Ayda qəmə büst qoyuldu,
Açıl, səhər...açıl,səhər...

Nazlı Hacılı
Bəs dərdimi kimə deyim?
Gedim kimə boyun əyim,
Səbrim çatmır ki,gözləyim,
Bu səhər açılmır,açılmır.

Mahirə Nərimanqızı

Ey ümidə ilmə səhər,
Yolu dəlmə-dəlmə səhər,
Mahini yad bilmə, səhər,
Açıl, səhər...açıl,səhər...

12.06.13

****

Mahirə Nərimanqızı

Alıb başımı da çıxmışdım yola,
Zatən, götürməyə nəyim vardı ki?
Dünyanı yaz bilib köçmüşdüm bura,
Gördüm hər yan qışdır, hər yan qardı ki!

Vaqif Kerimov

Mən də seyr eylədim yurdu-yavanı,
Gördüm gülüstan da ,qış da burdadı.
Sevdim varlığımla,mən bu cahanı,
Sönməz məhəbbətim,doğma yurdadı.

Mahirə Nərimanqızı

Sizin gülüstanda qar-sazaq yoxdur,
Görünür, ora heç qar yağmamışdır,
Bizim pəncərədən baxsanız, doktor,
Görərsiz bizlərdə ilboyu qışdır...

***

Mahirə Nərimanqızı
Dərdimi söylədim bir dərdbilənə,
Dinlədi, göz yaşı sel olub getdi.
Dedim: ay dərdbilən, çarə de mənə,
Tez aldı başını, yel olub getdi...

Əli Heydər
Açıb-ağartmadın,susdum,inlədim,
Kim nələr söylədi bir-bir dinlədim,
Çörək əvəzinə dərdimi yedim,
O da öz içimdə həll oldu getdi.

Mahirə Nərimanqızı
Dedim ki, çıxarıq bu qışdan yaza,
Bəlkə bu kor bəxtim çəp yoldan aza,
Ümidi bağladım bir vəfasıza,
Yarı yolda qoydu, el olub getdi.

Əli Heydər
Bir vəfa görmədim puç zəmanədən,
Dərd mənə yük oldu, bilmirəm nədən,
Bir nəfəsim qalıb, bir quru bədən,
Dərdimə səbəbkar dil oldu getdi.

Mahirə Nərimanqızı
Dərdimi demədim hər yol ötənə,
Bir salam vermədən gözdən itənə,
Könül verdim hər gün yolda "bitənə,"
Yol üstdə tikan da gül olub, getdi.

Əli Heydər
İmdad gözləmirəm daha imdaddan,
Yapışıb qalmışam bir quru addan,
Həmişə qorxmuşdum fitnə-fəsaddan,
Evimi dağıdan fel oldu,getdi.

Mahirə Nərimanqızı
Fikrim qalıb onun yar-yoldaşında,
Xəbəri yox ondan uçan quşun da,
Demişdi gələrəm bu yazbaşında,
Yaz keçdi, yay keçdi, il olub getdi.

***

Mahirə Nərimanqızı
Kaş keçə biləydin dolaylarından,
Görəydin qəlbimə nələr etmisən,
Necə viran qoyub könül bağçamı,
Güllərin məhv edib, çıxıb getmisən...

Ema Alov
Başın ağriyanda çatdim dadina,
Qədrimi heç zaman sən bilməmisən.
Bir dəfə düşmədim cənin yadina,
Bəs niyə gəlmişdin,niyə getmisən?

Fərrux Həsənov
Təzə bağça əkiib,bağ becərmişdim,
Yenicə qəlbimi sənə vermişdim,
Eşqinlə məhəbbət evi tikmişdim,
Uçurub, dağıdıb, yıxıb getmisən...

Əli Heydər

Qollarım qırılıb, gəl məni dinlə,
Mənə irad tutma az ağla,inlə.
Ay zalım, alnıma sən öz əlinlə,
Gülləni ürəkdən sıxıb getmisə.

Ema Alov
Mən inandim sənə illər uzunu.
Məni tənha qoyub indi itmisən
Ayira bilmədim qurddan quzunu,
Yaxşi ki, ömrümdən çixib getmisən.

Mahirə Nərimanqızı
Od bilib gətirdim kor ocağıma,
Fırtına tək əsdin könül bağıma,
Fəlakət gətirdin qəm otağıma,
Hər şeyi talayıb,yaxıb getmisən.

Nazli Hacili
Nə gecəm gecədir,nə günüm gündür,
Az məni tənələ,az məni yandır,
Sənə demədim ki,qəlbimi sındır,
Xəncəri köksümə taxıb getmisən.

Ferrux Hesenov
Gedirsən,keçmişi unutma barı,
Qəlbimi eylədin xəstə, yaralı,
Əridi dağların min illik qarı,
Gözümdən yaş təkin axıb getmisən..

Əli Heydər
Nə mənim sevgimə bir qiymət verdin,
Nə də ki,eşqini mənə göndərdin.
İndi ki,azadsan,söylə nə dərdin?
Axar sular kimi axıb getmisən..

Mahirə Nərimanqızı
Deyirlər, gedəndə ağlamamısan,
Qaralar geyinib,bağlamamısan,
Eşqinə bir gün yas saxlamamısan,
Tüstümə uzaqdan baxıb getmisən.

Fərrux Həsənov
ram etdin qəlbimi təravətinlə
gedirsən...öyünmə səadətinlə
ay sənəm yalançı məhəbbətinlə
ömrümü daşlara çaxıb gedirsən....

Ema Alov
Göstərdin özünü bir mələk kimi,
Mən elə bilirdim məni sevmisən,
Göründün dağ kimi,itdin toz kimi,
Sən məni yadlara satib getmisən.

Əli Heydər
Nə səni qarğıya bilir ürəyim,
Nə də ki,bilmirəm sənə nə deyim.
Sən mənim həm röyam,həm də gerçəyim,
Məni kimə sən buraxıb getmisən?

Mahirə Nərimanqızı
Qaytaraydın,barı, ötən illəri,
Elə bil, yox imiş sən kimi biri,
Bir dəfə qanrılıb baxmadan geri,
Şimşəktək uzaqdan çaxıb getmisən.

Fərrux Həsənov
olmadın könlümə könül həmdəmi
artırdın qəlbimdə ahı-naləmi
yox oldun qəlbimdən bir mələk kimi
yoxsa da göylərə qalxıb getmisən...

Mahirə Nərimanqızı
Eşqim yuvasında körpə quş idi,
Gözün açmamışdı o,yatmış idi,
O ilan qəlbində nə vərdiş idi--
Körpəcə sevgimi boğub getmisən?

Ema Alov
Hiyləyə ,böhtana,şərə rast gəldim,
Taleyin hökmüdür deyib dinmədim
Rəhmsiz dünyaya üz çevirmədim,
Bir kəlmə deməmiş çixib getmisən.

Ema Alov
Səni düşünəndə hər gün,hər səhər,
Gülərüz çöhrəmi bürüyür kədər
Mənim hər günümü sən edib zəhər,
Xəyanət atini çapib getmisən.

Fərrux Həsənov
Anlayaydın düşünəydin dərindən
almayaydın sən əqlimi sərimdən
ay insafsız ürəyimi yerindən
mən bilmədən sən çıxarıb getmisən....

Mahirə Nərimanqızı
Açmadım kimsəyə mən öz dərdimi,
İnsan öz sirrini deyə bilərmi?
Sən bayraq eyləyib könül sirrimi,
Hər qapı-bacaya taxıb getmisən.

Fərrux Həsənov
deyə bilməz,mənim haqda kimsə nə...
nə danışıb.nə söyləyib kim sənə.
səni sevməz mənim kimi kimsənə
niyə hürküb sən karıxıb getmisən.

Mahirə Nərimanqızı
Bu səhər qapıma durub baxmısan,
Başını daşlara vurub, baxmısan,
Bilmirəm nə plan qurub, baxmısan,
Axırda gözünü sıxıb getmisən.

Ema Alov
Artiq öz sözünü deyibdir zaman,
Yoxdur köməyimə gələn bir insan
Bir vaxt dostlarim da çox idi yaman
Sən məni dostlarsiz qoyub getmisən.

Amil Agayev
Seni od bilirdim, od dunenedek...
Gozlerimde sele sen donenedek...
Sen odlu qelbimde buzmushsan demek...
Eriyib gozumden axib getmisen...

Fərrux Həsənov
kasıbam,onunçün sen beyenmedin?
qoy tutsun yerini di barı ehdin
sen meni sevmedin,heç dqşünmedin?
menümçün bir mezar qazıb .gedirsen....

Mahirə Nərimanqızı
Unutdum sənlə keçən günləri,
Ömrümə vurduğun o düyünləri.
Sən seçdin getməyi, bu sürgünləri,
Bircə de,sən nədən qorxub getmisən?

Ema Alov
Sən alver elədin məhəbbətinlə
Hörmət qazanmadin hərəkətinlə
Dönmək istəyirsən hansi hiylənlə?
Sən mənim qəlbimdən çixib getmisən.

FədakarMüəllim
Üzüldü əlindən,üzüldü əlim,
Tükənib nəfəsim,quruyub dilim.
Sən indi hardasan,de hara gəlim?
Qurşunu qəlbimə sıxıb getmisən.

Mahirə Nərimanqızı
Bəlkə də baxmısan gendən özünə,
Keçmiş film kimi gəlmiş gözünə,
Utanıb, bir ələk tutub üzünə,
Başını kollara soxub getmisən!

FədakarMüəllim
Olub keçənlərdən,güman ki,bezib,
Uzaqda dolanıb,uzaqda gəzib,
Məni ayaq altda tapdayıb,əzib,
Yandırıb,şimşəktək çaxıb getmisən.

Fərrux Həsənov
bu sevdanın cəfasından usanıb
bəlkə məni özgəsinə qısqanıb
etdiyindən heç olmasa utanıb
bəlkə mənsiz sən darıxıb getmisən...

Amil Agayev
Olmadin shagirdin agli keseni...
Ne cebri oyrendin, ne hendeseni...
Birin ustune bir gelmishdim seni...
Sense ikiden bir cixib getmisen...

FədakarMüəllim
Allandım sözünə,aldandım onda,
Göründün gözümə neçə cür donda.
Mənimçün etdiyin hər şeyi sonda,
Vallahi başıma qaxıb getmisən.

Fərrux Həsənov
nə ağlı kəməm mən ,nə də dəliyəm
eşq yolunda divanəyəm.ləliyəm
səndən mərhəmət də uman deyiləm
adını qəlbimdən silib gedirsən.....

***

Mahirə Nərimanqızı
Dərdimi söylədim bir dərd bilənə,
Dinlədi, göz yaşı sel olub getdi.
Dedim:ay dərdbilən, çarə de mənə,
Başını buladı, yel olub getdi...

Əli Heydər
Açıb-ağartmadın,susdum,inlədim,
Kim nələr söylədi bir-bir dinlədim,
Çörək əvəzinə dərdimi yedim,
O da öz içimdə həll oldu getdi.

Mahirə Nərimanqızı
Dedim ki, çıxarıq bu qışdan yaza,
Bəlkə bu kor bəxtim çəp yoldan aza,
Ümidi bağladım bir vəfasıza,
Yarı yolda qoydu, el olub getdi.

Əli Heydər
Bir vəfa görmədim puç zəmanədən,
Dərd mənə yük oldu,bilmirəm nədən,
Bir nəfəsim qalıb,bir quru bədən,
Dərdimə səbəbkar dil oldu getdi.

Mahirə Nərimanqızı
Dərdimi demədim hər yol ötənə,
Bir "sağ ol" demədən gözdən itənə,
Könül verdim hər gün yolda "bitənə,"
Yol üstdə tikan da gül olub, getdi.

Əli Heydər
İmdad gözləmirəm daha imdaddan,
Yapışıb qalmışam bir quru addan,
Həmişə qorxmuşdum fitnə-fəsaddan,
Evimi dağıdan fel oldu,getdi.

Mahirə Nərimanqızı
Fikrim qalıb onun yar-yoldaşında,
Xəbəri yox ondan uçan quşun da,
Demişdi gələrəm bu yazbaşında,
Yaz keçdi, yay keçdi, il olub getdi.

***

Mahirə Nərimanqızı
Nə gözəl qonaqlar gəlib məclisə!
"Xoş gəldin!" deyirəm gələn hər kəsə,
Ürəklər bir belə gül açmış isə,
Susmayın, qəlbiniz geysin zər-xara.

Mahirə Nərimanqızı
Şikayət eyləmə dostdan, qardaşdan,
Bir az da günahı özündə ara,
Düşün olanları, düşün lap başdan,
Haqq yolun tut, üzün çıxmasın qara.

Əli Heydər
Söz meydanı qoy qızışsın yenidən,
Yaxşı sözə qiymət olub binədən,
Şair odur sözü desin sinədən,
Bənzəsin bu meydan fəsli bahara.

Vusal Əli
Düşünmədən söyləmərəm sözümü,
Yersiz sözlə qaraltmaram üzümü,
Haqqa doğru dikmişəm öz gözümü,
Batil olan sözlər hara, mən hara?..

Kərbəlayi İlham
Xeyir yuksəlməyə hər an təməldir,
Yaxşılıq insanın qəlbin düzəldir
İnsanın dünyada yükü əməldir
Qoyma şeytan yükü səni də yora.

Əli Heydər
Dünya fani,ömür qısa,bivəfa,
Biri dərd-qəm çəkir,digəri səfa.
Kimisi dərdinə axtardı dəva,
Kimi həyatını qoydu qumara.

Kerbelayi İlham
Peyğəmbər buyurub: ölüncə get sən
Yerini öyrənib, bilincə get sən.
Elm Çində olsa dalınca get sən
Gəz bu kainatı elmi gəz ara.

Əli Heydər
Şikayət eyləmə bəxt,taleyindən,
Bir düşün bu günə düşmüsən nədən.
Əgər pisliklәri silsən qəlbindən,
Hər bir müşkülə sən taparsan çarə.

Kerbelayi İlham
İnsan bu dünyada qonaqdır bilki
əvvəli-axırı torpaqdır bilki
Çətin gün insana sınaqdır bilki
Dost-tanış tanınar düşəndə dara

Mahirə Nərimanqızı
Kim düz yolu qoyub,əyrini seçər,
Ömrü dolaylardan,tinlərdən keçər,
Bir gün qəm badəsin əliylə içər,
Çıxmaz bir dalanda qalar avara...

Kərbelayi İlham
Yalançı şöhrət-şan gəldi gedərdi.
Pisliyin axırı qəbrə qədərdi
Yığma dünya malın, sonu hədərdi
Heç zaman aldanma dövlətə-vara.

Əli Heydər
Olmadım əsiri şöhrətin-şanın,
Qaçmadım dalınca heç bir ad-sanın.
Axmaq zəmanənin,bu tərs dövranın,
Əlindən bilmədim mən qaçım hara...

Mahirə Nərimanqızı
Sev eli-obanı, bütün cahanı,
Yaşamaqdan gözəl bir nemət hanı?
Heç kim tutub durmaz fani dünyanı,
Kim yığdığın alıb, getdi məzara?

İltimas Semimi
Yenə sənsizliyin oyur qəlbimi,
Bu hicran deyilmi, mönət deyilmi?
İtdin gözlərimdən batan Ay kimi,
Getdim qaranlığı mən yara-yara.

Kərbəlayi İlham
Qılınc ola bilməz kəlmədən iti
Ilham, yaddan çıxart ucuz şöhrəti
Ləyaqət alçalsa düzəlməz qəti
Nə var kömək edər, nədə pul-para.

İltimas Semimi
Əxlaq əldən gedər, vicdan oğrular,
Dillərdə dolaşan belə məsəl var,
"De pulsuz insanı sayanmı olar?"
İnsan hər bir işdə dövlət axtara.

Əli Heydər
Heç kəs taleyindən qalmasın naçar,
Yaradan ucadır,qapılar açar.
İnsan ümidiylə ruhlanar,uçar,
Dözər min sazağa,borana,qara.

Vusal Əli
Mən günah pərdəsin başıma sərdim,
Tövbəsiz irmi üç yaşıma gəldim,
Diriykən özümün yasıma gəldim,
Olmuşam əməlsiz miskin avara.

Əli Heydər
Savaba can atdım,günah eylədim,
Duamı hər axşam,sabah eylədim,
Tövbəni min dəfə Vallah eylədim,
Tanrım kömək olsun mən günahkara.

Bayram Apoyev
Yar, bax ürəyimə, yaradı sənsiz,
Hər gecəm, gündüzüm qaradı sənsiz,
Gələrmi dilimə "yar" adı sənsiz,
Ay zalım, bəxtimi etsən də qara?

Əli Heydər
Könlümü vermişdim o vəfasıza,
Ki,ondan qəlbimə məhəbbət sıza,
Demədim yaramı batırıb duza,
Vur onun üstündən ikinci yara.

Bayram Apoyev
Özümü yolunda fəda eylədim,
"Çor" dedin, mənisə "can, can" soylədim,
Tanrıdan mən səni yarım dilədim,
Sənsə satdın məni dövlətə-vara.

Əli Heydər
Kim dilləndi məhəbbətdən danışdı,
Vəfa, əhddən, sədaqətdən danışdı,
Saf sevgidən, xoş ülfətdən danışdı,
Həsrət qaldım, bu cür əhdə, ilqara.

Bayram Apoyev
Qelbi kor olana söyləmə "canan",
Yagsız bir çıraqdan olarmı yanan?!
İnsafsız, bimörvət, əhdini danan-
Çətin ki yetişe agıldan bara !

Mahirə Nərimanqızı
Cəhənnəm adlı yer buradı sənsiz,
İzlər artıq qışa, qaradı sənsiz,
Bilmirəm heç yolum haradı sənsiz,
Çöküb qara duman, çən bu yollara.

İlqar Süleymanlı Bizəban
Üzüyün dəyəri yoxsa da qaşsız,
Əsil aşiq gərək olsun sirdaşsız,
Yar hicrində gözlər qalmasın yaşsız,
Bir kəsi düşməsin belə azara.

İltimas Semimi
Dayan, nə yazmışam hələ nəyim var?
Daş tək susanlardan şairmi olar.
O böyük Vurğundan mənəm yadiqar,
Sənətklar demirəm mən hər yazara.

Mais Temkin
Bu fani dünyanın hər işi kələk,
Sən demə, şeytanmış dediyin mələk.
Qəfəsi bülbüle bexş eden fələk,
Gülün qismətini yazıbdır xara.

Vusal Əli
Hər kəs öz payını həyatdan aldı,
Səndə açan güllər məndə saraldı,
Fələk hərəmizi bir yerə saldı,
Səni gülüstana, məni məzara...

İlqar Süleymanlı Bizəban
Cahana bivəfa söyləmək olmaz!
Hər gülün qönçəsin iyləmək olmaz!
Vəfalı yar üçün neyləmək olmaz,
Telindən asaraq çəkərsə dara?!

Mais Temkin
Qəm-kədər ömrümə yazılı qaldı,
Dərdim sevincimə qısılı qaldı.
Bir gözel telindın asılı qaldım,
Bax belə zülm etdi mən sitəmkara.

İlqar Süleymanlı Bizəban
Yoxdur qəmdən özgə mənim həmdəmim,
Keçmir onsuz ayım,günüm,həm dəmim,
Yar busəsi olsa əgər zəmzəmim,
Təvafçün getmərəm özgə diyara.

Mais Temkin
Vaxt vardi, sevirdim bir incəbeli,
Onun həsretindən olmuşdum dəli.
Çiynimin üstünə tökülən teli,
Sonradan boynumda döndü şahmara.

İlqar Süleymanlı Bizəban
Yarın xoş sözünə,dilinə qurban,
Şahmar tək qıvrılan telinə qurban,
Vətəninə qurban,elinə qurban,
Vursa da qəlbimə gündə yüz yara.

Nazlı Hacılı
Gələndən,gedəndən ha sordum səni,
Sənsizlik saçıma tığlayıb dəni,
Sən elə vəfasız sanma heç məni,
Adını yazmışam axan sulara.

İltimas Semimi
Bəxtimi oxudum yanaqlarından,
Kecdim bu sevdanın sınaqlarından
Ürəyim doymadı dodaqlarından,
Gəl görüs yerinə gedək dübara.

Nazlı Hacılı
Bağçada açmışdı tər-təzə bir gül,
Onun dövrəsində dolandı bülbül,
Sar həmlə etsə də gülə naqafil,
Gül bülbülü qoyub baxmadı sara.

Vusal Əli
Qəlbim bir mədəndir söz ixrac edər,
Sözdən dəm vuranı biəlac edər,
Şahları qul edər, qulu tac edər,...
Sözlə zəncir vurar namərd qollara.

İlqar Süleymanlı Bizəban
Səni də xoş gördük,ey nurlu cavan,
Bihəyadan,bifər dostdan ələman,
Səni bu əxlaqla ucaldar zaman,
Rəbbim səni salmaz atəşə,nara.

Əli Heydər
Nə yaman vəfadan, əhddən deyirsən,
Düz yolu döndərir, burur, əyirsən,
Bir düşün,insafsiz, nə eyləyirsən,
Məni möhtac etdin sən ahu-zara....

İltimas Semimi
Fəqət, Məşədini sevmədi Gülnaz,
Dedi, Sərvər kimi növcavan olmaz.
Qoca, qurban olum, fikirləş bir az,
Qız sənlə qol-qola getməz Bulvara.

İlqar Süleymanlı Bizəban
Cavan var, mini bir telinə dəyməz,
Şəlalə saydığı selinə dəyməz,
Tam dili yarımçıq dilinə dəyməz,
İllərlə yüyürsə çatmaz İlqara.

Mahirə Nərimanqızı
Dünyanın əşrəfi insandır, insan,
Onunla zər-xara geyinib cahan,
Başına nə gəlsə Dünyanın, inan,
Mahi, yenə insan tapacaq çara.

***

Mahirə Nərimanqızı
Ay ellər,yığılın imtahan edək,
Qəlbim səhv üstündən niyə səhv edir?
Niyə düz yolundan dönüb burulur,
Çınqıllı, kəsəkli yollarla gedir?!

Ema Alov
Qəlbinin səsinə qulaq as hər an,
Gəl onu nahaqdan etmə imtahan.
Çınqıllı, kəsəkli yolla gedən qəlb
Böyük insanlarda olur hər zaman.

Amil Agayev
Məsəl var ki, daşlı-kesekli yolda,
Gezen ayaqlara dash deyer, ezer,
O qelb diridir ki, qorxmur ezabdan,
Ölu qelb hamar yol axtarar, gezer...

Mahirə Nərimanqızı
Qəlbim daim seçdi çətin olanı,
Qovdu şər-böhtanı, qovdu yalanı,
Həqiqət axtardı, düzlük axtardı,
Qıy vurub dolaşdı bütün cahanı.

Ema Alov
Sonsuz xəzinədir sənin o qəlbin
O qəlbdən süzülən düşüncələrin,
Çınqıllı , kəsəkli yollardan keçib
Qəlblərdə yurd salıb, əmin ol, əmin.

Amil Agayev
Nə yaxşı varmış daş-kəsəkli yollar,
Qəlbi hamarlayır, yonur, düzəldir.
Yalniz ağrı-acı görən qəlblərin
Yaratdığı əsər xoşdur, gözəldir...

Ema Alov
Qorxutmayır onu nə qar, nə yağış,
İnamla yeriyir, onunla barış.
Nurlu səhərlərə birgə addımla,
Şeiriyyətə alqış, sənətə alqiş !

Mahirə Nərimanqızı
Hər kəs ürəyiycən görür Dünyanı,
Qəlbimizdən böyük bir Dünya hanı?

Dağ boyda ürəyin pıçıltısıdır
Dindirir Amili, xanım Emanı.

****

Mahirə Nərimanqızı
Qızılgülün butasıyam, butası,
Ətri ərşi-müəllaya çatası,
Ürəyimdə şipşirin bir dərdim var--
Bu ömrümün ən möhtəşəm xətası!...

Amil Agayev
Kovrek konul dunen ki, tek bu gun de
Gezisherdi xatireler kulunde.
O olmasa tenhaligin golunde.
Umid gemim batasiydi, batasi...

Amil Agayev
Qinamayin, ilin-gunun bu vaxti.
Baxishlar buz, qelbler soyuq sazaqdi.
Lap yanimda olan menden uzaqdi
Bir ALLAH'dir sessiz sozum catasi...

Xalida Hicran
Başımda var ,qara sevda bəlası
Hər sevənin ,olar min bir xatası
Yaş ötdükcə, qalacaq xatırası
Ayrılığın varmı, başqa çarası?

Ema Alov
O yaratdı bir könül macərası,
Ona zərbə vurdu zalım balası.
Çox istədim bu bəlanı dəf edim,
Sağalmadı ürəyinin yarası.

Ema Alov
Odur mənim gözlərimin qarası
Dərdə düşüb ürəyimin parası.
Çarə tapa bilməmişəm, nə edim?
Ona kömək olsun elin duası.

Ema Alov
Çox gözəldir bu yerlərin havası,
Hər quşin var öz sevimli yuvası.
Xəstə ürəklərə, sınıq qəlblərə,
Həmişə məlhəmdir onun anası.

Mutalib Tahiroglu
Qızılgülün butasına baxaydım,
Derib yarın yaxasına taxaydım,
Yar üzünde su tək dolub axaydım,
Züzüləydim, islanaydı yaxası.

Şəhrizad Azəri
Xetanıda, derdini de men alım,
Qızıl gülün leçeyitek saralım.
Qelbim bir limandır lövber salası,
Söyle varmı bu qelbimde qalası?

Ferrux Hesenov
Bir kamanam,nə pərdəm var,nə simi
Deyənmirəm mən də haqqa səsimi
Buta güllər qoy bəzəsin nəşimi
Bu dərdimin yox məlhəmi,çarəsi*

Ferrux Hesenov
Xəzan vurdu vaxtsız soldu çəmənim
O xallı bənövşəm,tər yasəmənim
A dostlar yaralı qəlbimin mənim
Uçub istehkamı,yoxdu qalası*

Ferrux Hesenov
Baxışından məhəbbəti anıram

Kərəm olub səni Əsli sanıram
Eşq oduyla alovlanıb yanıram
Olacaqmı bir"kərəmi"çalası?

Ferrux Hesenov
Hökm eyləyir zaman,qəddimi əyir
Xəzan küləyi də qapımı döyür
İndi məni görən didəırgin deyir
Dağılıb Fərruxun yurdu,yuvası.

Mahirə Nərimanqızı
Qızılgülü dərdilər ey,dərdilər,
Yolub, günə sərdilər ey, sərdilər,
Məni yada verdilər ey,verdilər...
Zülm elədi cana zalım balası.



Nə qədər incidib əzsə də məni,
Dünyaya gəlməyə çox şadam, Allah!
Kiməsə dost oldum, kiməsə yoldaş,
Kiməsə anayam, övladam, Allah.

Dost kimi yardıma, köməyə qaçdım,
Ana tək laylalar deməyə qaçdım,
Övladtək Yasinə, duaya qaçdım,
Ürəyəm, nəfəsəm – mən ad'am, Allah!

Seçildim insantək daşdan, torpaqdan,
Seçildim ağacdan, otdan, yarpaqdan,
Qurtuldum cücü tək yaddan çıxmaqdan–
Cismimdə yaşayır bir Adam, Allah!

Bu boyda Dünyada, yaxşı ki, varam,
Bnununçun mən Sənə çox minnətdaram,
Hər canı can bildim,yarasın – yaram,
Qanadsız quşlara qanadam, Allah,
Dünyaya gəlməyə çox şadam, Allah!

Mahirə Nərimanqızı. “Mənim Dünyam”